Fəridə Hacıyeva

# MƏNİ MƏNDƏN ALAN DÜNYA

BAKI - 1998

İSBN5-86874-097-1
«Səda» nəşriyyatı

Fəridə Hacıyeva
Məni məndən alan dünya
Şerlər kitabı 176 səh.

Çapa imzalanmışdır 15.08.98.
Kağıç formatı 60x84 $^{1}/_{16}$, fiziki çap vərəqi 11. Tirajı 500
Müqavilə qiyməti ilə.

«Elnur - P» kiçik müəssisəsinin mətbəəsində çap edilmşidir.

# Ön söz

Fəridə xanımı mən çoxdan, hələ "Aşıq Pəri" məçlisinin ilk günlərindən tanıyıram, kövrək, incə qəlbli bir gənc şairə kimi. İllər ötdükcə, Fəridə xanımın imzasını dövri mətbuatda izlədikcə səhv etmədiyimi, Azəri - türk qadın şairləri cərgəsinə ləyaqətli bir qələm sahibinin də daxil olduğunu görür, sevinirdim. Amma hər halda səkkiz saatlıq iş günü, analıq, evdarlıq zəhmətləri içərisində onun bu qədər ədəbi məhsul yetirdiyini düşünməmişdim. Onların içərisində bədii cəhətdən elə qüvvətliləri var ki, lap ustad aşıqlarımızın yoluyla gedərək, cinas qafiyələr belə yaratmaq təşəbbüsünə sevindim. Onun Sarı aşığa, «Heydər baba»ya və onlarla başqa mövzulara həsr etdiyi şerlər belədir. Hansı mövzuda yazır-yazsın, Fəridə xanımın, nazik qəlbi həyacanla səslənir, mahnı kimi, bayatı kimi. Kəndlərin boşalıb, cavanların şəhərlərə axışması, qocaların gözü yollarda qalması, insanın bir-birinə münasibətindəki narahatlıq, inciklik incidir kövrək şairəni. İnsan İNSANDIRSA bir-birini sevməli, hörmət, məhəbbətlə yaşamalıdır: «Daha incitmərəm səni», «Dağ kəndi» və onlarla başqaları kimi şerlərdə şairənin kövrək qəlbi həyəcanla dinlənir, amma bağırtıyla deyil incəcə. Lakin «İnsan» şerindən çıxarılan fəlsəfi nətiçə şairənin təntənəsidir - fikir, duyğu təntənəsi. Həyatda gördüyü yamanlardan, acılardan çıxardığı nəticə:

Vallah, külə dönür güllər içində
Daşlar arasında daşlaşır insan.

Bu, Fəridənin poetik kəşflərindən biridir. Bax elə şairəni qorxudan da bu daşlaşmadır, tənhalıqdır. Qaçmağa çağırır bu hallardan.

Dönə-dönə demişəm ki, mən klassik şerlə, əruz və hecayla poetik tərbiyə aldığımdan sərbəst vəzni o qədər də sevmirəm. Amma Fəridə xanımın elə sər-

bəst şer parçaları var ki, onlar əsil şer nümunələridir.

Fəridə xanımın bu günümüzlə - bəlalarımızla, şəhidlərimizlə, yağı tapdağı altında inləyən torpaqlarımızla bağlı poetik parçaları bütün başqa əsil qələm sahibi şairlərimiz kimi titrədir oxucunu, 90-cı illərin qara yanvarında rus istilaçı canavarlarının qırdığı, erməni faşistlərinin hücumlarına qarşı çəbhələrdə həlak olan şəhid oğullarımız, dağlarda donan, çadırlarda doğulanların, ölənlərin façiəsi şairəni hər bir azəri türkü kimi elə sarsıtmışdır ki, bu mövzulara həsr etdiyi onlarla şer millət anasının dediyi ağılardır, ana naləsidir; fəryadı göyləri titrədən dünya boyda dərd yağır bu şerlərdən: «İnsaf ver, Allah!», «Bəlkə onda», «Gözüm baxır kor olmağa», «Qırmızı qərənfil»», «Ay ellər»… Adlarını saymaq deyil, oxumaq lazımdır. Hər birimizin qəlbini oyan, oycalayan bu hisslər Fəridə xanımın da kövrək qəlbinə hopmuşdur.

Uğur arzulayıram, şairə bacım, şairə qızım, Fəridə xanım.

***Əzizə Cəfərzadə***

# *Qəm adlı dünyanı almışam yoxsa*

## BƏLKƏ ONDA

*(20 Yanvar şəhidlərinin
xatirəsinə həsr olunur)*

Xalqımın sınmağı
yamanmış qardaş.
Səsimizi, ünümüzü
göz görəsi,
çilik - çilik sındırdılar.
Döz dedilər,
dözək qardaş.
Neçə oğul inamını,
amalını doğramlayıb
Diri - diri yandırdılar.
Mən də oğul yiyəsiyəm.
Yaman sındı oğlum, allah.
Saçlarına dən də düşüb
bir balamın.
Oğulların lal fəryadın
bayatıyla deyəsiyəm.
Bayatıya dönüb ürək,
yandı allah,
yandı allah.
Dinənlərə sus dedilər,
Yamanlara pus dedilər,
Dostumuzdu rus dedilər.
Biz də susduq,
susduq qardaş.
Qəlbimizlə, canımızla
elə dedik,
dostumuz da
rusdu qardaş.
Azadlıqda ola - ola
dustaq olduq.
Dünya dərdə dözən olduq,
dözək gərək.

Qana dönmüş dünyamızda
Baş da vurub
üzək gərək.
Bəlkə onda,
dözəmməyə ulularım.
Koroğlular baş qaldıra,
haya gələ oğullarım.
Gözümüzə kül üfürən
nakəslərin qabağında
Dəlilərim daş qaldıra.
Atlılarım at oynada
dönə - dönə.
Bəlkə onda,
bu dünyanın üzü dönə,
üzü dönə.

## GÖZÜM BAXIR, KOR OLMAĞA

İstəyirsiz asın məni,
Doğram - doğram
kəsin məni.
Yalana bax, çövlan edir.
Bağrım qan - qan olur mənim.
Bu yalanlar,
aman - allah!
yasım mənim,
yasım mənim.
İstəyirsiz atın məni
bir dənizə.
Boğulmaram.
Vallah, billah
boğuluram,
bu günümdə,
bu anımda.
Baxa - baxa
boğuluram.
Yazıqlarım!
Sizə, sizə.
İstəyirsiz heç adımı
çəkməyin də.
Qoy göz yumum bu dünyaya.

Aşıq Veysəl bəxtəvərmiş.
Öz dünyası,
öz aləmi.
Zülmət dolu gözlərində
neçə arzu,
neçə dilək.
Yaşadardı istəyini,
sevincini.
Hər kəlməsi bulaq gözü.
Söz, dünyası,
Söz aləmi.
Gözüm baxır,
sola, sağa.
Solum belə, sağım elə.
Bir işə bax,
gözüm baxır
haqsızlığa baxa - baxa
kor olmağa,
kor olmağa.

## İNSAF VER, ALLAH

Vay fələk, bu dünya od içindədir,
Doğmalar gen düşüb, yad içimdədir,
Tək - tükü əkində, ya biçindədir,
Yolun azmışlara insaf ver, allah.

Vallah baş açmıram, bu nə toy - büsat,
Əyriyə göz yumaq, kimləri pusaq
Bu nə vurhavurdu, düz dünyam busa
Beyni qızmışlara insaf ver, allah.

Oğullar xaltalı, boynu zəncirli,
Hünərin varsa da, oğul gəz indi,
Aşkarlıq içində hər şey gizlindi,
Qanun yazmışlara insaf ver, allah.

## QIRMIZI QƏRƏNFİL

Qırmızı qərənfil, aman qərənfil,
Könlümü, bağrımı yaran qərənfil,

Yamanca hovlanıb yaram, qərənfil,
İncimə, bağışla, bağışla məni.

O günün ağrısı ürəyimdədi,
Dərdin ağırlığı kürəyimdədi,
Ayağım torpaqda, dirəyim nədi?
Gəl götür dəryazı, gəl xışla məni.

Qırmızı qərənfil, canım qərənfil,
Qanıma boyanıb qanın, qərənfil,
Qoy səni ağlayım, yanım qərənfil,
Nolar qarışdırma yağışla məni.

Bu vətən torpağın yası mənimdi,
Qızılı, gümüşü, pası mənimdi,
Bu dünya ağrılı, hamsı mənimdi,
Tanrım, ta sınama qarğışla məni.

## YATMIŞDIM,
## AYILMIŞAM

Heç bilmirəm hardayam
        Bu dünyanın üzündə,
                yoxsa yerin altında.
Özüm də baş açmıram.
Bəlkə boranda,
                qarda.
Hərdən elə gəlir ki,
        dardayam,
                vallah darda.
Üzüm dönür dünyadan.
Qalıram boş havada.
Çəkisizlik içində
                üzürəm,
        hey.. .üzürəm.
Yatmışdım.
                Ayılmışam.
Konlüm dəli davada.
Düşmənimi göstərin,
                düşmənimi gəzirəm.

## ULDUZLAR YERƏ ENİB

Səhərin zülmət gecəsi
Ala - toran, yuxulu.
Səssizliyin içində
Hər nə varsa, qorxulu.
Göydə ulduz yox,
Yer də də oyaq adam.
Az qalıram hay salıb
Yeri, göyü oyadam.
Mən də yuxulu kimi
Baxıram,
yol qarışıq.
Ürəyim səksəkədə
Nə dinir,
nə danışır.
Ulduzlar yerə enib,
pəncərədən sayrışır.

## AY ELLƏR

Torpağıma üz qoyuram, ay ellər,
Torpağımda şəhidlərim yatıbdı.
Oğullarım, gəlinlərim, qızlarım,
Göz görəsi, gəmilərim batıbdı.

Torpağıma üz qoyuram, ay ellər,
Torpağımın qan qoxusu qorxulu.
Yer də, göy də əl uzadıb tanrıya,
Bilən varmı kim oyaq, kim yuxulu.

Torpağıma üz qoyuram, ay ellər,
Qoy deməsin üzü dönük çıxmışam.
Nəğmələrim göz yaşımla sellənib,
Göz yaşımı bu torpağa sıxmışam.

## NƏYİMƏ GƏRƏKDİ

Bir damla göz yaşımda dünya dərdim,
Bir damla göz yaşımla yandım, əridim.
Ağrılardan gah öldüm, gah dirildim,
Belə dünya de, nəyimə gərəkdi.

Körpələrim silahlanıb dözümlə,
Çəkinirəm vallah, özum-özümnən,
Gurultulu sözlər düşüb gözümnən,
Haylı- küylü dil, nəyimə gərəkdi.

Torpağımın ağrısı nə, dərdi nə,
Haray saldım, kömək umdum dərdimə,
Əlim yetmir bu fələyin dərdinə,
Təzələnən il, nəyimə gərəkdi.

## KÖNLÜM SUSUB

Könül, yenə halın yaman dönübdü,
Ürəyinnən nələr keçir, bilən yox.
Söz aləmin, ilham pərin sönübdü,
Harayına əl uzadıb, gələn yox.

Göz önündə xatirələr bükümü,
Ömür çəkir keçən günün yükünü,
Ötən günlər, xoş günlərin köçümü?
İtiyini arayan yox, görən yox.

Yer də mənə, göy də mənə dar gəlir,
Duman çökür, qırov qonur, qar gəlir,
Qınamayın, dinmək mənə ar gəlir,
Dünyam susub, dindirən yox, dinən yox.

## NEYLƏYİM

Bu qovğalar yaman yorub özümü,
Bu qovğalar qırıb, kəsib sözümü,
Görün-görün tüstülənən közümü,
Dada yetib, söndürən yox, neyləyim.

Bu qovğalar qala - qala qalanmış,
Min - min arzu, min - min dilək talanmış,
Elə bilki ötən günlər yalanmış,
Könül açıb, dindirən yox, neyləyim.

Elim - eldən uzaqlaşıb elə bil,
Yaz soyuyub, sazaqlaşıb elə bil,

O çöl - çəmən yazıqlaşıb elə bil,
Əl uzadıb gül dərən yox, neyləyim.

## YAMAN DƏYDİN DAŞA SƏN

Qara günüm məni alıb tərkinə,
Yaman çapır, havalı tək, ərkinən.
Kövrək qəlbim, haqsızlıqdan bərkimə,
Xoş günləri yada salıb, yaşa sən.

Dünyam böyük, yaxşı da var, yaman da,
Səni görüb danan da var, yanan da,
Bay o gündən qanmaz ola yanında,
Dinmə, lal ol, ayaq döymə başa sən.

Əl tutduğun əldən kömək istəmə,
Haqsızlıqdı, sel tək cuman üstümə,
Köz - köz olub, elə yandım tüstümə,
Dedim ömür, yaman dəydin daşa sən.

## HALAL OLSUN

(Azərbaycanın Milli qəhrəmanı Aqil Quliyevə həsr olunur)

Xoçalının qeyrətini çəkən oğul,
Erməníni ot yerinə biçən oğul,
Keçilməyən zirvələri keçən oğul,
Halal olsun, halal olsun, halal sənə.

«Boz Qurd» dedin qeyrət dolu adına sən,
Ər igidim, yetdin torpaq dadına sən,
Sadiq qaldın türkün dönməz andına sən,
Halal olsun, halal olsun, halal sənə.

Meydan boyu sinə gərdin sən ölümə,
Türk oğlusan, əyilməzsən nəs ölümə,
Oğul balam, qalib gəlsən tərs ölümə,
Halal olsun, halal olsun, halal sənə.

## KÖNÜL YAMAN SUSUB

Könül yaman susub, üzu qarayam,
Nəğməli dünyamı gəzim, arayım.
Dolaşıq zamanda izim, harayım
İtibdi, bilmirəm nəyəm, nəçiyəm.

Əlimdən nə gəlir, bilmirəm özüm,
Ar gəlir özumə söhbətim - sözüm,
Ürəyim od tutur, közərir gözüm,
Bəlkə bu dünyada mən dəmirçiyəm.

Nəğməli ürəyə, dilə tamarzı,
O keçən günlərə, ilə tamarzı,
Məndən uzaq düşən elə tamarzı,
Bu yollar həmdəmim, mən bələdçiyəm.

## UZAQLARDAN GƏLMİŞƏM

Nə əbam var, nə daşım,
Dünya bir qəbir daşım,
Vallah bilinməz yaşım,
Uzaqlardan gəlmişəm.

Gözüm, könlüm tox mənim,
Qorxudammaz xof məni,
Odda yandır, yax məni,
Eh ... nələri görmüşəm.

Mənə dəli dedilər,
Qəmim, dəmim dedilər,
Batım gəmim dedilər,
Bu günümə gülmüşəm.

Varım - yoxum özüməm,
Söhbətinəm, sözünəm,
Könlü kövrək, gözü nəm,
Dünya görmüş dərvişəm.

## MƏNDƏ YOL GEDİRƏM

Mən də bir qəribəm bu yer üzündə,
Yoxsa ögeyləşib, yer - göy gözümdə,
Hərdən ayrı düşüb özüm - özümdən,
Bu dünya başımı qatır ay aman.

Düşmüşəm yolların elə düzünə,
Vallah tamarzıyam sözün düzünə,
Əlim ürəyimdə, ağlar gözüm nəm,
Bu yolda nələri tapır ay aman.

Mən də yol gedirəm ölümə doğru,
Yalanlar yiyəsiz, yox olub doğru,
Qalmışam bu yolda yarımçıq, yorğun,
Ömür atlı olub, çapır ay aman.

## BU DÜNYA DÜZƏLSƏ

Arzular, istəklər məndən irəli,
Güllənib yenidən doğulasıdı.
Gumanım dadıma çata bilməsə,
Vallah bu yer üzü dağılasıdı.

Ağsaqqal dünyadan umaçağım çox,
Hərdən yetimləşib, qısılıram da.
Daha qızınmağa od - ocağım yox,
Boğazım üzülür, asılıram da.

Siz allah deməyin, yazığam, təkəm,
Nəğmələr ən doğma hayım - harayım.
Bu dünya düzəlsə, razıyam təki,
Torpağa qarışsın bir ömür payım.

## ŞÜKÜR BU GÜNƏ

Nə deyim, ilahi
        Şükür bu günə.
Bu acı - ağrılı,
        oddu - alovlu
yaman günümə.
Şükürlər deyirəm,

şükürlər hələ.
İmansız sözünə,
dinsiz sözünə.
Mat qalıb baxıram
özüm - özümə.
Daşammı dinməyim.
Suyammı susum.
Kimləri qoruyum,
kimləri pusum.
Deyimmi ilahi, deyimmi şükür.
Əl - əldən ayrılıb,
El - eldən köçür.
Yaman düyünlənib
o xoş diləklər.
Qurğular içində
çaşıb qalmışam.
Vətənə od qoyur, vətən övladı.
Allahım, sözüm yox,
Lap mat qalmışam.

## XOÇALIM HEY .. .

Yaman dolub ürəyim,
Göz kölgəli, üz qara.
Yurdum talan - talandı,
Çəkilibdi söz dara.

Dağ döşünün laləsi,
Selləri şəlaləsi,
Ellərin ah - naləsi,
Sinəm üstə yüz yaram.

Xocalım hey …, vətən hey …,
Qarda batan körpəm hey …,
Eldən - elə ötən hey …,
Dağ üstündə buz qaram .

## YALAN CÖVLAN EYLƏYİR

Zamanın bom - boz üzü
Çırmayıb ətəyini
Yaman hayda - harayda.

Donub qalmışam düzü,
Sözüm də tükənibdi.
Yalan cövlan eyləyir,
yalan üzümə durur.
Bu andlar,
bu amanlar
Yalana bülənibdi.
Dünyadan baş çıxarmaq
Vallah, gözümə durur.
Biri dolanbadolan
yol göstərir
yolçuya.
Yetimi doyurmayan
kefli kefli oğullar,
Kefindən,
damağından
Pul verir qaraçıya.
Bu nə gün,
bu nə dövran.
Yolların azan da var.
Çərxi dönüb fələyin.
Cəhənnəm elə budu!
Od üstə qazan da var.
Yalan çövlan eyləyir,
Yalan üzümə durur.
Dünyadan baş çıxarmaq
Vallah,
gözümə durur.

## «MƏN»DƏN DÖNÜRƏM

Soyuq ürəklərin
Soyuq daşları,
Yaman qolaylanır,
başıma düşür.
Donuq ürəklərin,
donuq başları
Ömrümün ən yetkin
yaşına düşür.
Kimlər qarşılanır
cahü - cəlalla.
Səbrim tükənmədə,

Yoxsa ölürəm.
Kimlərin üzünə
Gülürük allah!
Canımda qan donur
bu gəlha gəldən.
Unudub ağrılı,
qanlı günləri.
Unudub,
unudub o güllələri,
Özüm də bilmədən
«Mən»dən dönürəm.

## DÜNYAM

Mən dünyanın əlində,
Çaşıb qalmışam belə.
Dünya mənim əlimdə,
Gedir elədən - belə.

Mənmi yormuşam onu,
Omu yorubmu məni.
Ömrüm illər yorğunu,
Dünyam sevincim, qəmim.

Yol uzun, ömür qısa,
Şirinliyi bal dadır.
Bir ömür yarıdırsa,
Görən dərdi hardadır.

Mən dünyanın əlində,
Əsir olmuşam, əsir.
Dünyam mənim əlimdən,
Allah, hara tələsir.

## SÖZÜMÜ DEMƏLİYƏM

Mənə dinməz deməyin,
Harayım od püskürər.
Könlümü dindirməyin,
Dağım - dağım sökülər.

Mənə yazıq deməyin,
Yazıqlaşan deyiləm.
Poladdandı diləyim,
Qoymaz, vallah əyiləm.

Mənə adi deməyin,
Göylərin mələyiyəm.
Zirvələrə yol açıb,
Sözümü deməliyəm.

## ALLAN QORU

Allah qoru
        qoru məni,
                havalanmayım.
Üzdən iraq,
        şər gözlərdən
                qaralanmayım.
Səbrim daha tükənmədə.
Tanrım.
        Mənə bir yol göstər.
Bu dünyaya
        yükəm mən də.
Yalvarıram
        çıxar nəsdən.
Ruhum göydən imdad dilər.
İmansıza iman gərək.
Allahsızın sözünə bax.
        Həya bilməz.
Gen dünyada
        göz - görəsi,
Quzğun təki,
        ürək dələr,
                ürək dələr.

## QƏRİBƏYƏM

Qəribəyəm,
        qəribəyəm
Heç bilmirəm
        kiməm, nəyəm.
Qışda yayın arzusunda,

Yayda qışın həsrətində.
Mənə deyən gərək canım,
Ağıllıyam ya dəliyəm.
                  Heç bilmirəm
       kiməm, nəyəm.
Qəribəyəm,
                  qəribəyəm.
Yaz gecəsi, ay işığı.
Ürəyimin söz yanğısı
Varlığımın yaraşığı.
Eh . . .ömrümün yol ayrıcı.
Zirvəsi nə, düzü nədi?
Baş götürüb hara qaçım.
Davam vallah, özümlədi.
Qəribəyəm,
                  qəribəyəm.
Heç bilmirəm
                  kiməm, nəyəm.
Qışda yayın arzusunda,
Yayda qışın həsrətində.
Deyən gərək mənə canım.
Ağıllıyam, ya dəliyəm
Heç bilmirəm,
                  kiməm, nəyəm.

## HAQQIN DİLİ KƏSİLİR

(Görkəmli alim Ziya Bünyadova həsr olunur)

Xalqımın qara baxtı!
Oğullar hara baxdı?!
Məsəl var, ölüm haqdı,
Bu ölümə bənzəmir.

Tanrım, üzü qarayam,
Görünməmiş harayam,
Kimdi girən araya,
Kəsilibdi səs - səmir.

Alim allaha yaxın,
Qalxın, ayağa qalxın!

Bu nə ölüm, nə axın?!
Haqqın dili kəsilir.

## SEÇƏSİYƏM – SEÇƏSİ

Bu ömrümün yoxuşu çox, düzü çox,
Neçə - neçə deyilməmiş sözü çox,
Ağrılara ürək dözür, dözüm çox,
Min - min dərdi biçəsiyəm - biçəsi.

Dilim qısa, göz kölgəli beləcə,
Hey ağlaram, oğrun - oğrun, gizlicə,
El yanında üzüm qara, gör necə,
Od alovdan keçəsiyəm, keçəsi.

Torpağımda at oynatdı yağılar,
Sinəm dağlı, hara getdi oğullar,
Görən harda, görən harda oğul var?
Kimi kimdən seçəsiyəm, seçəsi.

## HƏSRƏTİN DAŞINI TÖKMÜŞÜK DAHA

Həsrətin daşını tökmüşük daha,
O vüsal yanğısı bahadan baha,
Gör kimlər əlində qalıbdı yaxam,
Əhvalım pozulub, halım yamandı.

Düzlərin laləsi biçilib, nədi?
Coşan şəlalələr içilib, nədi?
Dağlar da gözümdə kiçilib nədi?
Ay allah bu nə çən, bu nə dumandı.

Ay ellər, Araza nəğmə qoşan yox,
O eldən, bu elə eh . . .qovuşan yox,
Gələnnən, gedənnən heç soruşan yox,
Bilmirəm, kim kimdən imdad umandı.

## NEYLƏYİM

Bu qovğalar yaman yorub özümü,
Bu qovğalar qırıb, kəsib sözümü,

Görun - görun tüstülənən közümü,
Dada yetib, söndürən yox, neyləyim.

Bu qovğalar, qala - qala qalanmış,
Min - min arzu, min - min dilək talanmış,
Elə bilki, ötən günlər yalanmış,
Könül açıb, dindirən yox, neyləyim.

Elim - eldən uzaqlaşıb elə bil,
Yaz soyuyub, sazaqlaşıb elə bil,
O çöl - çəmən yazıqlaşıb elə bil,
Əl uzalı, kül dərən yox, neyləyim.

## VARLI HƏYƏTİN
## QARNI TOX İTLƏRİ

Varlı həyətin
Qarnı tox itləri
Ac yalavaçlara
dirsək göstərdi.
Yanın ha ...
çatlayın ha . . .
Mən yeyirəm.
Yemək məndən.
Siz də elə,
baxa - baxa
qalın ha ...
Qarnı tox,
gözləri ac
itlərə bax.
Yediyi toyuq budu,
ətdi sümük,
kolbasa.
Pay düşəmməz kasıba,
gözləri də ağarsa.
Üzü özünün,
quyruq bulayanlara
artıq urtuğu.
İtlərə bax,
Ağasından
elə budu umduğu.

«İşləməyən dişləməz»
Belə dedi, babalar.
İşləməyən dişlədi.
Yarı yalın,
yarı tox
Yazıq fəhlə atalar
Sabaha ümidü yox
Külüng vurdu,
işlədi.
Ət yerinə qazanda
Qara daşlar bişmədi.
Varlı həyatin,
qarnı tox itləri
Şah oğlu
şahdan betər.
Aşkarlığın içində
Mən kiməm
Sözüm ötə.
Mənim,
sənin əlindən
haqqı qamarlayanlar
Ağ yalan uydurmada.
O bunu didələyir,
bu onu didələyir.
Üzə gülən oğullar
Arxadan kül ələyir.
Sözümün kəsəri yox,
Yaramın gözü bəlli.
Belə yaramaz vallah,
Qansız qudurğanların
Gözlərinə qan damıb.
Sözüm sənədi allah!
Göydən yerə daş yağdır.
İnsan insanı danıb.

## TƏRSƏ DÜŞÜB İŞLƏRİM

Bu dünyada tərsə düşüb işlərim,
Bu dünyada heç mənimki gətirmir.
Qismətə bax, qıçayıbdı dişlərin,
Mən qəribdən, dərd əlini götürmür.

Min sifətli üzlər görüb daraldım,
Dolanmağa bu meydanda baş gərək.
Yana - yana közə dönüb qaraldım,
Əl tutmağa daş üstündən daş gərək.

Əlim göydə, tanrım mənə sus deyir,
Səsim, ünüm yetən deyil bir yana.
Düz dünyada tərsə düşüb işlərim,
Vay o gündən ağzımızda dil yana.

## MƏNİ MƏNDƏN ALAN DÜNYA

İlahi, dünyamı dönüb?
Dünya hərislik dünyası.
Yaxşılığa üz tutan yox,
Bu dünya pislik dünyası.

İnam itib, məssəb itib,
Varlığına inanmırsan.
Qılınc kimi əsəb iti,
Dünya, bizlə dolanmırsan.

Doğar qarnın hanı dünya?
Oğulların vardı axı.
Haram tikə tutub yoxsa
Bu yoxluğu yarıb baxın

Duman çöküb, dağlar itib,
Bu nə sirdi aman dünya
Könül ağlar yetim-yetim,
Məni məndən alan dünya.

## ORALIYAM, ORALI

Mən qəribin ürəyinə dəyməyin,
Kövrəlmişəm, el - obamdan aralı
Dindirməyin, mənə yaxın gəlməyin,
Könül ağlar, yaralıyam, yaralı.

Ürəyimin yüz ağrısı dil açıb,
Həsrətə bax, yol boyunca əl açıb,
Yuxulardan lələ köçüb, el qaçıb,
Öz yurdumnan aralıyam, aralı.

Nə yamanmış yad torpaqda qəriblik,
Gah soyuduq, gah oddandıq, əridik,
Neynəsək də bu torpaqda qəribik,
Bir el var ha ... oralıyam, oralı.

## AĞLARAM

Göy üzünə duman gəlib yenə də,
Aman tanrım, mən qəribə kömək ol.
Mən kiməm ki, kimsəsizəm belədə,
Yoxdan var ol, ürəksizə ürək ol.

Bu torpağın soyuq üzü yamanmış,
Soyuqluqdan buz bağlayıb adamlar.
Bəlkə elə buz qayadan yaranmış,
Sərt baxışlı, soyuqqanlı adamlar.

Demə məndə, dözüm varmış dözməyə,
Dağ dərdimə həmdəm olub ağlaram.
Qismətimdən gileyliyəm, sözlüyəm,
Öz yaramı, öz əlimlə bağlaram.

## YOXSA

Ömrümün ağrısı, acısı olub,
Sevincim əlimnən qaçası olub,
Yolumun bir neçə haçası olub,
Qanadı qırılmış bir quşam yoxsa.

Qar altda sığınan çiçəyim hanı?
Gözəllər içində göyçəyim hanı?
Anamın qıvrılan birçəyi hanı?
Gözə göz deмərəm, göz yaşım yoxsa.

Alan yox, satana insaf ver allah,
Ölümü insana asan ver allah,

Gözüm görə - görə yasımsa allah,
Qəm adlı dünyanı almışam yoxsa.

**KAMRAN BALAM**

(Metro qəzasında igidliklə həlak olan Kamrana həsr olunur)

Ay mənim oğul balam,
Şirinim, noğul balam,
Sənsiz mənə həyat yox,
Yenidən doğul, balam.

Allah sənə necə qıydı,
Bu nə yasdı, bu nə vaydı,
Saydığını yaman saydı
Aman fələk, zalım fələk.

Yerə - göyə yoxdu sözüm,
Belə dərdə necə dözüm,
Yolda qalıb hələ gözüm,
Yaman döndü çərxin, fələk.

Bacıların gözü yaşlı,
Anan ağlar, başı daşlı,
Atan deyər, dağım aşdı,
Bu nə dərddi söylə görək.

Ocaq başı köz - köz oldu,
Daş - divarın göz - göz oldu,
Ağılarım söz - söz oldu,
Ağılara dözən gərək.

**BU DÜNYA**

Bu dünyanın çərxi dönüb elə bil,
Bu dünyanın başı qarma - qarışıq.
Nakəslərin üzü birdi, dili bir,
Heç bilmirsən, kimlər kimə qarışır.

Bu dünyadan od götürən köz olur,
Düz əməli yaman olur, söz olur,

Astara bax, göz görəsi üz olur,
Heç bilmirsən, kimlər kimlə yarışır.

Zalımlara ölüm - itim kar etməz,
Qardaş yıxar qardaşını, ar etməz,
Toxun açdan nə xəbəri, yedirtməz,
Yazıq kasıb, gör nələrlə barışır.

Bu dünyaya sözüm vardı deyəsi,
Görən kimdi bu dünyanın yiyəsi
Baş açmıram, kimlər kimi yiyəsi,
Tülkü şirə, şir tülküyə qarışır.

## DUYĞULARIM

Bü dünyanın çalın - çarpaz yolları,
Yaman yorub, yaz ömrümün yaşını.
Mat qalmışam, boşalıbdı qollarım,
Şər çirmənib, tolazlayır daşını.

Qismətə bax, bəxti yeyin olmadım,
Eh . . .nələrdən ahıllaşdım eləcə.
Bir tikəni xəlvət yeyən olmadım,
Bürmələdim xiffətimi gizlicə.

Dərdli olub, dərdi yığdım köksümə,
Qınamayın, nəğmələrim ağrılı.
Anam vətən dərdə düşüb, köksü nəm,
Dağ dərdiylə sarıyacaq ağrımı.

Oyun var ha ... gözü bağlı, bağlıça,
Mən də belə, bu oyuna qoşuldum.
Bir də gördüm, bu da bir yol ayrıcı,
Gözlərimə kül üfürən qoşundu.

Anam deyib, torpağımı səslədim,
Haray qopdu, dağlarımnan daş kimi.
Qopan daşı ürəyimdə gizlədim,
Gözlərimdə qövr eyləyən yaş kimi.

## ALATAY DAĞLARI

Salam, möhtəşəm, dalğın Alatay dağları.
Otlu, sulu, çeşməli,
baxıb düşündükcə mən,
Nələr gəlib keçməyir gözlərimin önündən.

Gəldi neçə çaparlar, getdi neçə çaparlar,
Gəlinlər corab hörər, iyidlər at çaparlar.
Hər xalqın öz adəti, öz tarixi, öz izi,
Az olmadı silənlər, torpaqdan izimizi.

Alatay dağları, tarixin neçə qədim,
Hanı atlı oğullar, o qıpçax gözəlləri.
Kimlər düşdü yadıma, necə də artdı dərdim,
Bir dünyadan ağırdı, bir şairin kədəri.

Alatay dağları, seyr edirəm hüsnünü,
Seyr edirəm o günü, seyr edirəm bu günü,

## İNSAN OĞLU

İnsan oğlu, sadə dolan, sadə gəz,
Sadəliyin gözəlliyi yamandı.
Ləldi, dürdü, bir incidi sadə söz,
Öz - özünlə gəl öyünmə amandı.

Nə firəngə, ingilisə qul ol sən,
Ana dilin düzümündə qurul sən,
Elim var ha .. .el yolunda yorul sən,
Vallah elin övladındı, anandı.

İnsan oğlu, sənə sözüm var mənim,
Sevgi dolu ürəyimi yar mənim,
Vətən adlı məhəbbətim var mənim,
Məhəbbətim ürəyimdə qalandı.

## SÖZÜM QALMAYIB
(Telli Pənah qızına ithaf edirəm)

Baxıram sağıma, soluma hələ,
Baxıram cığırsız yoluma hələ,

Üz tutub gedirəm elədən - belə,
Vallah, bu dünyada gözüm qalmayıb.

Kələyi bilinməz tələyə bir bax,
Gözləri görünməz ələyə bir bax,
Əlləri göylərdə dəliyə bir bax,
Vallah, bü dünyada dözüm qalmayıb.

Bu günüm sərsəri, itib elə bil,
Ağsaqqal kəsəri bitib elə bil,
Gör kimlər kimlərə yetib, elə bil,
Vallah, bü dünyaya sözüm qalmayıb.

## ODAM, SÖNMƏRƏM

İlham pərim, əfv et məni,
Yaza bilmərəm, bilmərəm.
Yuxum yaman yuxu imiş,
Yoza bilmərəm, bilmərəm.

Elim yandı dilim - dilim,
Bu nə sirdi, nədən bilim,
Haqqı tutdum, yandı dilim,
Daha dinmərəm, dinmərəm.

Dağılsana, yaman dünya,
Yağdı bağrım aman dünya,
Gözü yaşlı qalan dünya,
Yaşı silmərəm, silmərəm.

Qərənfillər damar - damar,
Yer də, göy də bizi anar,
Şəhid desəm, dilim yanar,
Odam, sönmərəm, sönmərəm.

## YANAN DA SƏN, YAMAN DA SƏN

Qara şəhər,
            qara şəhər.
Qara tüstü,
            qara zəhər.

Zaman - zaman
qara günlü fəhlələrin
Ciyərinə zəhər olub
Axşam - axşam,
səhər - səhər.
Neçələri xəzan doymuş
çiçək kimi.
Vaxtsız sönüb,
vaxtsız solub.
Fəhlə əli qabar - qabar.
Nə qışı - qış,
Nə yazı - yaz.
Şaxta, ayaz.
İllər boyu
belə keçib,
ömrü - günü.
Öz içində, öz harayı,
ahı, ünü.
Qalxan duman,
çən - çiskinli.
Yox havası.
Dəmirlərin getməz pası.
Fəhlə burda,
ağa evdə.
Fəhlə işdə,
ağa kefdə.
Adına bax,
Qara şəhər!
Kefindədi ağ günlülər.
Nə veçinə
Ağ geyinib süzənlərin.
Dərddən uzaq,
qəmdən uzaq
Ağ şəhərdə gəzənlərin.
Dünya qəribə dünyadır.
Nə qurğudur,
nə qaydadır.
Birinə ağ,
o birinə qara düşür.
Neçə dözüm,
Bir ürəkdə neçə sözüm.

Qara şəhər,
nədir belə
Xəyalından gəlib keçən.
Yanan da sən,
yaman da sən.

## TALANDI

Bu dünyanın qara günü başlayıb,
Bü dünyanı qara keşiş daşlayıb,
Yer usanıb, göy üzünü yaşmayıb,
Bulud sıxıb göz yaşını, amandı.

Bu da meydan, at oynadan bilinməz,
Aşkar işi yamaqladıq, bilinməz,
Qanlar hopub torpağıma, silinməz,
Dərd üstünə təzə dərdlər qalandı.

Sinə gərdim, ox tuşlandı sinəmə,
Namərd əli yaman endi sinəmə,
Ana vətən, ulu vətən, sirrin nə?
Göz görəsi, yerin - yurdun talandı.

ÖTƏN – ÖTDÜ

Bu günümdə belə getdi bir anda,
Ötən ötdü, ötən günüm yadımda,
Haqsızlıqdan coşan oldu qanım da,
Baş dünyamın, başsız qalan əməli.

Haqqı tapar, haqq arayan sözümdə,
Kərəm yandı, xan Əslinin gözündə,
Cılızlaşır belə dünya gözümdə,
Bu dünyanın yaxasıdı düyməli.

Aman - allah gedən kimdi, gələn kim,
Toy vurulur, ərən kimdi, gəlin kim,
Haydı deyib, hay salanda gəlin ki,
El - obamın öz səsidi deməli.

## UCU KƏLƏFLİ DÜNYA

Ucu kələfli dünya,
Ucuz, kələyli dünya,
Gözü ələyli dünya,
Aldığın, satdığın nə?

Sənə həyan olmuşam,
Dərdi bəyan olmuşam,
Mən də belə yolmuşam,
Bu yola atdığın nə?

Dədəm Qorqud, dedilər,
Soyu «Boz Qurd» dedilər,
Sizin bu yurd dedilər,
Azın nə, artığın nə?

Köç gedir, köçü saxla,
Bu günü köçür, saxla,
Ərənsən kökü saxla,
İtiyin, tapdığın nə?

## MEYDAN MƏNİMDİ

Yaman coşub qanım həyacanlıyam,
Koroğlu nəvəsi dəliqanlıyam.
«Misriyəm», «Cəngiyəm», yolam, «Yallıyam»
Tomrisin ruhundan tutulub mayam.

Haydı oğullarım, haydı bu yerdə,
Torpaq dilə gəlib, vaydı bu yerdə,
Dağını, daşını saydı bu yerdə,
Yersiz yer eylədi, yerli qaç indi.

Xeyir - duam olub torpaq əzəldən,
Qarabağ seçilməz, seçmə gözəldən,
Necə ayrı düşsün, baxan göz, əldən,
Görən gözümüzdü, yaradan əllər.

Odunam, oduna bələnəm gərək,
Od olub, göylərdən ələnəm gərək,

Hayıma, ünümə gələnlər gərək,
Ey dilim, sözünün ağası ol gəl.

Yurdumun yurd yeri cadar - cadardı,
Torpağa göz tikən, xain, naçardı,
Xalqım, düşmənə də süfrə açardı,
Əlimdə duz - çörək, meydan mənimdi.

## ANAM, VAY DEMƏ, VAY DEMƏ

Bir xəbərdən könül sındı,
Obam özün qərib sandı,
Haqsız gəlib, haqqı dandı,
Anam, vay demə, vay demə.

Kimsəsizəm, dilim qısa,
Kimdi bizi belə qısan
Vurhavurun sonu busa,
Anam, vay demə, vay demə.

Odu güllü olan vətən,
Külü gözə dolan vətən,
Hanı doğru, yalan vətən
Anam, vay demə, vay demə.

Övladınam üzü qara,
Geyinibdi sözüm qara,
Düşüb torpaq gözü qara,
Anam, vay demə, vay demə.

## DƏRDİM DƏRDDİ

Yenə qəmin içindəyəm, içində,
Dərdim dərddi ürəyimə sığammaz.
Əziz dostum, qınasan da hədərdi,
Qəm dəftərin aç, dərdimi ora yaz.

Nə müddətdi dağlar - daşlar məskənim
Dağlarımın dağ ağrısı yamandı.
Torpağımı külək döyüb, sel yuyur,
Dərələrə söylətməyin, amandı.

Hələ nələr məskən salıb sinəmdə,
Dərdim böyük, əziz dostum qınama.
Qız qalası mənə baxır qəlbidən,
Daşa dönüb, çatan deyil dadıma.

Meşə boyu vələs, cökə fikirli,
Boynu bükük bənövşələr yasdadı.
Keçmiş ola, o gözəllik, o cəlal,
Tikanlıqda asta yeri, asta dur.

Neyləyimki, sağım - solum yaralı,
Ağbirçəyim öz yerindən gen düşür.
Bir işə bax, gündoğanı qar alır,
Dil bilməyən qüzeyimə gün düşür.

Əziz dostum, qınamağa haqqın yox,
Havam çatmır, mən də qəmin yiyəsi.
Dünya, mənim sevinməyə haqqım yox,
Dərdim dərddi, deyəsiyəm, deyəsi.

## OD VAR

Od var, qalxar dilim - dilim,
Torpağı, daşı yandırar.
Od var, nəinki, qurunu,
Toxunsa, yaşı yandırar.
Aman, aman, dad əlindən.

Od var, qaraldar budağı,
Ağac kökündən quruyar,
Od var, yaxar solu - sağı,
Tüstüsünü ərşə yayar.
Tapılmaz imdad əlindən.

Od da var, ayrılıq odu,
Düşsə hər yanı yandırar.
Kül edər ulusu, yurdu,
Ürəyi, canı yandırar.
Qürbət odu, dad əlindən.

## ÇATAN DEYİL

Bir xəbərdən yaralandım,
Öz içimdən paralandım.
Yerim - yurdum zülmət olub,
Görün necə qaralandım.
Səadətim çıxdı yoxa
                    bircə anda.
Oda düşdüm,
        Odda məndən aralandı.
        Bu zamanda
Dil - dodağım kösövləndi.
Hayıma bax,
                    bu haydımı?
Payıma bax,
                    Dərd paydımı?
Ağrılarım nə dərindi.
        Dərdli könül,
                    çək dərdini.
Qəm sinəmdə ayaq açıb,
        Nə gündüzü, nə gecəsi ...
Yuxusu yox, qərarı yox.
Qışı gəlir,
                    baharı yox.
Yay yaydımı?
        Ömrümə bax,
        Ömr adlanan saraydımı?
Bu neçə ay,
                    bu neçə il.
Ha çapsam da istəyimin köhlənini
                    bu yollarda.
Mənzilinə çatan deyil,
                    çatan deyil.

## MƏHV EDƏYDİK

Nə xəbislik olaydı,
Nə də acı yamanlıq.
Düzlük, saflıq olaydı,
Yaxşılıq, mehribanlıq.
Üzdən iraq kəsləri,

Çıxarıb sıramızdan.
Yaramaz nakəsləri,
Qovaydıq aramızdan.

Təmizləşib, dürləşib,
Haqqa doğru gedəydik.
Əqlimizlə birləşib,
Pisliyi yox edəydik.

**AYRILIQDAN AZ DANIŞIN**

Papaq altda qalanlardan,
Doğrulardan, yalanlardan.
Alov olub, yananlardan,
Haydan - küydən, az danışın.

Daşa dönmüş əsrlərdən,
O müqəddəs nəsillərdən,
Mən nə bilim, eh nələrdən,
Ondan, bundan az danışın.

Bax irəli, hünər, mərdlik,
Nəyə lazım belə sərtlik.
Ər övladı, biz ərlərik,
Bu günümdən siz danışın.

Demə, yanıb göz - göz oldum,
Neştərləndim köz - köz oldum,
Ah nalədən söz - söz oldum,
Çən dumandan az danışın.

Bax soluna, bax sagına,
İnam dolu bir axına,
Qayna - qarış, gəl yaxına,
Ayrılıqdan az danışın.

**45 - MİN QATARLAĞI**

Avropadan üzü bəri
                    Axır gəlir.
Dağ silqətli, dağ vüqarlı,

45 - min qatarları.
Elə bilki, birdən - birə
Çiçək açır yer kürəsi.
Gurladıqça hər tərəfdə
zəfər himni, mahnı səsi.
Vətən oğlu,
vətən qızı
Qələbəylə dönür geri.
Gözü yolda neçə ana,
neçə bacı,
Gözləyirdi bu günləri.
Dörd qış ötdü,
dörd də bahar.
Bitdi dava, bitdi döyüş.
Qatar gedir vətən sarı.
Sağda görüş,
solda görüş.
Könül çıxır intizardan,
Üfüqlərdə qızarır dan.
Yer üzünə səhər gülür,
Baxışlardan nur tökülür.
Qatar gedir,
görüşünə şəhər gəlir,
kənd yeriyir.
Mayın ılıq nəfəsilə,
Çən çəkilir, qar əriyir.
Elə bilki, görkəmi də dəyişibdir
Göyün, yerin.
45 - min qatarları
Düzlər keçər,
Dağlar aşar.
Qovuşdurar ataları,
balaları.
Qırğız, qazax, türkmən bacım,
yola çıxar.
Sevgililər bir - birinin
əlin sıxar.
Sevinc, fərəh
aşıb, daşar.
Günəş rəngli, al bayraqlı,

45 - min qatarları.
Şanlı zəfər dastanı tək
Dildən - dilə düşüb yaşar.
Bax beləcə
Əsrlərdən əsrlərə
İnam dolu harayıyla
keçəcəkdir,
45 - min qatarları.
Nəsillərdən - nəsillərə
dastan olub,
Yaddaşlara köçəcəkdir,
45 - min qatarları.

## OĞUL VERİN

Oğul verin, oğul olsun elimə,
Oğul yoxsa, nə saxlayar, eli nə?
Gümüş qurşaq taxın igid belinə,
Qaçaq Nəbi, Eyvazıma bənzəsin.

İgidlərim əyilməzdi, əyilməz,
Ağrı nədi, acı nədi o bilməz,
Oba - oba, mahal - mahal dolan, gəz,
Görəmmərsən çıraq tutub, gəzəsən.

Oğul verin, qardaş olsun Fərhada,
Qoy sınasın öz gücünü qayada,
Layiq olsun bu şərəfə, bu ada,
Gözləyəndə eləsini gözlə sən.

Muğan zəhmət, muğan hünər istədi,
Muğan Qorqud nəfəsinin üstədi,
Bu qeyli - qal, bu hay - haray bəs nədi?
Dindi zaman, öt bu günü sözlə sən.

## BU YOLLAR - ÖMRÜMÜN AĞIR KARVANI

(Əzizim Nüşabəyə həsr elədiyim şerlər)

Bir sönmüş ocağın harayına bax,
Bu dünya üzündə yarıyana bax.

Od tutar daş-divar, yarın yanar bax,
Yoxluğun ölümə bənzəmir allah.

Nə deyim, taleyin bəxti kəm oldu,
Ömrünün ulduzu yaman kəm oldu,
Görən şirin cana qıyan kim oldu,
Çavab ver bu dərdə, çavab ver allah.

Gözümdə bu dünya bir baxıcıymış,
Taleyin ağrısı yaman acıymış,
Əçdaha qismətin gözü acıymış,
Yazını yazana insaf ver allah.

Sənə hələ nələr deyəsiyəm mən,
Tanrının verdiyi qəm səsiyəm mən,
Çəkilməz dərdimin yiyəsiyəm mən,
Bu dərdi çəkməyə dözüm ver allah.

## ATA LAY-LAY ÇALIR

Ata lay - lay çalır öz körpəsinə,
Ata lay - lay çalır, ürəyində qəm.
Ata həyat verir körpə səsinə,
Dəyanət saçında cücərir dən - dən.

Ata lay - lay çalır ana əvəzi,
Bu bir möcüzə, bu da bir oyun.
Kövrəldir könlünü körpə nəfəsi,
Kor olmuş qismətin gözünü oyun.

Ata lay - lay çalır vaxtsız - vədəsiz,
Bu da görünməmiş bir nağıl oldu.
Ulduzlar seyr edir səssiz, səmirsiz,
Laylalar gecənin göz dağı oldu.

## KÖRPƏN SƏNİ GÖZLƏYİR

Yaz da bitdi, yay gəlir,
Həyət baca kimsəsiz.
Yollar dil deyib ağlar,
Səninçün səssiz - səssiz.

Yarpaqlar puçur - puçur,
Çiçəklər əlvan - əlvan,
Namərdliyin yamanmış,
Yetimləşib yurd - yuvan.

Yoxluğun odələyir,
Oda dönüb qəlbimiz.
Körpən səni gözləyir,
Ölümündən xəbərsiz.

## SƏN YOXSAN

O gül körpələrin üzümə baxır,
Səni soraqlayıb, gözümə baxır.
Vallah, kür balalar sözümə baxır,
Sən yoxsan, bu dünya boşalıb nədi.

Anan ev - eşikdə hey səni gəzir,
Dilində qurbanlar, dilində nəzir.
Yerdə qərar tutmur, göyləri gəzir,
Harasa yol açıb, baş alır nədi.

Ay zalım, üz qoydun gedər - gəlməzə,
Yaman ögey gəlir daş - divar bizə,
Yoxluğun eləcə sirr oldu bizə,
Göz yaşım sellənib, boşalır nədi.

## GƏLƏCƏK ANAM

Yox, anam - ölməyib, ölməyib xala,
Anam uzaqlarda, uzaqlardadı.
Nə vaxtsa gələcək, gələcək anam,
Anam ulduzlarda, anam aydadı.

Beləcə özünü aldadır oğlun,
Beləcə özünə təskinlik tapır.
Üz tutub şəklinə o oğrun - oğrun,
Arzuya qovuşur, özün aldadır.

Ölümə inanmır, inanmır balan,
Yoxluğun dəhşətin hələ dərk etmir.

Sənin son sözündü yadında qalan,
Getdiyin yolları körpən tərk etmir.

Eləcə gözləri yolda, yoldadı,
Söyləyir gələcək, gələcək anam.
Anan ulduzlarda, anam aydadı,
Gələcək, üzümə güləcək anam.

## İNCİLƏR DÜZƏR

Könlüm nəğməli dünyam,
Nəğməm qayğılarımdı.
Mənim ən kövrək laylam,
Əlvan mahnılarımdı.

Sözümdə, söhbətimdə,
Rahatlığım, dincliyim.
Dünənimin izində,
Qayğısız nadincliyim.

Səadət yolçusuyam,
Gözlərim sevinc gəzər.
Ömrümün yelkənində,
Nəğməm incilər düzər.

## SÖZÜMDƏ

Qanad açıb, qanadlandım bu gecə,
Çoxlarından xəbər tutdum gizliçə.
Mən yatmadım gördüm çıxır gün neçə,
Sabahımın xoş müjdəsi sözümdü,
Sətir - sətir varaqlara düzüldü.

Gecələri ulduz olub, dinərəm,
Nəğmələnib göydən yerə enərəm,
Yer ətrinə, göy ətrinə dönərəm,
Sabahımın xoş müjdəsi sözümdü,
Sətir - sətir varaqlara düzüldü.

Xəyallarım neçə rəngdə, boyada,
Mən qoymaram kimsə onu oyada.
O şirinlik neçə düşür gör yada,

Sabahımın xoş müjdəsi sözümdü,
Sətir - sətir varaqlara düzüldü.

## YADA QALIR

Ayrılığın adı ağır,
Ürəyimə həsrət yağır.
Xatirələr ağır - ağır,
Keçən günü yada salır.

Doğmalarım uzaq düşür,
Bax beləcə gün ötüşür,
Kimlər kimlə hey görüşür,
Nəyi qoyur, nəyi alır.

Bir həyətdə bibim də var,
Məndən uzaq, əmim də var,
Həzin - həzin qəmim də var,
Umudumuz yada qalır.

## DUYMAYANA NƏ DEYİM

Ağrıların saçlarının ağımı,
Keçən ömür gəncliyinin dağımı.
Qəmli gözlər oda salır bağrımı,
Mən duyuram, duymayana nə deyim.

Nurmu dəyib, cığır düşmüş üzünə,
Bu dünyanın astarı nə, üzü nə,
Dərd əhlisən, əgər qalsa düzünə,
Mən duyuram, duymayana nə deyim.

Yaman görüb, yaxşılığı tutmusan,
Həlləm - qəlləm əməllərə susmusan,
Paklığınla yenidən doğulmusan,
Mən duyuram, duymayana nə deyim.

Qınayan çox, yanan yoxdur ürəkdən,
Laxlamasın gərək taleh dirəkdən,
Qoşuluram harayına urəkdən,
Mən duyuram, duymayana nə deyim.

## GƏNCLİYİM

Bu yaşımda yelləncəyə
Minib, uçmaq həvəsində.
Haydı deyib, yelləndikcə,
Həsrət yanır öz səsimdə,

Yada düşür kövrək anlar,
Bu nə sirdir baş açmıram,
Xatirələr məni yanlar,
Uçuram, mən qaçmıram.

Apar, apar bax beləcə,
Yada düşsün bal gəncliyim.
Məni görüb coşsun, daşsın,
Dəli - dolu nadincliyim.

## MƏN İNSANAM

Sevinc olub, ürəklərə çilənnəm,
Çiçək - çiçək çəmənlərə ələnnəm,
Arzulara, istəklərə bülənnəm,
Mən insanam, qüdrətimə inandım.

Qarşımızda səhra nədir, dağ nədir,
Ürək vuran nalə nədir, ah nədir,
Qorxaqlara tülkü bir bəhanədir,
Mən insanam, cürətimə inandım.

Yeni həyat, yeni dövran, yeni söz,
Dünənimin səsi gəlir könülsüz,
Şair qəlbim bu gün səslər yeni söz,
Mən insanam, söhbətimə inandım.

## YAMAN OLUR

Düzün demə, keçən deyil boğazdan,
Hörmət qazanmısan, bil, çoxdan, azdan.
Başın ağrı çəkər qəfil qapazdan,
Düz sözün acısı, eh .. .yaman olur.

Düz baxışa əyri baxır çox adam,
Müdir desə, qozu eyləyər badam.
Yeri gəlsə deyər, su deyil, odam,
Yalanın bacası sis - duman olur.

Bax sağına, bax soluna amandı,
Can deyənin ağzından vur, yalandı,
Üzə gülüb, altdan - altdan boylandı,
Ha tut çat səhəngi, hey daman olur.

## OLAYDI

Hərənin öz istəyi,
Hərə bir şey arzular.
Talelər müxtəlifdir,
Müxtəlifdi yazılar.

Hər doğulub, göz açan,
Yenidən doğulaydı.
Mən o əzəlki, uşaq,
Anam gəlin olaydı.

## ANALAR QOCALANDA

Aylar, illər ayrılıb,
Ömürdən uzaq düşür.
Öz - özündən xəbərsiz,
Saçlarına ağ düşür.
Dünya sehrli olur,
Könül möhnətlə dolur,
Analar qocalanda.

Analar dadlı - duzlu,
Analar nağıllıdır.
Analar şirin sözlü,
Analar ağıllıdır.
Göydə durnalar köçür,
Torpağa soyuq düşür,
Analar qocalanda.
Zaman, belə tələsmə,
Həyatdan şirin nə var.

Hər insan ürəyində,
Sevinc də var, qəm də var.
Elə baxır, baxıram,
Nə yaman darıxıram,
Analar qocalanda.

## TALEH ƏLLƏ QURULMUR

(Bacım Xuramana ithaf edirəm)

Taleh əllə qurulmur,
Qurulsaydı köməyinə çatardım.
Ömrün səadət dəmin,
Qucaq - qucaq taleyinə qatardım.

Gözünə izi düşüb, kədərinin necə də,
İstəklərin yol azıb, bir qaranlıq gecədə.
Çılğınlıqla yoğrulan ürəyin küt düşübdür,
O şirin, şəkər sözün necə qərib düşübdür.

Bir sızıltı duyuram, hər kəlmənin başında,
Qəm selinə düşmüsən, gözlərinin yaşında.
O qayğısız anların ümidlərlə doluydu,
Mehribanlıq, şıltaqlıq, heç bilmədik nə oldu.

Şadlanardıq, gülərdik, sevinərdik doyunca,
Ömrü sonsuz bilərdik,- eşqi ucadan - uca.
Arzun da, istəyin də nağıllaşdı, gen düşdü,
Güvəndiyin məhəbbət, xəyanətlə görüşdü.

## BELƏ DOĞULMUŞAM

Yenə təklənmişəm, yenə tənhayam,
Gərilmiş kamanam, dartılmış yayam.
Günahlı, günahsız, haqsız, haqlıyam,
Belə doğulmuşam, belə, neyləyim.

Vaxt olur, sözümü deyirəm üzə,
Buna kim dözməyə, buna kim dözə.
Uzağam yalana, yaxınam düzə,
Belə doğulmuşam, belə, neyləyim.

- Haqqın acısını daddım, nə daddım,
Bir anda qəzəbə batdım, nə batdım.
Sən demə haqqımla dostluğu atdım,
Belə doğulmuşam, belə, neyləyim.

## KÖNLÜM MƏNİM

Könül, danma qəribliyin yügünü,
Təklənmisən neçələrin içində.
Gəl ayıraq sabahından bu günü,
Ötən günlər başqa - başqa biçimdə.

Sən həyatda elə ağla, elə gül,
Kədərinə, sevincinə boyanım.
Kimə deyim deməlimi ey könül,
Hər ağrıma, hər acıma yananım.

Arzularım yaz qoxulu bir çəmən,
Çiçək çiçək cilvələnsin eləcə.
Düşündükcə bir səs gəlir içimdən,
Günəş necə, hava necə, sən necə.

## ÖZ-ÖZÜMDƏN KÜSMÜŞƏM

Qınamayın, öz - özümdən küsmüşəm,
Heç bilmirəm nə taledir, nə baxtdır.
Mən dunyanın göz yaşına duşmüşəm,
Küskün könül, nəğmələnmir nə vaxtdır.
Ömür ötdü...
        Bu nə cığır, bu nə iz,
Hesablama fəsilləri, illəri.
Yatmışammış, yerdən, göydən xəbərsiz,
Kor olmuşam, görməmişəm nələri.

Loğmanmısan, hər ağrının, yaranın,
Davasını, dərmanını tap gərək.
Yarananlar, siz yenidən yaranın,
Xəstə üçün dava, dərman gəzməyək.

## MƏN BUYAM

Geçələrin nəğməsiyəm, nəğməsi,
Hər sözümü deyəsiyəm, deyəsi,
Fərəhimi böləsiyəm, böləsi,
Mən günəşəm mən ulduzam, mən ayam,
Öz dünyamda çal - çağırlı harayam.

Qartal olsam, zirvələrə çataram,
Balıq olsam, dəryalara bataram,
Arzu olsam ürəklərə yataram,
Mən torpağam mən havayam, mən suyam,
Varlığıma inanıram, mən buyam.

## KƏDƏR VARMI ÇATASI
(Bacım Xuramana)

Səni gördüm, könlüm evi talandı,
Xatirələr xəyalımda qalandı,
Möhnət seli gözlərimdə bulandı,
Kədər varmı, kədərinə çatası.

Keçən günlər yuxu kimi yox oldu,
İstəyimiz, sevincimiz ah oldu,
Səadətin uzaq düşdü, yoruldu,
Kədər varmı, kədərinə çatası.

Vəfasızmış bəxtəvərlik dünyası,
Ölümüymüş əzəl, axır mayası,
Hanı o kəs, sonsuzluğu sayası,
Kədər varmı, kədərinə çatası.

Balaların dayağındı, ay bacım,
Şölə çəkən çırağındı, ay bacım,
Gələcəkdən sorağındı ay bacım,
Kədər varmı, kədərinə çatası.

## NƏDƏNSƏ

Bu günümə dünənimi qataram,
Xatirələr qucağında bataram,

Ötən günə şəkər - şərbət qataram,
Unudulmaz olub - keçən nədənsə.

Bu hayımı, harayımı bilən yox,
Suallara çavab verən, gələn yox,
Əzəlki, tək, danışan yox, gülən yox,
Geri dönməz, ötub keçən nədənsə.

Gözlərimin işıltısı azalıb,
Yanağımın qızartısı sozalıb,
Saçlarımın qarasını toz alıb,
Baxıb dınməz, ötüb keçən nədənsə.

## ANALAŞDI BU TORPAQ

Ana dedim, anam hey...
Əks sədaya döndü ana kəlməsi.
Ana dedim, anam hey...
haya gəldi, Dədə Qorqud nərəsi.
Ana dedim,
analarım boylandı.
Oğul deyə,
Nigar ana,
Eyvazının nər boynuna dolandı.
Ana dedim,
At belində Həcər çıxdı qarşıma,
Bu yerişdən, bu duruşdan,
Qüvvə gəldi,
torpağıma, daşıma.
Ana dedim,
Ağbirçəklər ocaq çatdı həyətdə.
Dədə yurdu cana gəldi,
gülümsündü həyət də.
Ana dedim,
Analarım için - için ağladı,
Gəlməz oldu oğulları,
Analarım ağu deyib,
bu yolları dağladı.
Dar ayaqda,
Dözüm oldu, hünər oldu analar.
Bərkdən keçdi, boşdan keçdi,

Bu yollarda,
dözümüylə,
Heykəlləşdi analar.
Ana dedim,
baharlaşdı yer üzü.
Qoynun açdı, doğmalaşdı bu torpaq.
Ana dedim,
dağlar verdi əlini,
Gözümüzdə analaşdı bu torpaq.

## ÖMÜR ELƏ GÖDƏKDİRKİ ...

Gözünü aç, dünyaya bax,
Düzləri gəz, dağlara qalx,
Al laləmi sinəsi dağ.
Ömür elə gödəkdirki ...

Əl uzatma namərd ələ,
Çalış düşmə dildən - dilə,
Yaşa baxma, elə - belə,
Ömür elə gödəkdirki ...

Nakəsi döndər yolundan,
Yıxılanın tut qolundan,
Hal - əhval tut, sağ - solundan,
Ömür elə gödəkdirki ...

Gözəllərin könlünü al,
Qocaları gəl razı sal,
Anaların qadasın al,
Ömür elə gödəkdirki ...

Bəyazıyır saçım yaman,
Kövrəkliyim vermir aman.
Dinir həyat, dinir zaman,
Ömür elə gödəkdirki ...

## BİLMİRƏM

Qocalıram, qocalmıram, bilmirəm,
Həl ürək təzə - tərdir, cavandı.

Ucalıram, ucalıram, bilmirəm,
Fikrim gəzir zirvələri haçandı.

Mən bir quşam, qərarım yox yuvada,
Qanadlarım bərkiyibdi havada,
Bərki - boşu necə salım mən yada,
Necə deyim nə çətindi, asandı?

Odlanıram, odlanmıram, nə deyim?
Adlanıram, adlanmıram, nə deyim?
Dolanıram, dolanmıram nə deyim?
Söz qatarım, öz yoluna inandı.

## QOCALAR

Qocaların gözlərinə baxa bilmirəm,
Orda ömrün son mənzili, son pilləsi var.
Ötən günun şuxluğunu tuta bilmirəm,
Kövrək üzlü kəlmələrdə, yaş giləsi var.

Dumanlanmış  nəzərlərlə dənizə baxar,
Dilsiz dəniz çavab verməz, bu çağrışlara.
Sanki o da uzaqlara axar, hey axar,
Könül açıb, ümid verməz bu baxışlara.

Görürsənki, haydan-küydən uzaq düşərlər,
Qocaların öz dünyası dağ-dağ ucalar.
Gizli-gizli keçən günlə hey görüşərlər,
Karvan-karvan xatirəylə dolar qocalar.

## TALEYİMƏ YAZILA

Ürəyimdə neçə niskil, neçə söz,
Oğul gərək, ata yurdu qızına.
Bayır - baca mənə baxır könülsüz,
Soyuqluqdan qəlbim necə qızına.

Səs - səmir yox, ocaq sönüb, küllənib,
Tikan - qanqal küyə düşüb, küllənib,
Həsrət məni, elə əyib, yellənib,
Dərdim dərddi, ya çox ola, az ola.

Ata gözlü ev - eşiyim bəs hanı?
Oğul deyən, gəlin deyən kəs hanı?
Bizi belə ayrı salan nəs, hanı?
Taleyimə göz yaşı tək yazıla.

## İZİ GÖRÜNMƏZ

Gözümün önündən taylarım keçir,
Acılı, şirinli aylarım keçir,
Qayğısız baharım, yaylarım keçir,
Gedən elə gedir, izi görünməz.

Verdiyim ömürdü, aldığım yaşdı,
Gəncliyim yuxumu?
Yox oldu, qaçdı.
Ürəyim kövrəldi, gözüm qamaşdı,
Kömürü görünər, közü görünməz.

Geriyə boylandım, gedənlər hanı?
O həvəs, o maraq, o hünər hanı?
Gəzdiyim gülşənlər, çəmənlər hanı?
Laləli, nərgizli, düzü görünməz.

## DƏYDİ QƏLBİMƏ

Bir nakəs kəlməsi dəydi qəlbimə,
Bir namərd sözündən sınası oldum.
Bir həzin qəriblik çökdü qəlbimə,
İçindən qovrulub, yanası oldum.

Açıb qollarımı qucmaq istədim,
Təmiz duyğuları, təmiz hissləri.
Quş olub, göylərdə uçmaq istədim,
Unudam bir anlıq elə kəsləri.

Ömrün acısından daralıb könül,
Sinə tellərində qəm havası var.
Yol azıb, zülmətdən qaralıb könül,
Amansız zamanla öz davası var.

Demirəm çətinlə qabaqlaşmayım,
Demirəm yolumda yoxuş olmasın.
Yağışa, yağmura, qara dözərəm.
Xərabə güncündə bayquş olmasın.

## İTƏN GƏNCLİK

Saçları bürünüb qar örtüyünə,
Üzündə payızın xəzan nəfəsi.
Gülüşü elə bil, düşüb düyünə,
Hanı o gəncliyin yaz təranəsi.

Çinar kölgəsində əyləşib təkcə,
Ötən günlərini yadına salır.
Düşüncə karvanı duman altından,
Kimsəsiz qarının könlünü alır.

Çinarın o əsən yarpaqları tək,
Ayağı titrəyir, əli titrəyir.
Yağır qəm yağışı, yağır üstünə,
Çiçəyi neyləyir, gülü neyləyir.

Bulanmış gözünün dərinliyində,
Arzular, əməllər paralanıbdır.
Bir insan qəlbində tutuma bax ki,
Gəlib dağ üstündə, dağ yaranıbdır.

Necə də dalğındır, qocaman çinar,
Qəlbdən keçənləri o duya - duya.
Qopan yarpaqlarla bu zaman çinar,
Göz yaşı axıdır, tənha qarıya.

## YOL ÜSTƏYƏM

Yol üstəyəm,
Bir az həyacanlı,
bir az sevincək.
Yolum nağılların
uzun yolu tək.
Fikirlərim qarma - qarışıq.
Bilmirəm neyləyim.
Elə hey .. .

dar dolaşıq
yol gedirəm.
Bacarmıram özümlə,
Neyləyim mən,
neyləyim?
Görən günəş, həmən günəşmi?
Ay da həmən aymı?
Ulduz dolu gecələr
duyacaqmı sinəmdəki,
harayımı, hayımı .. .
Yol üstəyəm,
yol getməmiş
qəribsəyir ürəyim.
Çəmənimdən çiçək dərim,
daşlardan daş qoparım.
Həsrət adlı ünvanıma
Vətən ətri, gərəyimdi,
gərəyim.
Görən orda nəğmələrim
dinəcəkmi?

Geçələri ilham pərim,
qanad - qanad,
süzəcəkmi?
Yol üstəyəm,
bir az yorğun,
narahat.
Yollar məni yoran deyil,
gümanım yox o torpağa.
Yol üstəyəm,
Yol getməmiş,
narahatam,
narahat.

## ELBA ÇAYI

Elba çayı, səni görüb, Arazımı hayladım,
Sənmi gözəl, omu gözəl, məndən soruşma bunu.
Araz boyu yazılıbdı ən yanğılı bayatım,
Qarşısında diz çökdürüb, neçə - neçə ordunu.

Elba çayı, sənmi qədim, yoxsa mənim Arazım,
Arazımdı illər boyu bu dünyadan narazı.
Sən də dərdli, o da dərdli, eyni donda, biçimdə,
Vaxt olur ki, çırpınmısan qızıl qanlar içində.

Elba çayı, gözəllərin qəmzəsi,
Heyran edir sahilinlə gəlib keçən hər kəsi.
Tel - tel olur ürəyimiz, ləpələrin dinəndə,
Çiçək kimi açılırıq, gözəlliyin önündə.

## SORAĞINDAYAM

Bilmirəm nədəndi, bu çən, bu duman,
Bilmirəm nədəndi, bu ah, bu aman,
Ürəyim darıxır, darıxır yaman,
Elə bil qəm, niskil tapdağındayam.

Ağsaqqal, aqbirçək sözünə həsrət,
Duru çeşmələrin gözünə həsrət,
Qədim bir ocağın közünə həsrət,
Bir sönmüş çırağın fərağındayam.

Ağrılar canımı məskən bilirlər,
Sevinci gizləyib, qəmi bölürlər,
Gələnlər ömrümə yağı gəlirlər,
Ötən günlərimin sorağındayam.

## YENƏ PAYIZ HAVASINA DUŞÜB KÖNÜL

Yenə payız havasına düşüb könul,
Çən - çiskinin davasına düşüb könül,
Qəm telinin avazına düşüb könül,
Ötən günüm, bu günümdən nigarandı.

İllər gedir, ömür vəfa qılan deyil,
Nə mən, nə o, bu dünyada qalan deyil,
Gedən gedir, dünya yenə talan deyil,
Oyun udan zamanımla bacarandı.

Rahatlığım qeylü - qaldan yaman çaşıb,
Yer üzünə sürünənlər nə darışıb,
Daşı daşa calayan bir, min danışıb,
Bu günümdə dərdi çəkən qocalandı.

## NƏ YAXŞI, VARSINIZ DOSTLAR

(Yaxın rəfiqələrimə ithaf edirəm)

Dost sözündən qanadlandım, açıldım,
Hərarətdən günəş olub saçıldım,
Qönçə idim, nəfəslərdən açıldım,
Nə yaxşı, nə yaxşı varsınız dostlar.

Sizinlə dağları aşan olmuşam,
Sel olub çağlayan, coşan olmuşam,
Beləcə fərəhlə yaşa dolmuşam,
Nə yaxşı, nə yaxşı varsınız dostlar.

Qollarıma qüvvə verər dost adı,
Sədaqət də, ləyaqət də dostdadı,
Yerində deyilib, sözü ustadın,
Nə yaxşı, nə yaxşı varsınız dostlar.

## BU DÜNYA, ULU DÜNYA

Bu dünya, ulu dünya,
Dərdi udumlu dünya,
Neçə qıydın o qıza,
Vəfan budumu, dünya?

Qönçə idi, pöhrələnib açmadı,
Günəş olub, saçaq - saçaq saçmadı,
Ayaq açdı, imkan tapıb qaçmadı,
Ürəyinə yaxdın odumu, dünya?

Açma sabah, səndən üzü qaralı,
Qərib könül yaralıdı, yaralı,
Göyün üzü bulud alıb, qaralıb,
Toy büsatmı, acı qordumu dünya?

Vuran qəlbim susan deyil neyləsən,
Haraylama tütəyi sən, neyi sən,
Həzinliyin, kövrəkliyin eynisən,
Soruşsana, məni yordumu dünya?

## ELƏ BİL

Arzularım elə dolaşıq düşüb,
Öz - özümdən xəbərsizəm elə bil.
Fikirlərim qarma - qarışıq düşüb,
Fırtınalı bir dənizəm elə bil.

Boz yarpaqlar bir - bir qopur budaqdan,
Uğultular çəkilməyir qulaqdan,
Göy üzünü bulud tutub nə vaxtdan,
Çən - çiskindən itkin izəm, elə bil.

Yanımda bir, qədir bilən həyam yox,
Can deyənə, indi canın qıyan yox,
Harayımı anlayan yox, duyan yox,
Bir ürəkdə qalan sözəm elə bil.

## KÖVRƏLMİŞƏM

Kövrəlmişəm, bir budağam sınası,
Ürək varmı, ürəyimi qanası
Nəğmələrim öz dünyamın aynası,
Qınamasın ellər məni, amandı.

Arzularım, istəklərim dup - duru,
Mənə lazım, adi insan qüruru,
Qoyma məni bu yoxuşda yorulu,
Göy çəməndə məni hayla, dayandır.

Öz- özümə bir sözüm var, qısası,
Könlüm sızlar, yarası var, yarası,
Gələn sabah bu günümə yarısın,
Nəğmələrim, sənsə mənə həyan dur.

## ÖMRƏ YAŞ İSTƏRƏM

Ömrə yaş istərəm, ömrə yeni yaş,
Ötən günlərimiz qayıdaydı kaş,
Yenədə yığışıb dost, qohum, qardaş,
O yandan, bu yandan söhbət açaydıq.

Necə də kövrəlib dolan olmuşam,
Gül idim, qəmimlə solan olmuşam,
Bir həsrət nəğməli uzun yolmuşam,
Hara qanadlanıb, hara ucaydıq.

O hayım - harayım boynu qısılı,
Bir dünya sevincim göydən asılı,
Danışım hansını, deyim hansını,
Kədərdən ayrılıb, dərddən qaçaydıq.

## GÖR NƏ UZAQ DÜŞÜBDÜ

Varlığımda bir təlatüm, bir qasırğa qopub ki,
Varlığıma elə həsrət, elə möhnət hopub ki,
Varlığımda köhlənini xəzan elə çapıb ki,
Orda neçə budaq sınıb, neçə yarpaq düşübdü.

İnnən belə, ha danışım, ha dillənim, ha dinim,
Nə faydası, bir yana ki, yetən deyil bu ünüm,
Qayıt geri, cavanlığım, bir an sənlə öyünüm,
Saç o saçdı, ürəyimə qar yağıb, ağ düşübdü.

Harda qaldı əzizlərim, bir də küsək, barışaq,
Tay - tuşlardan söhbət açaq, çöldə - düzdə yarışaq,
Fərəh dolu qəlbimizlə, ulduz - ulduz sayrışaq,
Gör nə bizə yaxın gəlib, gör nə uzaq düşübdü.

## ÖLMƏZLİYƏ UCALDIN

(Tiflisdə daşqın fəlakətində
qəhrəmancasına həlak olan Rahib qardaşıma)

İgid bala, səsin gəldi uzaqdan,
İllər boyu, bu səs getməz qulaqdan,
Çətin vaxta neçə çıxdı sınaqdan,
El yolunda düz ilqarın, düz andın.

Birdən - birə sellər, sular qudurdu,
Hər dalğada hücum çəkən bir ordu,
Qorxu səni nə üşütdu, nə yordu,
Qəlbindəki, hərarətdən güc aldın.

Neçəsinə ömür verdi, bir ömür,
Çarpan qəlbin sinəmizdə döyünür,
Ana vətən hünərinlə öyünür,
Dastan olub, bu şöhrətin, bu adın.

Səsi batdı o dalğanın, o selin,
O tufanın, o yağışın, o yelin,
Əbədiyyət dünyasında heykəlin,
Ölümünlə ölməzliyə ucaldın.

## NƏLƏR GEDİB ÖMÜRDƏN

Ürəyimdə bir ağırlıq duyuram,
Varlığımda müşkül dərdim dil açıb.
Kövrəlmişəm dindirməyin, amandı,
Sevinc dolu vədə etüb, vaxt qaçıb.

Öz aləmim uçum - uçum uçulub,
Nəğmələrim yaddaşımdan çox kənar.
Heç bilmirəm, nə düşünüm, nə yazım,
Deyiləcək söhbətmi var, sözmü var.

Öz - özümə etiqadım azalıb,
Öz - özümdən gileyliyəm nəsə mən.
Xəbərim də olmayıbdı elə bil,
Nələr gəlib, nələr gedib ömürdən.

## OCAQ BAŞI

Ocaq başı, gəlib - keçən günlərim,
Ocaq başı, haraylarım, ünlərim,
Ocaq başı, şirin - şəkər günlərim,
Hayıma çat, qəribsəyib dolmuşam.

Xoş anlarım ilim - ilim itibdi,
Kövrəkliyim son həddinə yetibdi,

Şux gəncliyim gəlib məni ötübdü,
Bir ağacda, sınıx - salxax qolmuşam.

Ahıllaşıb, ömrüm ötüb yaşımı,
Göyün üzü, yaman çatıb qaşını,
Göz açmamış, yazda gördüm qışımı,
Bir çiçəkdim, saralmışam, solmuşam.

Ocaq başı sənə sözüm var mənim,
Nəyə lazım, dövlət mənim, var mənim.
Mən demərəm, dağ başında qar mənim,
Bu ömrümü, daş - kəsəkdə yormuşam.

## YA QİSMƏT

Dərdi çəkənə,
Dəryaz biçənə,
Arxı keçənə,
Keçdi ya qismət.

Ocaq sönməsin,
Taleh dönməsin,
Könül nəğməsi,
Susdu, ya qismət.

Odu közünnən,
Dağı düzünnən,
Ağlar gözü nəm,
Ömrə, ya qismət.

## ÖMÜRDƏN PAY İSTƏMƏ

Yenə halım hal deyil,
Könül dinir, lal deyil,
İllər mənə qal deyir,
Ömürdən pay istəmə.

O çal - çağır azalıb,
Arzularım sozalıb,
Nəğməm dinir, söz alıb,
Qış gəlir, yay istəmə.

Könül qəmin yiyəsi,
Könül, qəmi neynəsin?
Bir ömür ki, yüyənsiz,
İllərdən say istəmə.

## NƏĞMƏM,
## MƏNƏ HƏYAN DUR

Nəğməm, mənə həyan dur,
Ömür qaçma, dayan, dur,
Könül yenə kövrəlib,
Al, könlümü ovundur.

Vətən gözü nəmlidi,
Həsrət iti əllidi,
Düşmən min əməllidi,
Möhkəm düşün, möhkəm dur.

Yellər saçın yolası,
Qəm dünyası dolası,
Bağım, bağçam solası,
Getdi işıq, getdi nur.

Adım - sanım torpağım,
Dağım - daşım yarağım,
Qaralmada ocağım,
Külək əsir, yel vurur.

## MƏN NƏ DEYİM

Mən nə deyim bu dövrana, bu günə,
Nadan görüb, bu yollarda çaşmışam.
Dərd əhliyəm, dünyam mənə dar gəlir,
Qəm deyilən bir aləmdə başmışam.

Qayğısızdım, ağ günlüydüm o vaxtlar,
Qolu zorlu olammadım, güc gələ.
Bəxtəvərdim, hay salardım atam var,
Gələn deyil, səslə səndə yüz kərə.

Oğul, uşaq anasıyam eləcə,
Kövrəlmişəm, gözümdə yaz yağışı.
Günümə bax, bilməcədi, bilməcə,
Qardaş demə, gətirməyir naxışın.

Bu gözümdən, o gözümə haray yox,
Atam oğlu, a dərdini çəkdiyim.
Qəlbim kimi top dağıtmaz saray yox,
Gül yerinə niskilimdi əkdiyim.

## SƏS VERİN, SİZDƏ

Nə yaman ürəyim darıxır bu gün,
Nə yaman itmişəm çəndə, dumanda.
Ayağım altından yer axır bu gün,
Ayların, illərin ağrısı canda.

Özümdən yuxarı havam daralıb,
Bu dünya neçə da cılızlaşıbdı.
Üfüqlər gözümdə sönüb, qaralıb,
İçimdə həsrətim, aşıb - daşıbdı.

Gözləməm bir Leyli sevgisi deyil,
Nəciblik, gözəllik sorağındayam.
Şəfəqlə oyanır qəlbim elə bil,
Nələrin, nələrin marağındayam.

## QAPINI AÇIN

Özümlə necə də bacarmıram mən,
Kədərim qol - qola mənimlə gəzir.
Kiməsə yan baxıb, bac almıram mən,
Bu ömür necə də keçir, tələsir.

Dərdlərim yamanca açıb özünü,
Dərdlərim sevinci üstələyibdi.
Kor olub, korşalıb gözü dözümün,
Tənhalıq qəddimi yaman əyibdi.

Qalmışam necə də yol ayrıcında,
Qələmim əlimdə, sözüm yarımçıq.

Təskinlik verənim qapı dalında,
Gəlin əzizlərim, aranı açın.
Zalımların zor işini,
Ürəyində çəkən oldun.

## BELƏCƏ DOĞULMUŞAM MƏN

Neyləyim, beləcə doğulmuşam mən,
Neyləyim, hər şeyi yozan olmuşam,
Bu dünya gözümdə bir tərəzidi,
Əyri çəkiləri pozan olmuşam.

Düzə - düz, əyriyə qənim kəsilləm,
Yalanın üzünə gülən deyiləm.
Yalana haqq versəm, dildən kəsilləm,
Qoltuğa sığınıb, ölən deyiləm.

Mən Həcər sözlüyəm, bunsuz olmaram,
Boğazdan yuxarı söz nəyə gərək.
Mən şirin sözləri satın almaram,
Əhdindən, andından keçərmi ürək.

Adicə bir kəlməm doğmamdı, doğmam,
Dəyirman deyiləm üyüdəm, tökəm.
Gəl demə duzsuzdu, yavandı loxman,
Yetimi doyurmur yediyin kökə.

Neyləyim, beləcə doğulmuşam mən,
Neyləyim, hər şeyi yozan olmuşam.
Bu dünya gözümdə bir tərəzidi,
Mən də çəkiləri pozan olmuşam.

## QƏM BADƏSİN İÇƏN OLDUN
(Dayım Əsgərə ithaf edirəm)

Ömrün şahlıq taxtındasan,
De, kimlərin baxtındasan,
Artıq yetkin vaxtındasan,
Əlli yaşın gələn oldu.

Bu dünyanın gərdişini,
Yoxuşunu, enişini,

Zalımların zor işini
Ürəyində çəkən oldun.

Mən deyimmi, yolun hamar,
Dil desə də, gözüm danar,
Niskilindi, damar - damar,
Səssiz, küysüz biçən oldun.

Gülüşündə qəm dinlədim,
Lal haraydan mən inlədim,
Hələ nələr, biləmmədim,
Qəm badəsin, içən oldun.

Ömür belə, ömür yaman,
Qanmaz qanmır, qanan yanan,
Kimdi satan, kimdi alan
Dost, düşməni seçən oldun.

## BAŞ DƏYDİ

Eniş - yoxuşlu yolu,
Gah yarımçıq, gah dolu,
Keçən oldum bu yolu,
Ayağıma daş dəydi.

Yatmış bəxtim oyan, dur,
Ötən ömrə həyan dur,
Qəm - qüssəni dayandır,
Gözlərimə yaş dəydi.

Mənim haqqım, haqq adım,
İlham pərim, qanadım,
Elə gündə yarandım,
Baş qaldırdım, baş dəydi.

## BELƏ YAZIB

İnsan ömrü yarpaq - yarpaq tökülür,
Yaralanıb çəpər - çəpər sökülür,
Bir də gördün çiçək - çiçək bükülür,
Bu dünyadan vəfa ummaq nahaqdı.

Sonsuzluğun nöqtəsinə çatan yox,
Ayı günə, günü aya qatan yox,
Əldən uçdu, əl uzadıb tutan yox,
Bilən varmı nə nahaqdı, nə haqdı.

Ürəyində deyilməmiş sözüm var,
Dağlar boyda dəyanət var, dözüm var,
Belə yazıb, bu yazanı yazanlar,
Kədər yaxın, sevinc məndən uzaqdı.

## DAŞLAŞMIŞAM

Yayın istisi,
    qəmin tüstüsü
    çəkir məni imtahana.
Varlığımda yoxluğun.
    Yoxluğunda əzabımdı
    düyün - düyün.
Hey .. .baxıram,
    bu boşluğa.
Acı - acı,
    yana - yana.
Üzü dönüb,
    bu günümün.
Düşmən olub,
    tolazlayır daşını.
Daşlaşmışam,
    bu daşların içində.
Unutmuşam
    gəncliyimin yaşını.
Gözü toxam.
    Bu dünyadan
        nə təmənnam,
            nə payım.
Öz - özümlə tək, yanaşı
        məni boğur harayım.
Yox olmuşam,
        görünməzəm,
    səssizliyin içində.
Həsrətimin yaş damlası,
    Gözlərimin içində.

## NEYLƏYİM

Nəs illərin axarına düşmüşəm,
Yollar geniş, mən darına düşmüşəm,
Bu dağların, buz qarına düşmüşəm,
Qəm sinəmdə dilə gəlib neyləyim.

Ağ günlərin üzü dönüb üzümdən,
Can üzülər, sızlar könül, sözümdən,
Belə ömür, elə düşüb gözümnən,
Uzaq düşdüm dünənimdən neyləyim.

Düz qəddimi əyən oldu bu dərdim,
Sevincimə yüyən oldu bu dərdim,
Toxum səpdim, ağac əkdim, nə dərdim?
Mənimki, də belə gəlib, neyləyim.

## HƏYAN DURSUN

Oda düşmə, oda, könül,
Dərdi uda, uda könül,
Aydınlığın suda könül,
Qoy dərdini sular yusun.

Taleyimin qara baxtı,
Hara getdi, hara baxtım?
Gözüm, könlüm hara baxdı,
Ürək susub, necə vursun.

Küsən oldum, bu dünyadan,
Bu dünyaya yaman yadam,
Dağılıbdı könül adam,
Kimə deyim, həyan dursun.

## MƏNİ QINAMAYIN

Məni qınamayın,
        Qınamayın məni.
Əzablarımı alaran deyiləm özümlə.
        Dərdimi,
                sərimi

bükübük, bükmələyib
atacam!
Qubarı özünnən böyük
xəstələr evinin toranlığına.
Nəsdən çıxacam!
Açıb gözlərimi,
dünya üzünə.
Bir az yer payı,
bir az göy payı.
Torpağın ətrindən,
günün istisindən,
qanadlanacam,
Öz elimə, öz obama
yol açacam.
Bircə anda
mən uçacam,
mən uçacam.

## YANAR ODAM MƏN

Aman dünya, yaman dünya dönmüsən,
Gözlərimdə qaralmısan, sönmüsən,
Ağ günlərə əl qaldırıb, dinmisən,
Hər ağrını, hər acını dadan mən.

Yazı yazan belə yazıb yazını,
Nəyim varki, əldən alıb azımı,
Qəm içində kor yolçu tək azımmı,
Qərib yerdə tanınmazam, yadam mən.

Dincliyim tilsimdə bağlı qalıbdı,
Yuxumu gözümdən alan alıbdı,
Dərd məni gecələr bəndə salıbdı,
Canım qor içində, yanar odam mən.

## DÜNƏNDƏ QALDI

Taleyin üzü qaralığından
qaça bilmirəm.
Məni tilsimləyib,
çəkib cənginə.
Qıfılı möhkəm

qıfılbəndləri,
aça bilmirəm.
Qara üzlü qaragünüm,
məndən incimə.
Keçmiş ola,
o anlarım.
Dünəndə qaldı.
Bir işə bax, o
günlərin,
qədrin bilməzdim.
Bu ömrümün payındaymış
divin əlləri.
Sevincimi əldən alıb,
sürüdü, əzdi.

## BİR AĞI, YÜZ QARASI

Öz - özümə yadlaşmışam eləcə,
Qəlpə - qəlpə daşlaşmışam beləcə,
Dağ dərdimi görən aşım mən necə
Dünənimin bir anına tamarzı.

Şər qarışıb, bulud göyün üzündə,
Könül dərdli, nəğməm donub sözümdə,
Mən özümü necə tapım özümdə,
Taleyimdən, qismətimdən narazı.

Xoş günlərə əlim qalıb uzalı,
Uzandıqça yollar məndən bac alı,
Necə sizə vəsf eyləyim bu halı,
Bu dünyanın bir ağı, yüz qarası.

## BAYRAM AXŞAMI

Bu gün bizim əziz gün,
Bu gün bayram axşamı.
Kim yandırır Bakıda,
Mən yandıran, o şamı?

Ürəyim intizarda,
Ürəyim səksəkədə.
Balalarım yatmayıb,

Bu gecəni bəlkə də.

Nə deyim, nə danışım,
Kim yandırsın o şamı.
Bu da əziz günumüz,
Bu da bayram axşamı.

## BU NƏ GƏLİŞ, GEDİŞDİ

Arzumun qanadı qalxası deyil,
Baxtımın çeşməsi axası deyil,
Ömrümün günəşi doğası deyil,
Həsrət mənə göz ağardıb, nə işdi.

Nə müddətdi od içində burdayam,
Təklənmişəm nə anam var, nə atam,
Yox çarası, qərib yerdə mən yadam,
Dözəsiyəm, qəlbim yaman genişdi.

Qərib - qərib gəzən oldum bu yurdu,
Səbrim məndən əl götürdü, yoruldu,
Bəxtim elə üz döndərdi, buruldu,
Dedim ömür, bu nə gəliş - gedişdi.

## MƏN GƏLƏNDƏ

(Qızım Zöhrəyə ithaf edirəm)

Mən gələndə, boran idi, qar idi,
Yaz da gəldi, hələ qərib yerdəyəm.
Kaş quş olub, qanad çalıb uçaydım,
Görəydim ki, evindəyəm, mən bu dəm.

Balalarım ata, ana canlıdı,
Heç bilmirəm hansı acdı, hansı tox.
Anım ana, günüm günə calandı,
Oda duşdüm, tüstüsünü görən yox.

Köz basılıb, od dolanır qanımda,
Uzaq yerdə, həsrət mənim qənimim,
Ocağımı gur yandırın amandı,
Körpələrim üşüməsin, qoy mənim.

## ÜZƏ BİLMİRƏM

Cəhənnəm oduna düşmüşəm allah,
Cəhənnəm odundan keçir xəstələr.
Nə böyük iztirab, nə böyük günah,
Üzülür xəstələr, keçir xəstələr.

Sağım da, solum da ahdı, amandı,
Ürək tab gətirmir, dözə bilmirəm.
Bu qəm dəryasında mən elə batdım,
Tutulub qollarım, üz bilmirəm.

## YAZMA ÖMRÜMƏ

Deyirsən, bu günü yazma ömrümə,
Bu gündən qan sızır, qan damır allah.
Ünvanı çaşmışam yol ayrıcında,
Ah - naləm özümü yandırır allah.

Bu şaxta necə də, təkləyib məni,
Səsimə səs verib, haraylayan yox.
Amanım kəsilib, sözüm yarımçıq,
Oxunu gizlədib, yayın atan çox.

Deyirsən, bu günü yazma ömrümə,
Göz yaşım sellənib, boğur özümü.
Özümdən ayrılıb, özgələşmişəm,
Hanı ürəyimin polad dözümü.

## ÖLÜMƏ MƏHKUM OLUNANLAR

(Moskvada onkoloji xəstəxanada olarkən)

Ölümə məhkum olunanların,
        Anadan qarabaxt doğulanların
                dünyasına düşdüm.
Gözlərim önündə
        dəhşətli səhnə.
Sevinci üzündə donan,
        arzusu yarımçıq
                qalanlarla görüşdüm.
Həyatdan küskün,

ümidləri çilik - çilik.
Ümman - umman istəkləri,
pərdə - pərdə kiçilib.
Hakim cəza kəsib,
günahsız günahkarlara.
Ölüm hökmü!
Dəhşətlisi,
ən ağırı.
Bu dünyanın dərdi böyük.
Görünməyir
nə əvvəli,
nə axırı.
Cavanları küskün gördüm.
Mən yanmazdım,
yanan oldum.
Könül küsdü
ağrıların,
acıların arasında.
Üzüm döndü
bu dünyadan.
Mən sınmazdım.
Belə yerdə,
Şüşə kimi, sınan oldum!
sınan oldum!

## QORXURAM

Moskvadayam,
Bakıdan çox uzaq.
Uyuşmadığım mehmanxanada
soyuq bir otaq.
Dincliyim, rahatlığım
məni tərk edib.
Otaq dolu
narahatlığım,
yaman ərk edib
dolanır başıma.
Yuxusuzluq düşmən olub,
çəpər çəkib qarşıma.
Ürəyimdən daş asılıb.
Dərdimin qara daşı.
Bacım da var,

qardaşım da.
Yükümü çəkənim yox.
Göz yaşıyla dolub ürək.
Ağlamağa qorxuram.
Bu daş - divar,
ögey dirək
kiridəmməz könlümü.
Ağlamıram,
ağlamıram.
Tənhalıqdan qorxuram.

## MEŞƏ QƏBRİSTANLIĞI

(Tallin şəhərinin qəbristanlığında olarkən)

Meşə qəbristanlığı,
Əbədiyyat dünyası.
Bu dünyanın özündə,
nə təmtəraq,
nə şöhrət.
Sədəlikdən yoğrulub,

bu torpağın mayası.
Burda nə çilçıraq var,
nə həyat var,
nə şəhvət.
Adi lövhələrdə sənətkar adı.
Varlığı böyüklük,
ölümü ölməz.
Hər küknar ağacı,
ucalıq rəmzi.
Bu dünya sonsuzdu.
Sonu bilinməz.
Meşə qəbristanlığı,
harayı sükut.
Ölüm dünyasının,
yükü ağırdı.
Ölü qəhqəhədən,
qulağım batır.
Yoxluğun çəkisi,
daha ağırdı.

## SORAN OLDU YAŞIMI

Bu gecənin oyanmayan yuxusu,
Bu yuxunun bir dunyalıq qorxusu,
Gecələrmiş bu günumun oğrusu,
Yuxularım qatan oldu başımı.

Ay gümüşü, ulduz yandı gecələr,
Al günəşi, ay da dandı gecələr,
Ötən günü yada saldım gecələr,
Əl uzatdım, çatan oldu qaşını.

Gecə düşdü, günüm bitdi, hörüldü,
Ötən bulud zirvələrdə göründü,
Bu da belə, bu da bir cür ömürdü,
Açan sabah, soran oldu yaşımı.

## AXAR SU, LİLLİ OLMAZ

Köməyim gərək olsa,
Tutmağa dirək olsa,
Ürəklər ürək olsa,
Dost sirri bəlli olmaz.

Zamana mən nə deyim,
Yol gedir yeyin - yeyin,
Mən yetim deməyin,
Yetim qız dilli olmaz.

Dağ aşıb, selə düşdüm,
Əlbəyaxa görüşdüm,
Ürəyimnən söz düşdü,
Axar su lilli olmaz.

## İLANİ, KÖMƏK OL, BU GECƏ

Dörd yanım ölümün havası,
İnsanın həyatla davası,
Əlacım bir ümid duası,
İlahi, kömək ol, bu gecə.

Sönməkdə nənəmin ocağı,
Fələklə vuruşur öz canı,
Gör nələr çəkirəm ay canım,
İlahi, kömək ol, bu gecə.

Bu zülmət qaranlıq xofumdu,
Ərş ilə fələkdə yuxumdu,
Mənimlə göz - gözə qorxumdu,
İlahi, kömək ol, bu gecə.

## NƏLƏRƏ SƏDD ÇƏKDİM, NƏLƏRDƏN QAÇDIM

Nələrə sədd çəkdim, nələrdən qaçdım,
Üz tutub göylərə, quş olub uçdum,
Bu dünya ağrılı, bu dünya puçdu,
Ağrılı dünyadan sovuşan mənəm.

Hər nəğməm könlümün səsi, harayı,
İstərəm kiməsə mən də yarıyım,
Kövrək ürəkləri tapıb, arayım,
Min - min arzulara söz qoşan mənəm.

## OĞULDU OĞLUM

(Oğlum Sənana)

Ömrümün nur kimi yağışı oldu,
Ötən günlərimin naxışı oldu,
Qurbanam o günə, nə yaxşı oldu,
Canımnan can alıb, doğuldu oğlum.

Nələrə göz qoydu, nələrə baxdı,
Ulduza əl verdi, aya da qalxdı,
Körpəcə qəlbiylə, qəlbimə baxdı,
Şirindi, şəkərdi, noğuldu oğlum.

Böyüdü, allaha üz tutdu elə,
Sanki yer üzünü o tutdu dilə,
Fağıra, əlsizə əl tutdu elə,
Mənim gözlərimdə oğuldu oğlum.

## GÖZLƏRİNƏ BAXDIM GÜLÜM

(Afina xanıma ithaf edirəm)

Gözlərinə baxdım gülüm,
Gözlərində min işvə naz.
Ürəyində eşq yanğısı,
Oda dönür, bu işvə naz.

Sehir dolu bir aləmsən,
Oğul gərək duya səni.
Gülən gözlər qan ağlayır,
Görən varmı duyan səni.

Qəribəsən, vallah gülüm,
Gah coşursan, gah susursan.
Bir vüsalı qaralayıb,
Addım - addım sən busursan.

Öz dünyan var, öz aləmin,
Mələk də sən, pəri də sən.
Qamçılasan, dəli dəmin,
Od - alovun içindəsən.

Ömür özü bir oyundu,
Hər zər atan udan deyil.
Vay o gündən doğmaların
Gendə durub, yadam deyir.

Bu meydanda özün gərək,
Tanrım deyib, haqqı səslə.
Qan ağladan dözüm gərək,
Ayırasan haqqı nəsdən.

## MÜBARƏK

Yaşa bir bax, səni alıb tərkinə,
Saçlarına sığal çəkib, ərkinən,
Pıçıldayır, yoxuşlarda tənkimə,
Gümüş-gümüş ağ saçları öpərək,
Ağbirçəklik yaşın anam, mübarək.

Bəxtəvərlik sənə yaman yaraşır,
Ocaq başı, oğul - uşaq qaynaşır.
Künc - bücağın dilə gəlib danışır,
Sevinc dolu göz yaşların da gərək.
Ağbirçəklik yaşın anam, mübarək.

Allah deyib, imdad umdun tanrıdan,
Şükr edirəm bu günümə, tanrıma.
Beləcə qal, canım - gözüm qarıma,
Gözlərimdə qardaşlarım bir dirək,
Ağbirçəklik yaşın anam, mübarək.

## ATAM DEDİ

Atam mənə çörək verdi,
O tam, hələ dilimdə.
Ürəksizdim, ürək verdi,
İstiliyi qəlbimdə.

Atam dedi, halal yaşa,
Halal durdum, oturdum.
Selə dönüb, daşa-daşa,
Daş kəsəkdən qurtuldum.

Oğul qızım dedi mənə,
Oğullaşdım gözündə.
Atam dindi dönə-dönə
Söhbətimdə, sözümdə.

## MƏNİM OĞLUM

Mənim oğlum, qəlbim nuru,
De, nurdanmı doğulmusan.
Vallah mənə elə gəlir,
Bir paklıqdan yoğrulmusan.

Mənim oğlum, göz bəbəyim,
Nə yaxşıki, sən varmışsan.
Bu ömrümün yüz bəzəyi,
Ləlsən, dürsən, sən varmısan?

Mənim oğlum, əziz balam,
Haqdan gəlir gül nəfəsin.
Səni mənə tanrım verib,
Gözün toxdu, düzdü nəfsin.

## ŞAİR QARDAŞIM AKİF SƏMƏDƏ

Şair qardaş, görüşümüz mübarək,
Vallah burda, yaman dara düşmüşük.
Dağlarımın dağ ağrısı görünməz,
Kərəm kimi yoxsa tora düşmüşük?

Bayatılı, xoş diləkli söz ola,
Dilqəmimi dilləndirən saz ola,
Göy çəməni seyr eyləyən göz ola,
Heç bilmirəm, canım hara düşmüşük.

Bu aləmə göz qoyuram astaca,
Biri gülür, biri baxır qıyqacı,
Qardaş, dünyam tapmacadı, tapmaca,
Bu minvalla, deyən yola düşmüşuk.

## ÜRƏKLƏRDƏ QALANMISAN, QALANIM

Şair qardaş, söhbətin nə, sözün nə?
Ovçusanmı?
        Sərrast baxan gözün nə?
Ürəyində qövr eyləyən közün nə?
Od oğlusan, ocağına qalanım.

Alı ruhlu, ölməz Vurğun nəfəsli,
Nizamilər, Füzulilər həvəsli,
Qılınc olub, namərd sözün sən kəsdin,
Vaqif təki gözəlliyə dalanım.

Söz dedinmi, puça getməz, qurular,
harayınla bir xaniman qurular,

Hər bəndində elə məna, qurğu var,
Zaman - zaman qalanımsan, qalanım.

Zəlimxansan, dağ ətirli yazımsan,
Bu günümdə çox demərəm, azımsan,
Söhbətinlə, söhbətlərin duzusan,
Ürəklərdə qalanımsan, qalanım.

## MƏMMƏD ARAZIM

Həsrətə bax, gözlərində yüklənib,
Ürəyində Araz dərdi köklənib,
Hay - haraydan uzaq düşüb, təklənib,
Bu zamanın havasından narazı.

Dərd udumlu dərdi olub dözülməz,
Bu dünyanı özün dolan, özün gəz,
Qayalarda elə şair sözü gəz,
Nəğmələri, zirvə - zirvə qalansın.

Hər kəlməsi yeri - göyü titrədər,
Öz dünyası, düyün - düyün dərd didər,
İşə bax ki, dağı - daşı əridər,
Arazıdı, o tayıdı davası.

Ocağımın tüstüsünə baxan kim?
Bu günümdə yandıran kim, yaxan kim,
Araz olub, Arazıma axan kim?
Od oğludu, sönməz Məmməd Arazım,
Oda dönüb, yanasıdı - yanası.

## QONAĞIYDIM O YURDUN

Nəğmələrim cilvələnir könüldə,
Ötən günlər göz önündə tellənir.
Xatirələr düzüm-düzüm düzülür,
Sənli, mənli bir aləmdə dillənir.

Yadındamı, qonağıydım o yurdun,
Sehirləndim, ətirləndim orda mən.
Qara dəniz sahilində duruldum,
Qurban dedim, bu canımı yurda mən.

«Boz təpə»- də həyat vardı o axşam,
Ay da bizə salam verdi o gecə.
Cəlal bəyim, heç bilmirsən o axşam,
Səadətlə qoşa idim, mən neçə.

O doğmalıq, o şirinlik, o saflıq,
Yaddaşımdan silinəmməz qardaşım.
Həsrətlilər qovuşacaq nə vaxtsa,
Yallı gedib, qol açacaq yurddaşım.

## OĞLUMA

Qurban olum adına,
Al məni qanadına,
Ruhuna yaxın olum,
Gözümün nuru oğlum.

Ayır haqqı nahaqdan,
Köməyin gəlsin haqdan.
Gecə - gündüz, sabah da,
Yoluna qurban olum.

Həzrət Əli diləyin,
«Quran» məğrur dirəyin,
Allahladı ürəyin,
Qəlbinə qurban olum.

Qıldın sübhün namazın,
İlahilər avazın,
Varın, yoxun olmazın,
Dininə qurban olum.

## ÜRƏYİN MƏNİM
(Oğlum Sənana)

Canım, gözlərinin ağına qurban,
Qəlbinin o kövrək halına qurban,
Sənsən varım, yoxum, varıma qurban,
Canıma can verən ürəyim mənim.

Səhərim səninlə, gecəm səninlə,
Hər anım, hər günüm keçər səninlə,
Gecə dualarım bitər səninlə,
Ömrümün çırağı, dirəyim mənim.

Sənsiz uzaq gəlir, mənə yaxın da,
Yoxluğun mənimlə əlbəyaxada,
Ərşə çəkilibdi vallah, yuxum da,
Ömrümə - günümə gərəyim mənim.

## AY ANA

Ay da dönüb il olacaq ay ana,
Yoxluğuna inanmıram hələ də.
Sənsiz ömrü qəribləşib qalanam,
Sığalına tamarzıyam belədə.

O ev - eşik, sənsiz mənə yad gəlir,
Künc - bucağın pozulubdu sahmanı.
Həsrət könül yoxluğundan od dəlir,
Ağrın alım, deyən günlər bəs hanı?

Ərköyünlük ötüb keçdi yel kimi,
Kimdi daha hər sözünü götürən.
Daş - divar da ögeyləşib ay ana,
Yoxdu məni doqqazacan ötürən.

Dəyişmişəm ünvanımın səmtini,
Gözlərimdi qan ağlayan eləcə.
Məzarlıqda səni görüb təntidim,
Fani dünya, bilməcədi, bilməcə.

Nə yamanmış sənsizliyin acısı,
Bu çağımda yetimləşib ürəyim.
Gözlərinə qurban olum ay ana,
Səniymişsən arxam, andım, dirəyim.

## KÖNÜL QIZIM

Arzum idi, ay ömrümün çırağı,
İstəyimdən, diləyimdən doğuldun.

Bir qız idi gecə - gündüz sorağım,
Qədəmlərin şirin-şəkər noğuldu.

Könül balam, ay könlümün dünyası,
Sən gələli nura dönüb evimiz.
Günəşmisən, yoxsa bir ay parçası,
Yerə - göyə sığmaz bu sevincimiz.

Üç qardaşın fərəhisən, gülüsən,
Bu ocağa həyan gəldin, gül balam.
Qardaşların sənə baxar, gülümsər,
Biz gülürük, sən də sevin, gül, balam.

## NƏVƏM DİL AÇIB

(Nəvəm Rüstəmə ithaf edirəm)

Nəvəm dil açıb yaman,
Nəvəm danışqan olub.
Sözləri baldan şirin,
Amma dalaşqan olub.

Nəvəm oldu, alovlu,
Bir an sakit durammaz.
Yeri göyə sovurar,
Yaramazdı, yaramaz.

Hər dili bilir balam,
Çox bilmişdi, çox bilmiş.
Min yol qadasın allam,
Şirinliyi nə imiş.

Nəvəm dil açıb artıq,
Nəvəm qənddi - noğuldu,
Nənəsinin ğözündə,
Nəvəm vallah oğuldu.

## MEHRİBANIM

Bu gün sənin toy günündür,
Mənim balam, əziz qızım.
Nəsihətmi verim sənə,
Mehribanım, dan ulduzum.

Soyadını tanı qızım,
Öz havanla davran, dolan. –
Bu ocaqda elə qızın,
Sıxılmasın atan, anan.

Nura boya bu ocağı,
Mehribanım, gülüm mənim.
Böyüklərin umacağı,
Xoş niyyətin, düz əməlin.

Qoru qadın ləyaqətin,
Əməlinlə gülüm, düz ol.
Əzəmətin, dəyanətin,
Qüdrəti ol, sən özü ol.

Bu gün sənin toy günündür.
Qədəmlərin şirin, şəkər.
Göydən enmiş bir mələksən,
Ürəyindən nələr keçər.

Əlvanlıqa boyan gülüm,
Qoy əllərin xınalansın.
Arzuların, istəklərin,
Qanad açıb, havalansın.

Tanrım sənə kömək olsun,
Canım, bu gün xoş günündür.
Gözəlliyin özü sənsən,
Şax taxtında yaş günündür.

## BAYATILAR

Əzizinəm daş yandı,
Torpaq yandı, daş yandı.
Dağlar, dağım ağırdı,
Gözlərimdə yaş yandı.

Əzizinəm elə gəl,
Qəriblikdən elə gəl.
Yağı, baxma elimə,
İmana gəl, dinə gəl.

Əzizinəm Göyçə mənim,
Öz elim, Göyçəm mənim.
Başqa yurdda gözüm yox,
Dəyməyin, Göyçəm mənim.

Əziziyəm bu yurda,
Bu torpağa, bu yurda.
Elim beləmi getdi,
Sahib varmı bu yurda?

Əzizinəm ay ellər,
Od tutub sinəm, ellər.
Alı yox, Ələsgər yox,
Yollar yarıdı, ellər.

Mən aşiq yurd yerinə,
Qayıdın yurd yerinə.
Ulular bağışlamaz,
Xor baxsaq yurd yerinə.

Mən aşiq öz Göyçəmə,
Dəyməsin göz, Göyçəmə.
Bundan gözəl el varmı,
Vurğunam öz Göyçəmə.

Əzizinəm qərib, hey .. .
O tayda var qərib, hey ...
Təbriz dağı azıymış,
Olduq burda qərib, hey ...

Əzizim oğul gəlsin,
Açmağa oğul gəlsin.
Əlim - qolum bağlıdı,
Açmağa oğul gəlsin.

Əzizinəm dərd əhli,
Mən gəzirəm dərd əhlin.
Bu kor olmuş gözlərim,
Görəmməyir dərd əhlin.

Əzizinəm çalın - çalpaz,
Çəkilib çalın - çarpaz.

Oğul, qız od içində,
Sinəmdi çalın - çarpaz.

Əzzinəm haray salın,
Yığılın, haray salın.
Ocaq sönür, amandı,
Qoymayın, haray salın.

Əzizinəm bu dərd mənim,
El gedir, bu dərd mənim.
Mən də elin qızıyam,
Ağlaram, bu dərd mənim.

Mən aşiq mərd oğula,
Mərd igid, mərd oğula.
Vətən dara düşübdü,
Üz tutun, mərd oğula.

Eləmi od ələndi,
Elimə od ələndi.
Üz qoydum torpağıma,
Göylərdən od ələndi.

Yol boyu qərənfildi,
Xalıdı, qərənfildi,
Amandı, toxunmayın,
Şəhidlər qərənfildi.

Əzizim ay batanda,
Gəl bizə, ay batanda.
Sənə nəğmələr qoşum,
Ay canım, ay batanda.

Mən aşiq sənə gülüm,
Süsən - sünbülə gülüm.
Əlim, əlinə yetməz,
Bizə gəlsənə gülüm.

Əzizim gecə yarı,
Olubdu gecə, yarı.
Sevən - sevənə yetə,
Günüz yox, gecə yarı.

Mən aşiq bu yollara,
Bu düzə, bu yollara.
Mübarək qədəmlərin,
İz salsın, bu yollara.

Əzizim ələ düşməz,
Gün keçər, ələ düşməz.
Gözüm gözünə həsrət,
Ötən gün ələ düşməz.

Mən aşiq sənə canım,
Od tutub, yanır canım.
Sənsiz bir heçəm indi,
Qalmayıb yarı canım.

Əzizim niyə belə?
Sənsizəm, niyə belə?
Vüsal yaman gen düşüb,
Bir sözlə, niyə belə.

Mən aşiq sözə bəndəm,
Sevgili gözə bəndəm.
Bil, qəlbimi oxusam,
Yalan yox, düzə bəndəm.

Əzizim gecə düşdü,
Gün batdı, geçə düşdü.
Səni bilmirəm canım,
Həsrət mənlə görüşdü.

Əzizim bağa sarı,
Ay baxır bağa sarı.
Könlüm qubar - qubardı,
Bir üz tut, bağa sarı.

Əzizim küsən oldum,
Dünyadan küsən oldum.
Kövrək könlüm qəm eylər,
Taxsırı sənnən oldu.

Əzizim gəlməz oldu,
Gözlədim, gəlməz oldu.
Sənnən ürəyim dönüb,
Nə oldu, mənə oldu.

Əzizim sına məni,
Lazımsa sına məni.
Həsrətinə dözüm yox,
Görəssən sına məni.

Əzizim gəldi - gedər,
Bu gün də gəldi - gedər.
Bir də duyuq düşdüm ki,
Ömürdü, gəldi - gedər.

Əzizim elə döndü,
Çay daşdı selə döndü.
Yar - yarına çatanda,
Mənimki, belə döndü.

Mən aşiq sənə neynim,
Baxıb, dinsənə neynim.
Demirəm dağlar aş gəl,
Məni görsənə, neynim.

Əzizim çən düşəndə,
Könlümə sən düşəndə.
Günüm zülmətə dönür,
Sənsiz gün ötüşəndə.

## DEYİRLƏR

Deyirlər şairlər dəlidi, dəli,
Deyirlər şairlər havalı olur.
Tanrıyı uzalı şair əlləri,
Başı qeylü - qalda, qovğalı olur.

Dünyadan bixəbər olur şairlər,
Sözə bax, bu boyda yalan olarmı?
Bulud tək boşalar, dolar şairlər,
Şeriylə ovudar könül yaramı.

Deyirlər şairlər sözün dəlisi,
Deyirlər, nə olar, qoy elə olsun.
Şairlər tapacaq «Nuhun» gəmisin,
Şairin qədrini el bilən olsa.

## USTAD ŞƏHRİYARA

Bu xoş gündə, xoş bayramın mübarək,
Varın - yoxun, azın - çoxun söz yükü.
Nurlar nuru, haqqın səsi səndədi,
Urəyinin xanəmanı söz mülkü.

Nəğmələrin bir dünyalıq adı var,
Təbriz, Bakı şirin - şəkər dadı var
Kim deyir ki, torpağımın yadı var,
Yaman gülür, cilvələnir göz bu gün.

«Heydərbaba» yenə dalğın görünür,
Yoxsa elə, ürəyimi döyünür?
Şəhriyarın vallah yeri görünür,
Sözü inci, inciləri düz bu gün.

Bu xoş gündə, xoş bayramın mübarək,
O tay - bu tay kəlmələri nə gərək,
O gün olsun el - obanı bir görək,
Dərdim dərddi, ağırlığı duz yükü.

## «HEYDƏRBABA»

«Heydərbaba» halın niyə yamandı?
«Heydərbaba» qəmə batma amandı,
Heç bilmirəm, bu nə qurğu, zamandı,
Ağrı çəkən hər daşına qurbanam.

«Heydərbaba» nələr görüb gözlərin?
Qubarlanıb qayaların, düzlərin,
Harayımdı bil, yanğılı sözlərim,
Yaza nə var, mən qışına qurbanam.

«Heydərbaba» şəhidlərə vay demə,
Günəş yoxsa, çıxan aya ay demə,

Namərd əldə gəzən yaya, yay demə,
Nər igidin savaşına qurbanam.

Qıpçaq Məlik at oynadır elimdə,
Min yalan var, Toxtamışın dilində,
Şad günündə tonqal qala, bilim mən,
Canım Təbriz, min yaşına qurbanam.

«Heydərbaba» Şəhriyardan soraq ver,
Qayalardan nər cüssəli varaq ver,
Nəğmələrlə sehirlənən yaraq ver,
Ələm dolu mən yaşına qurbanam.

Şəhriyarım dastan dedi adına,
Savalanım yaman düşdü yadıma,
«Ərk» qalası çatacaqdı dadıma,
Cadar - cadar mən yaşına qurbanam.

«Heydərbaba» ucalığın qürurum,
Qoy köklənim, dağ qoynunda qurulum,
Yollarına «Pirim» deyib, vurulum,
Nur çeşməli göz yaşına qurbanam.

«Heydərbaba» oğulların hardadı?
Koroğlular yoxsa yenə dardadı?
Dəlilərim haray salıb, yoldadı,
O çatılmış sərt qaşına qurbanam.

«Heydərbaba» Təbriz ellər anası,
Bəndi möhkəm, qalaların qalası,
Beşik üstə Təbriz ana laylası,
Şəhriyarlı yurddaşıma qurbanam.

«Heydərbaba» od qızıyam, odam mən,
Ağrıları, acıları dadan mən.
Yox, amandı, çaşıb demə yadam mən,
Dolandığım o başına qurbanam.

## BU GÜNDƏ

(Güləbridli Sarı aşığa həsr olunur)

İllər ötüb, əsrləri keçmişik,
Yaddan çıxmaz ustad adı, bu gündə.
Baş qoyduğu torpağa and içmişik,
Söz söyləyək, boy boylayaq bu gündə.

Torpağımın təpəridi bayatı,
İgidlərin sipəridi bayatı,
Bu dünyamın kəhəridi bayatı,
Atlı olub, el - el çapaq bu gündə.

Laçın gözlü qayalarım tamaşa,
Gələn qonaq qanadlana, dağ aşa,
Əlvanlıqdan gözlər elə qamaşa,
Gözəlliyə nəğmə olaq bu gündə.

Sarı aşıq, yaxşıların yaxşısı,
Çatan olmaz Yaxşısına, yaxşısı,
Nakam gedən Güləbridin Yaxşısı,
Ocaq çataq, yada salaq, bu gündə.

Elə dinək, dağlar, düzlər hay verə,
Qız - gəlinlər çələng hörə, pay verə,
Göylər bizə ulduz verə, ay verə,
Gümüş - gümüş açaq, saçaq bu gündə.

## İNSAN

Bulud tək bulanır bir acı sözdən,
Şirin, xoş kəlamla dağ aşır insan.
Şığıyıb xəyalın qanadlarında,
Yerləri, göyləri dolaşır insan.

Çəmənin, çiçəyin duyur ətrini,
Həyatda hər şeyin bilir qədrini,
Seyr edib dağların zirvələrini,
Qızıl üfüqlərə yaraşır insan.

Yayır şöhrətini sellər içində,
Vaxt olur ucalır, əllər içində,

Vallah, gülə dönür, güllər içində,
Daşlar arasında, daşlaşır insan.

## QOCA MİSGƏR

Qoca miskər
yuxu bilməz.
Bu nə maraq,
bu nə həvəs.
Çəkic qalxar,
çəkic enər.
Qığılcımdan sağa, sola
səpələnər.
Neçə sini, neçə dolça.
Əllərinin hər qabarı
Çəkic, zindan,
Babasının yadigarı.
İtiribdir gözlərinin
işığını, nurunu o.
Qalxıb səhər
qoca misgər,
Nəvəsini harayladı.
- Səninkidir innən belə
Bu çəkicim, bu zindanım.
Yaxşı qoru,
qədrini bil.
Babaların yadigarı
qoy yaşasın,
nəsil - nəsil.

## DEYİL

Nə ad üçün yaşayır,
Nə də özümüz üçün.
Yaşayırıqsa əgər,
Yaşayırıq dünyada,
Kiməsə gərək olaq.
Bərkə-boşa duşəndə
Kiməsə həyan olaq,
Kiməsə kömək olaq.
Hardasa bir komaya
daş olaq, dirək olaq

Hardasa bir qocanın
yapışaq qollarından.
Hardasa bir dağlını
qoruyaq dağ qarından.
Analara məhəbbət,
Balalara həyatda
şirin qayğı bəsləyək.
Bütün Yer kürrəsini
Alovlardan qoruyub,
        Sülhə, haqqa səsləyək.
Belə yaşayırıqsa
        yaşayaq.
Fərği nədir.
        50 - il,
ya da yüz il.
Mənasız keçən ömür,
        Əsla ömürdən deyil.

## KÖRPÜ

Körpü sözü müqəddəsdir,
Sahil sahilə calanır.
Bu yurd, o yurda qovuşur,
O el, bu elə calanır.

Körpü uzun, körpü gödək,
Körpü də var, göydən yerə.
Şəhərlərdən şəhərlərə,
Ölkələrdən, ölkələrə.

Körpü də var, könülləri
Birləşdirib salır yada.
Bir körpüyə dirək olmaq,
İstəyərdim bu dünyada.

## TÜRK QARDAŞIMA

Əli bəy, nə deyim sənə, bilmirəm,
Deyimmi bacınam, sənsə qardaşım?
Kövrəlib dolmuşam, dinə bilmirəm,
Bir həsrət yoludur, mənim savaşım.

Hər kəlmən bal dadır, hər sozün doğma,
Anamın ən şirin laylası kimi,
Əli bəy, bizlərə beləcə baxma,
Sənmisən, mənmiyəm, yanası kimmi?

Sözümü yetirin Ərzurum, qarsa,
Nəğməm səpələnsin çiçək əvəzi,
Bir vaxt kövrək qəlbim, yansa, daralsa,
Çatacaq sizlərə ünüm, nəfəsim.

## AŞIQ PƏRİ

Bir gül idi, Maralyanda bitdi o,
İlk bahar nəfəsli, yaz aşıq Pəri.
Könülləri məftun qoyub, getdi o,
Gəlin aşıq Pəri, qız aşıq Pəri.

Arazın hüsnünə dalıb tutuldu,
Nələri yadına salıb tutuldu,
Xalqın istəyini çalıb tutuldu,
İsti sinəsində gəz, aşıq Pəri.

Söhbəti yayıldı, sözü yayıldı,
Yaxınlar ayıldı, yadlar ayıldı,
Onun camalına çoxu mayıldı,
Məramı, məqsədi düz aşıq Pəri.

Ellər yetirməsi, ellər həmdəmi,
Yaşadı sevinci, yaşadı qəmi,
Qurbani vəsf edən bənövşə kimi,
Heyif ki, yaşadı, az, aşıq Pəri.

## SƏMƏD VURĞUNUM MƏNİM

Saçları qarlı dağım,
Şer, sənət növrağım,
Sönməz odum, ocağım,
Səməd Vurğunum mənim.

Könüllərin nəğməsi,
Çəmənlərin nəfəsi,
Çayların çağlar səsi,
Səməd Vurğunun mənim.

Sevimli «Azərbaycan»,
Dillərdə olub dastan,
Yaşayır zaman - zaman,
Səməd Vurğunum mənim.

Hər kəlmən bir incidir,
Bir dürdür, bir incidir,
Xalqımın sevincidir,
Səməd Vurğunum mənim.

Ocaqda közü qalan,
Zirvədə izi qalan,
Ürəkdə sözü qalan,
Səməd Vurğunum mənim.

## SARAYA BAX

(Ağstafada Hüseyn Arifin ev - muzeyində olarkən)

Otağında işıq boldu,
Ölməzliyə gedən yoldu,
Göz yaşımla qəmim doldu,
Bu sükutda haraya bax.

Niskilinə həyan ollam,
Od - alovsuz yanan ollam,
Kövrəkliyi duyan ollam,
Öz köksümdə yaraya bax.
Üzün gülür, göz ağlayır,
Arif oğul göz dağlayır,
İllər boyu yas saxlayır,
Qəm biçimli saraya bax.

Ürəyinin səsin dinlə,
Oğul deyib, salma dilə,
İnləyəndə elə inlə,
Dərd könlünü daraya, bax.

Nəğmələrdən Arif doğdu,
Demə şair, oğul yoxdu,
Otağında günəş doğdu,
Tellərində qaraya bax.

# *AĞRILI DÜNYADAN SOVUŞAN MƏNƏM*

## YENİ İLİN ASTANASINDA

Yeni il, yeni qədəm,
Yaman kövrək olmuşam.
Nəğmələr susub nədən,
Nədən belə dolmuşam.

Ömrümə ömür gəldi,
Yaşım artdı bir il də.
Gör nələr gəlib keçdi,
Nələr ötdü ömürdən.

Saatım günə döndü,
Günüm aya dolandı.
Ayıldım, bir də gördüm,
Könlüm talan - talandı.

Yoxsa itib batmışam,
Bəlkə daha yoxam mən.
Bu dünyaya yadmışam,
Tənhalıqdan qorxan mən.

## YENİ İLİN MÜBARƏK

Yeni ilin mübarək, mübarəkdi əzizim,
Yolunu gözləyirəm, yolunu həzin - həzin.
Yeni ilin mübarək, daha nə deyim sənə.
Qəmlənmə günah olar, vallah həm mənə, sənə.

Yeni ilin mübarək, yeni il, yeni qədəm,
İlıq nəfəs, doğmalıq, hərarətdi gözləməm.

Yeni ilin mübarək, dinlə məni bircə an,
Canım, mənim gözümdə bax beləcə qalasan.

## BƏXTƏVƏRƏM MƏN NECƏ

Başım üstə ay dolanır bu gecə,
Sehirlənir, təzələnir ürəyim.
Heç bilmirəm, söylə görüm mən necə?
Nağıl dolu bir aləmdə dinməyim.

Könül coşur gözəlliyin içində,
Bircə anlıq qoy başına dolanım.
Bu təbiət neçə donda, biçimdə,
Nəğmələnim, şirinlənim, ballanım.

Ulduz - ulduz vüsal yağır üzümə,
Saçlarımda təmiz mehin qoxusu.
Aman allah bəxtəvərəm özümlə,
Mənə həmdəm bu gecənin yuxusu.

## ÖMÜR PAYI

Bu ömür payıma nələr yazılıb,
Alnımın yazısı, qismətidi bu.
Gün nədi, ay nədi, illər yazılıb,
Acılı, şirinli sərvətimdi bu . . .

Daşı da duymuşam, bu da bir bəla,
Qəribə ürəyin yiyəsiyəm mən.
Könül qəribsəyib, ürək sınıbsa,
Haraya, köməyə gedəsiyəm mən.

Yolum hamarlansa çaşaram vallah,
Enişli - yoxuşlu keçib hər anım.
Lazımsa zirvələr fəth edəcəyəm,
Həyata vurğunam, mən necə danım.

## BAĞDA BİR GECƏM

Göydə ayı görmürəm,
Ulduzlardı sayrışan.

Ruhum içimdən çıxıb,
Ulduzlara qarışar.

Hər ulduz nurlu dünyam,
Sabaha yol açanım.
Məni oxuyan, duyan,
Mənim könül açarım.

Təbiətlə əl - ələ,
Ayağım torpaq üstə.
Yarpaqlar gəlir dilə,
Köklən nəğmələr üstə.

## ÖMRÜMÜN BİR ANI

Ömrümüzün şirin anı, xoş anı,
Ömrümüzün yadda qalan gümanı,
Çənə düşdük, deyən yoxdu gün hanı?
Bu gün bizə həmdəm olub çən, duman,
Bu da belə bir günüymüş, ay aman.

Dağ başında sazım dinər, haylanar,
Nəğmələnər, ətirlənər dolaylar,
Yaman ötür ömrümüzdən bu aylar,
Bu gün bizə həmdəm olub çən, duman,
Bu da belə bir günüymüş, ay aman.

Nağıl dolu qara düşdük, möcüzə,
Dağ cüssəli dağla durduq üz - üzə,
Gözəlliyə kim dözməyə, kim dözə,
Bu gün bizə həmdəm olub çən, duman,
Bu da belə bir günüymüş, ay aman.

## ÖTƏN ÖMÜR

Ömrümnən bir yarpaq düşdü bu gün də,
Ömrümün payızı məni haqladı.
Yaman kövrəlmişəm, eh . . . bu günümdə,
O güllü - çiçəkli yazım hardadı.

Ötdü, yaman ötdü gəncliyim allah,
O keçən günlərdə nələr varıymış.

Gəzdiyim düzənlər, keçdiyim yollar,
Kövrəlmiş qəlbimlə vallah yarıymış.

Daha gələn deyil o şux vaxtlarım,
Səbrim tükənmədə, dilim acıdı.
Hanı, hara getdi o şah vaxtlarım,
Sən demə cavanlıq, ömrün tacıdı.

## NƏSƏ İTİBDİ

Yenə duman çöküb göyün üzünə,
Yenə çən tıxanıb günün gözünə,
Buludlar dolubdu, yenə gözü nəm,
Təbiət mənimlə bəhsə giribdi.

Bu payız, ömrümün payızı imiş,
Bu payız, ömrümün ayazı imiş,
Bu da taleyimdə bir yazı imiş,
Düz yola göz yumub, kəsə gedibdi,

Bu günün işinə mat qalan könül,
Sevinci ötürüb, dərd alan könül,
Cəhənnəm odunda yer salan könül,
Dünyam uçum - uçum, nəsə itibdi.

## BU GECƏ

Bu gecə, tam başqa gecədir allah,
Bu gecə, öz dünyam yanıb yaxılar.
Mən qərib ulduzlar qəm sirdaşımdır,
Dünyam da beləcə, yoxdu axırı.

Gecənin zülməti çöküb könlümə,
Tək deyil, ulduzlu - aylı olmuşam.
Bu da taleyimin bir qismətidi,
Mən fani dünyada paylı olmuşam.

Bu ömür, bu yolum, mən də gedəri,
Qələm də əlimnən bezardı, bezar.
Yolumu kəsibsə qəmim, kədərim,
Ürəyim günəşdən nə deyib, yazar.

## SAZLI - SÖZLÜ DÜNYAM MƏNİM

(Aşıq Zülfiyəyə ithaf olunur)

Bu gün dünyam, sevinc üstə biçilib,
Sazlı - sözlü nəğmələrin üstündə.
Dağ dərdimiz bir anlığa kiçilib,
Gah «Cəlili», gah «Ürfani» üstündə.

Dədəm Qorqud baş qaldırıb, göz qoyur
«Misri»yə bax, alov qopur dilindən.
Bu torpağı sazla, sözlə yüz doyur,
Doyan deyil, gözəlliyin əlindən.

Pəridimi, sinəsində telli saz,
Yeri - göyü haraylayar, haylayar.
Tilsimdədi sehirli saz, sirli saz,
Namərd görüb, əməllərin bağlayar.

Bu gün sazla sevincimi bölmüşəm,
Bu gün dünyam hamarlanıb gözümdə.
Qanadlanıb, nəğmələrə dönmüşəm,
Mat qalmışam bu aləmə özüm də.

## BU OCAQDA QALANSIN

Bu dünyanın oyunu çox, dərdi çox,
Bu dünyanın səbri yaman daşıbdı.
Namərdinə oğul deməm, mərdi çox,
Səsim, ünüm o tayları aşıbdı.

Bu dünyanın qəmi böyük, çəkən mən,
Xış gətirin, əsəbimiz daransın.
Ümman boyda arzulara yelkən mən,
Bu yolları yarasıyam, yarası.

Xəbər tutsun bu günümdən yurddaşım
Halal əllər, boyumuza dolansın.
Haya gəlsin anam, bacım, qardaşım,
İstəyimiz bu ocaqda qalansın.

## ÖMRÜN PAYIZI

Payızımın qədəmləri qəmlidi,
Küləklidi, çiskinlidi, çənlidi,
Ağacların yarpaqları nəmlidi,
Bu ömrümün payızıdı, payızı.

Yarpaqları sarı boya, boz boya,
Sevənlər çox, qarışıbdı toy - toya,
Görən varmı çal - çağırdan heç doyan,
Bu yolların yolçusuyam, yolçusu.

Qınamayın, əlim çatmır sevincə,
İllər məni dolaşdırıb gizlincə,
Kədərimin göz yaşında girincəm,
Nəğmələrim təpərimdi, təpərim.

## İNCİLƏR DÜZƏR

Könlüm nəğməli dünyam,
Sevincim, kədərimdi.
Eləsi var dilimdə
Əbədi əzbərimdi.

Sözümdə, söhbətimdə,
Rahatlığım, dincliyim,
Ömrüm ilk yollarında,
Qayğısız nadincliyim.

Səadət carçısıyam,
Gözlərim sevinc gəzər.
Qəlbin söz çələnginə,
Nəğməm incilər düzər.

## SƏRT ŞİLLƏYƏ DÖNÜB KÜLƏK

Sərt şilləyə dönüb külək,
Bir zərbəsi daş qoparır.
Ah - fəryada dönüb külək,
Yaş üstündən, yaş aparır.

Ömür vəfa qılan deyil,
Bu soyuqluq varlığımda.
Yeni ilin hənirtisi,
Möhnət dolu otağımda.

Yer tapmıram özümə mən,
Gözlədiyim vüsal hanı?
Həsrətliyəm sözümə mən,
O əzəlki cəlal hanı?

Sərt şilləyə dönüb külək,
Ürəyimdə izi qalıb.
Niskil dolu nəğmələrin,
Bir ömürlük sözü qalıb.

## GƏNCLİYİM

Sözüm - söhbətim mənim,
Şirin - şərbətim mənim,
Varım - dövlətim mənim,
Gəncliyimdir, gəncliyim!

Sönməz xatirə qalan,
Ürəyimə iz salan,
Gah boşalan, gah dolan,
Gəncliyimdir, gəncliyim!

Gənclik tez keçib ötər,
Təravət nə tez itər,
Bənövşə tək, təzə - tər,
Gəncliyimdir, gəncliyim!

Qövsü - qüzeh rəngi də,
Çəmənlər çələngi də,
Yazımın ahəngi də,
Gəncliyimdir, gəncliyim!

O günümdən xoş nişan,
Xəyallara qarışan,
Ulduz - ulduz sayrışan,
Gəncliyimdir, gəncliyim!

## DÜNƏNDƏ QALDI

Mən necə yolçuyam, bilə bilmirəm,
Səfərim haradı, yönüm haradı?
Qəmin öhdəsindən gələ bilmirəm,
Köhlənim tövşüyür, mənzil yarıdı.

Göylərə baxıram, bulud örtüyü,
Yerlərə baxıram, çənli - çəmənli.
Nə köhnə arzular, nə köhnə ümud,
Dəyişib dünyanın əzəlki şəkli.

Karvanım yoruldu, eniş - yoxuşda,
Nələr gözlərimin önündə qaldı.
Mən necə alışıb, yanmayım oda,
Qayğısız günlərim dünəndə qaldı.

## TORPAQDADI QİSMƏTİM

Sonum mənə bəllidi,
Sabahımdan xəbərsiz.
Ölüm iti əllidi,
Köhlənə bax, yəhərsiz.

Gözüm günəşə doğru,
Əlim çatmır, neyləyim.
Ömür gedir, tez olun,
Gedənləri əyləyin.

Ürəyim baş qaldırıb,
Ürəyim döyünmədə.
Mənə yerin qandırıb,
Yamanca öyünmədə.

Sonum mənə bəllidi,
Bu günüm, qənimətim.
Nə vaxtsa bilirəm ki,
Torpaqdadı qismətim.

## XOŞ GÖRDÜK

Gecədir, bu günüm yol ayrıcında,
Eləcə görüşüb, halallaşıram.
Yuxulu gözlərim bir cığır açır,
Ay batır, sabahla qarşılaşıram.

Hər anım, hər günüm qonaq sayağı,
Əlində çomağı, yolçu yolunda.
Qarşıda səhərin günəş telləri,
Təzəlik duyuram, ömür yolumda.

Xoş gördük səhərim, xoş gördük səni,
Bu gün ki, şerimin əzəl bəndisən.
Narahat ömrümün burulğanında,
Dirəyi mənəmsə, polad bəndi sən.

## HANI MƏNİM HAY VERƏNİM

Nə görmüşəm bu yollarda,
Yanmaq peşəm bu yollarda,
Bir dərvişəm bu yollarda,
Hanı mənim pay verənim.

Əridəcək bu dağ məni,
Sanmayın oyuncaq məni,
İsitməz bu ocaq məni,
Yox hayıma, hay verənim.

Ömür keçir, vaxt qısalır,
Təklik məndən qisas alır.
Çəmən solur, bağ saralır,
Varmı haqq - say verənim.

## BAĞDA

Bağdayam, hər tərəf açıq, təmizlik,
Yenə haydan, küydən uzaq düşmüşəm.

Burda yalanlardan elə gizliyik,
Vallah, gözəlliyə qonaq düşmüşəm.

Ayağın altında qızmar torpağım,
Sağımda, solumda, güldü - çiçəkdi.
Arxa deyirsiniz?
çinar dayağım.
Mənim təəssübümü o çəkəcəkdi.

Gəzdikcə torpağı mən ayaqyalın,
Özümdən - özümə inam doğulur.
Ətraf necə rəngli, necə boyalı,
Duymaq bu aləmi nə gözəl olur.

Günbəkün ruhum da saflaşır burda,
Elə bil yenidən doğuluram mən.
Mən indi anladım, nə üçün belə,
Şəhər havasında boğuluram mən.

## YOLLAR, YOLUM OL MƏNİM

Yollar, yolum ol mənim,
Bu yollarda azmayım.
Vətən, sözüm ol mənim,
Sənsiz nəğmə yazmayım.

Anam, laylam ol mənim,
Təmizlənim, durulum.
Qardaş, arxam ol mənim,
Dağa dönüm, qurulum.

Balam, balım ol mənim,
Şirinlənim, ballanım.
Günüm, gözüm ol mənim,
El - el gəzim, nurlanım.

Ömür, andım ol mənim,
Damla - damla saflanım,
Torpaq, dadım ol mənim,
Nəğmə - nəğmə dolanım.

## BU İLİM

Düyüncəmi düyünləyə bilmirəm,
Bu ilimin düyüncəsi ballıdı.
Dünənimin hər qarışı neçə rəng,
Çəmən - çəmən, gül - çiçəkli, allıdı.

Bu ilimin səadəti bir yığın,
Dədə yurdu, ocaq başı, gur gərək.
Ha çağırın, ha səsləyin, ha yığın,
Hər kimsəyə, kök saldığı yurd gərək.

Bu ilimin qədəminə qurbanam,
Qardaşlarım qardaş kimi başımda,
Gəncliyimin gözü yaşlı günləri,
Ocaq çatıb, od qalayıb qarşımda.

Bu ilimin sovqatı çox, sözü çox,
Ömür ötür, xoş anları əyləyin.
Yeni ilim, qədəmlərin mübarək,
Bu günlərin sevincinə dəyməyin.

## MEŞƏDƏ

Yaz gəlişi sehirli,
Meşə əlvan çətirli,
Yerlər, göylər ətirli,
Təmiz hava, təmiz su.

Hara baxsan göz gülür,
Dodaq qaçır, söz gülür,
Deşə qalxan iz gülür,
Qovub çəni, çovğunu.

Oxu, bülbülüm, oxu,
Keçsə də ömrün çoxu,
Sən təbiət vurğunu,
Mənmi?
        Mənsə nə vaxtdan,
        Şəhərlərin yorğunu.

## GECƏM

Gecənin mehimi öpdü üzümü?
Ulduzlar göylərin gümüş gözümü,
Yarı - yaraşığı sənsən sözümün,
Ay sirli - sehirli, nağıllı gecəm.

O şirin yuxular tərk edib məni,
Dünənim qayıdıb, hürküdüb məni,
Ürəyim darıxır, bürküdü, nədi?
Layla çal, uyuyum, ağıllı gecəm.

Könlümün oduna düşüb yanıram,
Nələri, nələri yenə anıram,
Nəğməli dünyamda qanadlanıram,
A şirin - şəkərli, noğullu gecəm.

## GƏLMİŞƏM

Necə deyim, bu fərəhli günümdə,
Qəlbi dağlar qucağına gəlmişəm.
Cəbrayılın öz hüsnü, öz görkəmi,
Qartalların oylağına gəlmişəm.

Dədə Qorqud, dədələrin ulusu,
Sinəsində öz obası, ulusu,
Müqəddəsdir belə torpaq, belə su,
Şer - sənət ocağına gəlmişəm.

Yaranışdan sehirlidir bu diyar,
Sevinci var, ələmi var, qəmi var.
Ömrü gödək, boynu bükük, vaxtı dar,
Bənövşənin ayağına gəlmişəm.

Tamaşadı bu fəsillər, bu illər,
Sazımdakı dil - dil ötən, bu tellər
Xəbər verin aşıqlara, ay ellər,
Qurbaninin sorağına gəlmişəm.

## YENİ İL

Yeni ilim, gəl ilim,
Nura boyansın elim.
Sevindir ürəkləri,
Canlandır diləkləri.

Şaxta baba töhfəsi,
Qışımın sərt nəfəsi,
Arzulara boyansın,
Bütün şəhər oyansın.

Çilçırağa bürünsün,
Əlvan donlu görünsün.
Bu gün doğma şəhərim,
Yatmasın körpələrim.

Bir ağızdan desinlər,
Fərəhlə səsləsinlər.
Şaxta baba, can baba,
Qar gətir, bizə baba.

Həsrət gözlərə vüsal,
Sevənləri yada sal.
Xoşbəxtlik xonça - xonça,
Düzülsün yol boyunca.

Qədəmlərin sayalı,
Uğur, fərəh boyalı.
Yayılsın elimizə,
Sevinc gətirsin bizə.

## MƏNİM KƏNDİM

Gözə doğma, qəlbə yaxın,
Mənim kəndim, mənim kəndim.
Yurdum, yuvam, bərəm, bəndim,
Ətir dolu bağlarına,
O nurani dağlarına,
Pərvazlanıb uçur xəyal.
Göz önündən gəlib keçir.
Bala cüyür, ana maral.

Qıjıltılı dağ çayları,
Haray salır.
Yaşıl döşdə kənd evləri
Qatar - qatar, cərgə - cərgə.
Xan çinarlar yollar boyu
Sıralanıb.
Sağı - solu, kölgə - kölgə.
Yerdə işıq, göydə işıq.
O dunənki, daş, kəsəkli
Yollar asfalt geyinibdir.
Bu təntənə, bu yaraşıq,
Sığışmayır saza, sözə.
Təzə tarla gözəlləri,
Zinət verir kəndimizə.
Dünənimin arzuları
Həqiqətə dönüb bu gün.
Həcər qəlbli el qızları
Şeriyyətə dönüb bu gün.
Gör ki, neçə a dostlarım
Kənddə şəhər yaranıbdı.
Bir nazənin gəlin kimi,
Tumarlanıb, daranıbdı.
Hər misrama, hər sətrimə,
Qocaların sözü düşüb
Könlün nəğmə kəməndinə.
Necə deyim, gözüm düşüb,
Öz kəndimə, öz kəndimə.

## VƏTƏNİM MƏNİM

Vətən fərəhim, özüm,
Vətən, ən şirin sözüm,
Vətən, rəşadət, dözüm,
Ümman məhəbbətimdir.

Şöhrəti el - el gəzən,
Kəpəz, Qoşqar, Göyəzən,
Bir tablodur dağ, düzən,
Sözümdür, söhbətimdir.

Vətən, ana torpağım,
Dalğalanan bayrağım,

Qara qızıl, yatağım,
Bir dünya sərvətimdir.

Vətən şirin bayatım,
Vətən qaynar həyatım,
Xoş baharım, büsatım,
Vətən təravətimdir.

## XƏZƏRİM, AY XƏZƏRİM

Mehribanım, əzizim,
Həm səslim, həm səssizim,
Soyuqda kimsəsizim,
Xəzərim, ay Xəzərim.

Yayda sevinci ümman,
Ötər çən, keçər duman,
Al şəfəqə boyanan,
Xəzərim, ay Xəzərim.

Sönməz sahil işığı,
Şığı, qoynuna şığı.
Bakımın yaraşığı,
Xəzərim, ay Xəzərim.

## DURNALAR

Görən hardan üzülüb,
Hara köçür durnalar.
Zəncir kimi düzülüb,
Hara köçür durnalar.

Necə də qəribədir,
Gah şimala meyl edir,
Gah özünə cənubu
Məskən seçir durnalar.

Ensələr mən onları,
Lap yaxından görərəm.
Əlimlə su gətirib,
Əlimlə dən verərəm.

Durnanın öz qüruru,
Gözü çeşmədən duru.
Göylərin yaxasında,
Puçur - puçur durnalar.

Yox bu səfərin sonu,
Elə ömrü uzunu
Necə də qaqqıldaşıb,
Uçur, uçur durnalar.

## DAĞ KƏNDİ

Dağ kəndi nə haldı bu,
Yolun, izin daralır.
Niyə çatılır qaşın?
Niyə qanın qaralır?
Niyə qolun boşalıb,
İşığın azalıbdır?
Qəlbini incidən nə?
Qəlbini nə alıbdır?
Hanı o köhlənlərin,
O sürülər nə oldu?
Möhtəşəm binaların
Kərpici, daşı qopur.
İslanan palıdlara,
Gözünün yaşı hopur.
Niyə belə kəsildi,
Qızların qəhqəhəsi.
Güllər də qəribsəyir,
Qəmli, möhnətli kimi.
Ala - bula keçi də,
Durur həsrətli kimi.
Dağ kəndi nə haldı bu?
Ömürdən günlər gedir.
Qocalar yola baxır,
Cavanlar şəhərdədir.

## ASTA APAR

Daş mizrabı,
        daş pərdəyə,

asta apar,
asta sən.
Dindirdiyin o tellərdə
nə var
bilmək istəsən.
Tel var, onda
əsrlərin
söhbəti var,
sözü var.
Tel var onda,
Min ağacın
alovu var,
közü var.
Tel var onda,
Sevinc, kədər
məskən salıb
baş - başa.
Daş mizrabı,
daş tellərə
asta apar,
asta sən.
Neçə yatmış
duyğuları
oyadarsan taparsan.
Pianomu deyim ona,
Tarmı, sazmı, kamanmı?
Təbiətin daş bağrından
qopan ahmı, amanmı?
Qobustanın öz yazısı,
Öz tarixi, öz adı.
Daşa dönüb
zaman - zaman
öz gücünü,
dözümünü sınadı.
Daş sərgilər
dağ döşündə
bir - birinə yaraşıq.
Al sazını,
Qobustanın bu günündən
çal, aşıq.
Qobustanın təbiəti
Günəşlidi, yağışlıdı.

Qayaları soraqlasan,
Yüz yaşlıdı, min yaşlıdı.
Qayalara salsan nəzər,
Xəyalın dünyanı gəzər.
Biri sərkərdəyə bənzər,
Biri şair baxışlıdı.
Şirin olur gözun dəmi,
Dost görüşü, dost qədəmi.
Hərəsinin öz görkəmi,
Hərəsi bir naxışlıdı.

## QIZIL ZƏMİ- QIZIL DƏNİZ

Düzlər boyu ləpələnir,
Qızıl zəmi - qızıl dəniz.
Ləpə - ləpə qalxıb enir,
Qızıl zəmi - qızıl dəniz.

Canımızın taqətidir,
Elimizin sərvətidir.
Torpağın bol nemətidir,
Qızıl zəmi - qızıl dəniz.

Arzuya, diləyə dönür,
Arxaya, dirəyə dönür,
Ətirli çörəyə dönür,
Qızıl zəmi - qızıl dəniz.

## HÜNƏRDİR

Pilləkan daş, döşəncə daş, tavan daş,
Yataqları, otaqları daş bəzər.
Bir ölkədir, o yan qaya, bu yan daş,
Əsrlərin zərbəsinə daş dözər.

Yaralama bu daşları, əzizlə,
Dönə - dönə ölçüb - biçir nəsillər.
Bu məskəndən, o məskənə daş üzlə,
Zaman - zaman gəlib - keçir nəsillər.

Çox dağ çəkib, yağı bizə, yad bizə,
Neçə gözdə damla - damla yaş qalıb.
Düşmənlərlə dayananda üz - üzə,
Neçə yumruq daşa dönüb, daş qalıb.

Neçə yerdə çeyran, cüyür şəkli var,
Könülləri oxşamaq da hünərdir.
Daşa dönüb, yallı gedir babalar,
Daşa dönüb, yaşamaq da hünərdir.

## KƏKLİK GÖRDÜM

Qayalara səpələnən qızıl zər,
Üfüqlərin töhfəsimi bu yerdə?
Qobustanda kəklik gördüm bu səhər,
Gözəlliyin müjdəsimi bu yerdə?

Yeriyəndə yerişinə heyranam,
Dayananda nə qəribə dayanır.
Bir də onun bu işinə heyranam,
Bir qırpımda neçə dəfə boylanır.

Başı üstdən bildirçinlər ötüşür,
Quş da, quşun camalına bəndimiş.
Elə ötür, zirvələrə səs düşür,
Torpaq geniş, hava geniş, su geniş.

Ürkə - ürkə nəzər saldı dörd yana,
Ot ətirli külək əsdi, meh əsdi.
Balasımı birdən düşdü yadına,
Bir nəfəsə hara belə tələsdi?

Tamaşadır bu tərəflər, bu ellər,
Xəyalından silinərmi bir kəsin.
Qobustanda kəklik gördüm bu səhər,
Mən görmüşəm, ovçu onu görməsin.

GÖZÜN AYDIN QOBUSTANIM

Kitabını varaqladıq,
Tarixini soraqladıq,

Baba kimi qucaqladıq,
Gözün aydın Qobustanım.

Qızıl ulduzlar sayrışır,
Şadlıq - sevinc aşıb - daşır,
Qonaq - qovağa qarışır,
Gözün aydın Qobustanım.

Qopan tağların qurulur,
Qədim naxışlar vurulur,
Batan suların durulur,
Gözün aydın Qobustanım.

Başından duman çəkilir,
Ah çökür, aman çəkilir,
Yarana dərman çəkilir,
Gözün aydın Qobustanım.

## ZƏMİLƏR BİÇİLƏNDƏ

Zəmilər biçilər gedər,
Sünbüllər seçilər gedər,
Taxıl biçən başlayanda,
Səhər - səhər hay - haraya.

Dərz bağlanar qucaq - qucaq,
Şölə çəkər ocaq - ocaq,
Çöllər boyu, düzlər boyu,
Hara baxsan taya - taya.

Quşlar gəlir, quşlar gedir,
Onlar da öz kefindədir.
Dənə baxan bildirçinin,
Sevinci çıxmaz dünyada.

Biçin vaxtı gözəl olur,
Kisə dolur, anbar dolur,
Taxıl döyən yol gözləyir,
Anlarını saya - saya.

Elin məhsul bayramıdır,
Sevincidir, ilhamıdır,
Aşıq dindirir sazını,
Bu cəlalı yaya - yaya.

## SƏNLƏ - MƏN

Təbiət təzələnir,
Çiçəklənir göy çəmən.
Gül - çiçəyim tellənir,
Sevinirik, sənlə mən.

Ağacda düymə açır,
Quşlar şirin dil açır,
Bahar qapını açır,
Seyr edirik, sənlə mən.

Tər ot, ətir qoxulu,
Yayım hələ yuxulu,
Araz hərdən qorxulu,
Çəkinirik, sənlə mən.

Torpağımın gözü tox,
Heç nədən qorxusu yox,
Bərəkəti, varı çox,
İnanırıq, sənlə mən.

Alça, ərik güllənir,
Nazlı söyüd süslənir,
Ürəklər də dillənir,
Xoş nübarıq, sənlə mən.

## İLK SEVGİ

İki cavan əl - ələ,
Çəmənə üz qoydular.
Yol boyu gülə – gülə
Sevinc, fərəh duydular.

Cilvələnib axırdı,
Baxışlar həzin - həzin.
Oğrun - oğrun baxırdı,

Sevənlər bir - birinə,
Duyub odlu nəfəsin.

Elə bil bu aləmdə,
İki ürək vururdu.
Nəstərən, yasəmən də,
Heyran olub onlara
Məftun - məftun dururdu.

Baxışlardan bixəbər,
Dodaqlar qovuşurdu.
Nə olub, bu nə xəbər,
Qocalar çox narahat,
Ehmalca soruşurdu.

Sevgililər əl - ələ,
Toxunub əlvan gülə,
Ətirlənib süzürdü.
Gözləri gülə - gülə
Qəlbin pak incisindən,
İlkin çələng düzürdü.

## PAYIZ GƏLİR

Qırov qonur, yağış yağır,
Budaqların yarpaqları
Yavaş - yavaş, ağır - ağır
        Yerə enir,
Sanki dinir, payız gəlir.

Bildirçinlər düzüm - düzüm,
Dolub qəlbim, dolub gözüm,
Yoxsa donub hər bir sözüm,
Necə deyim, payız gəlir.

İldırımın çaxmasından,
Buludların axmasından,
Qocaların baxmasından,
Bilirsən ki, payız gəlir.

## YARAŞIR

Ürək gülur o məçlisdə,
        hardakı,
Qız oğula, oğul qıza yaraşır.
O aşığın söhbətini dinləyək,
Sazı sözə, sözü saza yaraşır.
Yer çiçəyə, çiçək yerə bəzəkdir.
Ulduz göyə, göy ulduza yaraşır.
Seyrə daldım ana Kürü, Arazı.
Araz Kürə, Kür Araza yaraşır.
İsti günəş, sərin hava, təmiz su,
Bizim doğma yurdumuza yaraşır.

## BAHAR GƏLİR ELİMƏ

Yal - yamaclar bəzənir,
Duyğular təzələnir,
Könlümə sözələnir,
Bahar gəlir elimə.

Yerlər, göylər allanır,
Çəmənlər sığallanır,
Tər çiçəklər ballanır,
Bahar gəlir elimə.

Çiçək təzə gəlindi,
Tamaşaya gəl indi,
Şəlalələr dilləndi,
Bahar gəlir elimə.

Gündə bir yeni zəfər,
Qələbələr, müjdələr.
Bayram edir, kənd, şəhər,
Bahar gəlir elimə.

## DAĞLAR

A dağlarım, mənim bircə sözüm var,
Sizdən ayrı düşüb, gedən ağlasın.
Vurğunmu kəsildim hüsnünə dağlar,
Nəğməm hər zirvənə çələng bağlasın.

Döşlərinə yaraşıqdır kəkotu,
Al xəliyə bənzədirəm tər otu,
Dərmanıdır yamacların hər otu,
Bunu loğman bilən kəslər saxlasın.

Qayalarda Koroğlunun nərəsi,
Dolaylarda Dilqəmimin qəm səsi,
Qoyma dağlar yolu düşən hər kəsi,
Çiskin, duman ürəyindən dağlasın.

Unudulmaz bu gözəllik, bu cəlal,
Yaraşığı dağlardan xəbər al,
Otu yaşıl, çiçək sarı, gülü al,
Sevgilələr dəstə tutub bağlasın.

Açılmasın qapıların namərdə,
Düşməyəsən nə əzaba, nə dərdə,
Bir arzum var axşam, sabah Fəridə,
Sinən üstə çaylar kimi çağlasın.

## BAĞDA MƏNZƏRƏ

Meynəmin xışıltısı,
Otumun mışıltısı,
Ulduzun işıltısı,
Bağa necə yaraşır.

Könüldə nəğməm həzin,
Elə bax, elə gəzin,
Qulaqda qalsın səsin,
Gül çiçəyə qarışır.

Xəyalım qanad açır,
Təbiət şölə saçır,
Yorğunluq uzaq qaçır,
Toy - büsatla yarışır.

## DALĞALAR

Onun qarşısında nə bənd, nə bərə.
Dağıdır dalğalar, yıxır dalğalar.

Bir anın içində, gör neçə kərə,
Əyilir dalğalar, qalxır dalğalar.

Axşamdan sabaha verməyir ara,
Elə bil içindən çəkilir dara,
Çırpıb sinəsini sal qayalara,
Canını yandırır, yaxır dalğalar.

Gəlir nəhəng kimi, coşur nər kimi,
Harasa üz tutub, səfərbər kimi,
O ağ köpükləri, ağ güllər kimi,
Qırçın tellərinə taxır dalğalar.

Vaxt olur, çiskinə, çənə bürünür,
Sağında, solunda duman sürünür,
Vaxt olur, bir dəli şimşəyə dönür,
Göy kimi gurlayıb, çaxır dalğalar.

Dərəsi, təpəsi, düzü var kimi,
Sularda cığırı, izi var kimi,
Qəlbində sahilə sözü var kimi,
Əbədi sahilə axır dalğalar.

## DAŞA DÖNMÜŞ QOBUSTANIM

Möcüzəmi, yoxsa nağıl,
Daşa dönmüş Qobustanım.
Dil aç, danış, açıl, dağıl,
Səndə yatıb çox dastanım.

Sıldırımlı qayaların
Bir kitabdır, varaq - varaq,
Çopurlaşmış oymaqların,
Əsrlərdən verir soraq.

Dam altında damlar yatıb,
Səssizliyi vahiməli.
Nəsillərin səsi batıb,
İgidlərin düz əməli.

Ozan baba heykəlimi,
Dağa dönüb məğrurluğu.
Sinəsində el qəmimi,
Xalqa bəlli ululuğu.

Hər qayanı, hər daşını,
Seyr edirəm, düşünürəm.
Damla - damla göz yaşımı?
Bu qəlpələr, üşünürəm.

Daşa dönüb Qobustanım,
Gəlib - keçir zaman - zaman.
Unudulmaz el dastanım,
Qoruyacaq bu görkəmi,
Qoruyacaq tarix, zaman.

## GECƏLƏR

Gecənin qoynuna atıb özümü,
Həzin bir nəğməyə dönürəm elə.
Dinləyib qəlbimin kövrək sözünü,
Dilsiz varaqlarda dinirəm elə.

Nələr düşünürəm, nələr yazıram,
Gah eniş, gah yoxuş olur səfərim.
Naşı yolçu kimi yolu azıram,
Sükuta bürünür könül dəftərim.

İçimdən bir haray, fırtına qopur,
Həmdəmim öz dünyam, öz aləmimdir.
Ruhuma necə də rahatlıq hopur,
Gecələr bir yığın söz, aləmimdir.

Ulduzlar köməyə asır əlini,
Nur qonur evimin masası üstə.
Könül vəcdə gəlir, hey nəğmələnir,
Anamın ən şirin laylası üstə.

## TƏLƏSMƏYƏK

Hər günümün öz gündüzü, gecəsi,
Hər anımın yüz bəlkəsi, neçəsi,

İnsan ömrü, bir körpüdən keçəsi,
Tələsməyək təzə ilə gəlincə.

Toy - büsatdır arzularım könüldə,
Dilə gəlib, nəğmələnir könül də,
Doğma - şirin söz - söhbət var könüldə,
Tələsməyək təzə ilə gəlincə.

Həsrət qəlbə, cığır düşür, yol düşür,
Dağ başına duman çökür, qar düşür,
Qocaların ürəyinə xal düşür,
Tələsməyək təzə ilə gəlincə.

## VARAM MƏN

Torpağımın oyanması nə gözəl,
Təbiətin boyanması nə gözəl,
Yerin - göyün öz aynası nə gözəl,
Bu cəlaldan ötən sazam, taram mən.

Şəfəqimlə zülmətləri yararam,
Yerin - göyün əhvalını soraram,
Düyünləri, zəncirləri qıraram,
Öz əhdimdə, öz andımda varam mən.

Ümidimi təbiətə bağlaram,
Torpaqdaki ünsiyyətə bağlaram,
Əlifbamı haqq sözüylə bağlaram,
Dağ başında əriməyən qaram mən.

## BİR QOCA YAŞAYIR

Bir qoca yaşayır bizim binada,
Alın qırış - qırış, saçları düm ağ.
Günəş oyandımı, oyanır o da,
Bir əli sudadır, bir əli torpaq.

Əzəldən alışıb dırmağa, belə,
Ağrını unudur, dərdi unudur.
Kiçik bir həyəti böyük həvəslə,
Yaşıla bəzəyir, qızıla tutur.

Kölgələr qol - qanad atır dörd yana,
Burda könül açan bir külək də var.
Ağaclar üz - üzə, ləklər yan - yana,
Moruq da, alça da, çiyələk də var.

İstəməz daş dəysin bir budağına,
İstəməz incisin bir kül, bir çiçək.
Kim ayaq qoydusa onun bağına,
Hərəni bir dillə sevindirəcək.

Ay canım, ay gözüm xoş gəlmisiniz,
Bu bağım, bu bağçam qurbandı sizə.
Qonağı könlünü alıb qocanın,
Ay kişi, gör nələr yaratmısan sən
Necə də bənzəyir dağ kəndimizə.

Beləcə xoşlanır, gülür, sevinir,
Kölgəyə çağırır gələn qonağı.
Ürəyi atlanır, ürəyi dinir,
Kövrəlir, söz tutmur dili, dodağı.

Könlünə yatası bir adı da var,
Uşaqlar haraylar, bağban baba hey . . .
Onlara çatası sovqatı da var,
Gəlin, ay göyçəklər, bircə gəlin hey .. .

Qapısı, çəpəri yoxdu bağçanın,
Bilir ki, buraya toxunmaz heç kəs.
Samavar buğlanır, samavar ötür,
Sığmaz bir dünyaya ondakı həvəs.

Hərdən bardaş qurub ağac dibində,
Nələri, nələri yadına salır.
Çəkilib kölgəyə, çəkilib hərdən,
Çatıb qaşlarını xəyala dalır.

Gəzir oymaq - oymaq, kəndi, kəsəyi,
Həsrəti vüsalla qol - boyun olur.
Bir dədə yurdunun sönmüş kösöyü,
Dərd olub, qocanın gözünə dolur.

Soyumuş daxması gözü önündə,
Elə bil, xiffətdən kiçilib, nədi.
Beli bükülərmiş nər dözümün də,
Kəsib qəm yükünü, bərəni - bəndi.

Nə dağlar dəyişib, nə yol, nə yamac, günəş
Həmən günəş, ay həmən aydı.
Qocanın ömrünə ən böyük qazanc,
Ötən günlərinin kövrək payıdı.

Bir vaxt dağ oğluydu, dağ cüssəliydi,
Dağa arxalanıb, dağa dönərdi.
Açılan sabahın o əzəliydi,
Günəş göründümü, o görünərdi.

Dağlar əyilməyən vüqarı, varı,
Dağlar oğulların, dağ arxasıydı.
Sən demə dağ kəndin nər cavanları,
Nə vaxtsa, nə vaxtsa qocalasıydı.

Sən demə oğullar izinə düşüb,
Şəhərə bir cığır uzanasıydı.
Oğullar gərəkdi obaya, elə,
Bu da bir qayğıdı, bir haqqı saydı.

Bir qoca yaşayır, bizim binada,
Oğul fərəhidi, nəvələr dadı.
Bir qoça yaşayır bizim binada,
Həsrəti, ümidi, hələ yoldadı.

## AŞIQ DÜŞÜB

Hava qar qoxulu, xəzan ətirli,
Könül qubarlanır, ürək kövrəlir.
Palıdlar fikirli, şamlar fikirli,
Dağa bulud qonur, döşə çən gəlir.

Sular buz bağlayır, köməşir otlar,
Saralmış yarpaqlar enir budaqdan.
Yoxuşa çatmamış tövşüyür atlar,
Meşə meyvələri donur sazaqdan.

Ayaqlar uşuyür, əllər üşüyür,
Quşların nəğməsi köçür dodaqdan.
Çiçəklər titrəyir, güllər üşüyür,
Kiminsə harayı gəlir uzaqdan.

## PAYIZIM

Payızın son nəfəsi,
Payız yol ayrıcında.
Sevinci də olubdu,
Duyub hər acını da.

Budaqların başında,
Tək - tək xəzan yarpaqlar.
Təbiət bu yaşında,
Qəribsəyər, hey ağlar.

Payızın qış qoxusu,
Dumana bürünübdü.
Ağ papaqlı qış baba,
Dağlarda görünübdü.

Ayaq alıb payızım,
Dərələr, dağlar aşır.
Qızıl - qızıl yarpaqlar,
Torpağıma qarışır.

## PAYIZ GƏLİR

Payız xəzan qoxulu,
Kollar, koslar yuxulu,
Qırovlanıb dağ yolu,
Dinir, hanı çal - çağır.

Yarpaqlar qızıl - qızıl,
Günəş yolunu azır,
Quşlar səfərə hazır,
Süzürlər ağır - ağır.

Zirvələrə qar düşür,
Duman çənlə görüşür,

Yada uzaqlar düşür,
Qocalar baxır, baxır.

## BU GÜNÜM

Bu günüm elə xoş, elə mehriban,
Bu günüm mənimlə doğmalaşıbdı.
Günəşin telləri zərli, qumaşlı,
Al - əlvan geyinib, baharlaşıbdı.

Əyilən deyiləm qəm dünyasına,
Bu gün varlığımda başqa bir aləm.
Ömrümün uğurlu astanasında,
Hay salsam yığışar yer üzü, aləm.

Könlüm pərvazlanır, könlüm tellənir,
Sağımda oğlumdu, solumda qızım.
Baxıram, baxdıqça nəşəm dillənir,
Don biçib əynimə baharım - yazım.

## ÇƏRŞƏNBƏ AXŞAMI

Bu axşamdan diləyini dilə, gəl,
Qərib könül, aç qəlbini, dilə gəl,
Arzuların çələnginə bülən gəl,
Çərşənbə axşamı, haqq axşamıdı.

Od qalanıb, ocaq yanır çat ha, çat,
Bu ocağın zirvəsinə çat, ha çat,
Dövrə vurub, at oynadım, çap ha çap,
Hünər gur ocağı bil, aşanındı.

Nə deyim, dünənim düşür yadıma,
Yad daşı atılıb halal qapıma,
Bilirəm gələcək tanrım dadıma,
Bu bayram and yerim, yanan şamımdı.

## GÖZƏLLİYƏ QARIŞIM

Yaz gəlişi lalə, nərgiz ətirli,
Göyün üzü günəş telli, çətirli.

Torpağımın hər qarışı sehrli,
Bu çöl - çəmən mənim doğmam, sirdaşım.

Arzularım zirvə - zirvə ucalır,
İlham pərim, bu cəlaldan güc alır.
Ötən günlər bu günümdən bac alır,
Uca dağlar, dağ cüssəli qardaşım.

Şəlalələr dəcəlləşib necə də,
Həzinlik var, ulduz - ulduz gecədə,
Başım üstən qaranquşlar keçəndə,
Az qalıram gül - çiçəklə yarışım,
Nəğmə olub, gözəlliyə qarışım .

### NECƏDİR

Bir çıxaydım dağlara mən,
        Görəydim dağlar necədir?
                Dünən səsli,
                        bu gün səssiz
Qalan bulaqlar necədir?
Adımımı ata - ata,
Örüşləri salım yada,
Baxım vələsə, palıda,
Çılpaq budaqlar necədir?

Göy üzündə şimşək çaxır,
Buludu yandırıb yaxır.
Çən yeriyir, çiskin axır,
Yaysız yaylaqlar necədir?

## *KÖVRƏK QƏLBİM TALAN OLAR*

### QƏLBİM BUZ BALTASI

Qəlbim buz baltası, barışan deyil,
Sənin öz dünyan var, qarışan deyil,
Kimisi bal gəzir, kimi şan yeyir,
Kimisi dumandan, çəndən ötüşdü.

Bu dünya bir meydan, at oynatma gəl,
Günahı boynundan canım atma gəl,
Könlüm qubarlayıb, eh ... qanatma gəl,
O şirin anlarım yaman gen düşdü.

Ballah incimişəm, səni bilmirəm,
Daha deyinmirəm, daha dinmirəm,
Ay allah, nələri hələ bilmirəm,
Bu nə ayrılıqdı, bu nə görüşdü.

## BƏXTƏVƏRƏM.

Sənə ehtiyacım yaman çoxalıb,
Sənsiz bircə anım ilə dönübdü.
Sənlə görüşümə hələ çox qalıb,
Ürəyim nap - nazik telə dönübdü.

Sənsiz sənləşirəm, səni bilmirəm,
Bəlkə yoxluğumla unuduluram.
Vallah yanılmıram, kimsən bilirəm,
Səni düşündükcə mən yorulmuram.

Mən də bəxtəvərəm, belə bəxtəvər,
Gələ şükr edirəm, sən bir işə bax.
Bu dünya bir oyun, dözümbir təhər,
Enişli - yoxuşlu gedişinə bax.

## YA VAR OL, YA YOX OL

Ya var ol, ya yox ol, yox ol əzizim,
Suallar yamanca çaşdırır məni.
Bu payız axşamı hava dolubdu,
Ürəyim nəmlənib, yağışdı, nədi.

Səbrimin kasası daşıb deyəsən,
Dağlara əl qatıb, aşıb deyəsən,
Gör nələr çəkəcək başım, deyəsən,
O güllü çəmənim yığışdı, nədi.

Mən də bax beləyəm, hirsli, havalı,
Özümdən xəbərsiz, küskün, davalı,

Bilmirəm baş alıb, hara yan alım,
Öz dünyam içimdə qarışdı, nədi.

## NƏ SƏN GÜNAHKARSAN, NƏ MƏN BİLİRƏM

Yaman soyuyuruq bir - birimizdən,
Nə düzlər keçirik, nə dağ aşırıq.
Bir həsrət yanğısı ürəyimizdə,
Sən məndən, mən səndən uzaqlaşırıq.

Nə sən günahkarsan, nə mən, bilirəm,
Bir ömrün min üzü, sözüm yox daha.
Aşkarda danışıb, dinə bilmirəm,
Vallah, ümidim yox, gələn sabaha.

Bu da bir ağrıdı, bu da bir dərddi,
Sənə əziz olan uzaqdan - uzaq.
Canım hər günümüz bir qənimətdi,
Ünvanı itirib, yolu azmayaq.

## ELƏ DARIXMIŞAM

Elə darıxmışam, elə, səninçün,
Mənim könül nəğməm, könül sirdaşım.
Vallah varlığımda söhbətim çin - çin,
Axı neçə edim, sənlə barışım.

Bu gün ayrılmışam dostdan, tanışdan,
Bu gün öz dünyama qarışmalıyam.
Bu gün oyanmışam hələ o başdan,
Nəğməmlə dil açıb, alışmalıyam.

## SƏNSİZLİK

Sənsiz ayrılığın son həddindəyəm,
Sənsiz kədərimlə qol - boyun ollam.
Nigaran dünyamın öz bətnindəyəm,
Sənsiz həsrət donlu bir oyun ollam.

Yoxluğun at çapır, aman, ay aman,
Sevinci, nəşəni yadırğamışam.

O şirin anları alıb çən, duman,
Sən demə dərdimlə ağır dağmışam.

Sənsizlik gözümü elə tutub ki,
Vüsalın izinə düşə bilmirəm.
Yoxluğun ömrümə bir toy tutub ki,
Bu nə iztirabdı, bu nə, bilmirəm.

**NECƏ DEYİM**

Necə deyim, arzuların bəndisən,
Necə deyim, bu günümün dərdisən.
Sevincimi sevincinə qatardım,
Aman - allah, məni, məndən qopardın.

Xəzan donlu bir niskilim var mənim,
Ürəyimi necə alıb qar mənim,
Bu ömrümə ay gileyli gələnim,
O anları, söylə, hara apardın.

Soyuq baxdın, tufan qopdu könüldə,
Damla - damla göz yaşımı könüldə?
Acizləşib, üz döndərib könul də,
Vüqarımı qaçaq olub apardın.

**SƏNSƏN**

Gəl, başına dolanım,
Sevincinə bələnim,
Ay qadamı alanım,
Öz sevgimin adısan.

Nəğməm özünsən özün,
Şerə dönübdür sözün,
Yanan ulduzmu gözün,
Qolumsan, qanadımsan.

Arzum gerçəkmi oldu,
Bu günüm sənlə doldu,
Məhəbbət sonsuz yoldu,
Bu yolda saf andımsan.

## BU GÜNÜM

Həsrətimi görüşümə qatmışam,
O günləri unutmuşam, atmışam.
Acını da, şirini də dadmışam,
Çiçəklənib, yazlanıbdı bu günüm.

Gözlərində üfüq - üfüq sevincim,
Günəşimin zər telləri, zər incim,
Şəhla gözlüm, gözəllikdə birincim,
Yerə - göyə sığmaz xoş arzum - ünüm.

Şirin ləhcən bülbülümün öz səsi,
Naz - qəmzənə, hünər varmı dözəsi,
Sən olmasan sönəsiyəm, sönəsi,
Yanan şamım, qoy başına mən dönüm.

## QÜBAR OLDUM

Gözlərində od gəzirdim,
Bu eşq ilə yanar oldum.
Şaxta kimi kəsdin məni,
Buz bağlayıb donar oldum.

Şirin nəğmə, xoş nəfəsdin,
Andı danıb, əhdi kəsdin,
Külək kimi hara əsdin,
Bu yollardan sorar oldum.

Səni deyib, səni andım,
Arxa bilib, ümid sandım,
Yerdən, göydən aralandım,
Dünya boyda qubar oldum.

## SEVİNCƏ DÖN

Kövrəkliyin ürəyimə toxundu,
Nəğmə olub, həzin - həzin oxundu,
Ümid - ümid arzularım yox oldu,
Ömrüm - günüm, sevincə dön, sevincə.

Lal deyiləm, bu sükutdan susmuşam,
Pusqudayam, addımını pusmuşam,
Gilə- gilə göz yaşınla dolmuşam,
Ömrüm - günüm, sevincə dön, sevincə.

İllər ötür, görünmədən, gizlicə,
Hey uzanır, cığır necə, iz necə,
Həsrətinlə yatmamışam bu gecə,
Ömrüm - günüm, sevincə dön, sevincə.

Ümman olub, qoy qarşında sellənim,
Mehə dönüb, saçlarında tellənim,
Gəl razı ol, qoy eləcə dillənim,
Ömrüm - günüm, sevincə dön, sevincə.

## FƏRƏHİM GEDƏN GÜNDƏN

Demə ayrılıq dəmi, həsrətin ilk qamçısı,
Demə ayrılıq dəmi, görüşlərin acısı.
Baxışın baxışımda donub qaldı o gündən,
İzinlə gedər oldu, fərəhim gedən gündən.

Sənsizliyin yükünü çəkə bilmirəm daha,
Elə hey . . .ümidimi bağlayıram sabaha.
Yatağımda gecənin rahatlığın pozuram,
Bircə anlıq yuxumu, neçə yerə yozuram.

Qayıt sənli ömrümə, sənsiz axı nəyəm, nə,
Saçın yolan bayatı, yoxsa həzin neyəm, nə.
Səni xatırlayıram, baxışların gözümdə,
Sevgi dolu dünyamı yaşadıram özümdə.

## DÖZ GÖRƏK

Gözlərindən od götürüb, od oldum,
Alovlanıb eşqim yandı içimdə.
Sənə baxıb, səadətlə yoğruldum,
Sevincimiz eyni donda, biçimdə.

Günəş də sən, ulduz da sən, ay da sən.
Sənsiz nəyəm, heç bilmirəm özümdə.

Zirvələrin zirvəzisən boyda sən,
Varlığınla ucalırsan gözümdə.

Xoşbəxtliyin kəməndidi əlimdə,
Hər anımın qədrin biləm, mən gərək
Bal şirinlik yer eyləyib dilində,
Bu sadəcə şirinliyə döz görək.

## GÜN AYDIN

Vüsal qapını döydü,
Sevincim özün öydü,
Arzum elə böyüdü,
Fərəhim dağ aşandı.

Gün aydın, ay qismətim,
Xoş günüm, qənimətim,
Sən varım, sən ismətim,
Eşqim coşub - daşandı.

Təkliyim qaçaq düşdü,
Qəmim mənlə küsüşdü,
Bu nə gözəl görüşdü,
Həsrət baxıb yaşmandı.

## DAHA İNCİTMƏRƏM SƏNİ

Bağ saralır, çəmən solur,
Dağ dərələr çənlə dolur,
Könül yıxmaq çətin olur,
Daha incitmərəm səni.

Məhəbbətin öz sözü var,
Boz üzü var, xoş üzü var,
Saçlarında dən izi var,
Daha incitmərəm səni.

Yollar geniş, yollar açıq,
Yerlər işıq, göylər işıq,
Sabah oldu qarşıma çıx,
Daha incitmərəm səni.

## GÖZƏL

Könlümə yaz düşər, sən görünəndə.
Ürək cuşa gəlib, dil açar gözəl.
Qönçə qızılgüllər ağ əllərində,
Fərəhdən dünyaya göz açar gözəl.

Könlünün gözüylə bircə bax mənə,
Bir qızıl çələngsən yaşıl çəmənə,
Gözlərin incidir, inci ver mənə,
Səni görüb duman gen qaçar gözəl.

Ömrümün, günümün varı, canı sən,
Yandırıb yaxırsan, yazıq canı sən,
Sazımın, sözümün həyacanı sən,
Nəğməm günəş olub, nur saçar gözəl.

## QOYMA BİRCƏ İNCİYİM

Səhər mehi sərinmi,
O incə əllərinmi,
Dilləndirir qəlbimi,
Ay mənim sevdiciyim.

Gözlərin mavi dəniz,
Lalə yanaq, gülbəniz,
Bu ağ buxaq, tər bəniz,
Səndədir bircəciyim.

Eşqin atəşində yan,
Oda - alova boyan.
Dan ulduzuyla oyan,
Qoyma bircə inciyim.

## QOŞA KÖLGƏ

Aylı gecə,
Sakit küçə.
Nə dinən var,
nə danışan.

Meh vurduqça yarpaqlardır,
Ara - sıra pıçıldaşan.
Hava sərin,
hava təmiz.
Elə gedir,
gedirik biz.
Nə sən dinir,
nə mən dinir.
Aylı gecə,
təkcə - təkcə,
Məhəbbətdən söhbət açan
nəfəsimiz hənirlənir.
Qoşa kölgə yaxınlaşır.
Yaxınlaşan kölkələrlə,
Ümidimiz, istəyimiz
aşıb - daşır.

## SƏN

Bu coşqun könlümü, çılğın könlümü,
Oxşa ey ümidim, oxşa sözlə sən.
Sonsuz məhəbbəti, sonsuz istəyi,
Gizləyə bilərsən, gizlə, gizlə sən.

Mənim mənliyimə bərabər hanı?
Hissi, düşüncəsi, təzə - tər hanı?
Şirin dil, xoş sifət, dilavər hanı?
Kamil ovçu kimi izlə, izlə sən.

Yağışa, yağmura, selə dözərəm,
Dumanlı, çiskinli çölə dözərəm,
Gün nədi, ay nədi, ilə dözərəm,
Bir dönüb desən ki, gözlə, gözlə sən.

## O GÜNDƏ

Dəli könlüm kəməndini nə atdı,
Səssiz yatan duyğuları oyatdı,
Keçən günlər göz önündə boy atdı,
Baharım da, qışım da var, o gündə. .

Mən nə deyim arzuların səddinə,
İstəklərin zirvəsi nə, səddi nə,
Ömür keçir gah düzünə, tərsinə,
Sevincim var, göz yaşım var o gündə.

Söz götürmək adət olub çoxuna,
Lövbər salıb bəzisi var - yoxuna,
Vay o gündən kimsə qəlbə toxuna,
Səadətim qara geyər o gündən.

Nağıllıymış bal dadırmış o anlar,
Sehir dolu dünya imiş analar,
Ötən günlər məni görüb, yanılar,
Şirin - şəkər gəncliyim var o gündə.

## BU GÜN GÖRÜNMƏZƏM

Nə yerdə, nə göydə arayın məni,
Bu gün görünməzəm, yoxam, itmişəm.
Nə artıq söhbətdə qınayın məni,
Xəlvəti kövrəlib, çöldə bitmişəm.

Soyuq baxışlardan uzaqlaşmışam,
Elə bil çiynimdən yüküm azalıb.
Çiçəyə çevrilib, baştalaşmışam,
Narahat könlümü, yenə yaz alıb.

Özümə dönmüşəm, haray salmayın,
Qoyun çiçək – çiçək tellənim indi.
Ömür yelkəninin izinə düşüb,
Kövrək nəğmələrlə dillənim indi.

## DEYİRSƏN

Deyirsən qayğıya möhtacdı könül,
Fərəhdən uzaqdı, lap acdı konül,
Kövrək anlarıma qazancdı könül,
Deyirsən, qəlbimdə həsrət sellənir.

Baxıram, qarşımda dözümün durur,
Hər kəlmən, hər sözün ləyaqət, qürur,

Xəyalım yüksəlib göyə baş vurur,
Baxdıqca könüldə nəğməm dinlənir.

Tale qəribədir, yazdığın pozmaz,
Ünvanın, cığırın yolunu azmaz,
Dediyin deyəcək, sözünü danmaz,
Sevinclə oynayır, qəmlə yellənir.

## SƏSSİZLİK

Bu gün evdə tənhayam,
Bir az xəstə, soluxmuş.
Elə bil, lap əzəldən,
Burda insan yoxuymuş.

Səssizliyin içində,
Divarlar sıxır məni.
Bir sükut dünyasında,
Yandırıb, yaxır məni.

İşə bax, axı hərdən,
Səssizliyi gəzmişəm.
Şerim yarımçıq qalıb,
Haydan, küydən bezmişəm.

Sən demə bir bəhanə,
Bu ötəri sözüymüş.
Çılğınlıq, səs, ehtiras,
Nəğməmə özülüymüş.

## SƏNSİZ

Qayğısız anları pozmağa gəldin,
Oyandın, yuxumu yozmağa gəldin,
Adını ömrümə yazmağa gəldin,
Ümmana sığmayan qəmin selisən.

Sənsiz xəzanlaşıb gülüm - çiçəyim,
Sənsiz yalan olub, düzüm, gerçəyim,
Sən demə varıymış çox görəcəyim,
Könlümü göynədən həsrət telisə.

Vüsalım yollarda boynu bükülü,
Qəmimlə silkənim, solum, tökülüm,
Gəl dindir könlümü, qoyma bükülüm,
Yolumda burulan xəzan yelisən.

## GÖZƏL

Könlüm nazından allandı,
Qəm, kədərim daldalandı.
Mənə bu sevgin qalandı,
Sevgin, sevgim olsun gözəl.

Qızlarımın birincisi,
Ürəyimin saf incisi,
Gözlər şəbnəmin incisi,
Məhəbbətlə dolsun gözəl.

Həyat gözəl, ömür qısa,
Gəl batmayaq vaxtsız yasa,
Sevgimizin dadı busa,
Qoyma yanıb solsun gözəl.

Dedim camalına əhsən,
Sevilən mən, sevən sənsən
Şeh damlalı bir süsənsən,
Eşqin mənə qalsın gözəl.

## DÜŞÜNÜRƏM

Düşünürəm, düşüncələr düyün - düyün,
Üzüb keçir, yırğalanır dalğa - dalğa.
Çapar olub, çapır - çapır gecələri,
Qarşısında hey açılır yol - yolağa.

Düşünürəm, gecələrim qəlb sirdaşım,
Qayğı dolu pak beşiyə bənzəri var.
Ürəyimdə qəm deyilən ağır daşın,
Dağlar qədər çəkisi var, kəsəri var.

## QƏRARIM KƏSİLİB

Qərarım kəsilib, səbrim tükənib,
Havalı otaqda, havasız kimi.
Yüküm ağır düşüb, qəmlə yüklənib,
Baxıram özümə davalı kimi.

Mənmi günahkaram, nə bilim düzü,
Özüm də bilmirəm, bu hal, nə haldı?
Zülmətə dönübdü günüm, gündüzüm,
Ümidim tükənib, dünəndə qaldı.

Göz verin, gözümün eynəyi olsun,
Yenidən köz açım, görüm, götürüm.
Qoymayın, qoymayın beynim yorulsun,
Özümü, özümdən alın, götürün.

,
Sənsiz uzaqlaşıb sevincim, ünüm,
Mən neçə söyləyim, ay ömrüm - günüm,
Gözlərimin oduna düşmüsən.

Sənsiz qəm yükünü çəkən olmuşam,
Sənsiz dar cığırlı, ağır yolmuşam,

Sənsiz sənsizləşib mən yorulmuşam,
Ürəyimin qatına düşmüsən.

Gecələr, bir yığın xatirəm mənim,
Harayla adımı, itirmə məni,
Ay mənim şirinim, ilk qənimətim,
Həsrətimin dadına düşmüsən.

## GÜNÜMƏ BAX

Ürəyimdə tel qırılıb,
Yüküm ağır, bel qırılıb,
Ay dayanıb, il yorulub,
Aman allah, günümə bax.

Bu halıma yananım yox,
Sağda, solda həyanım yox,
Xatırlayıb ananım yox,
Aman allah, günümə bax.

Yer tapmıram özümə mən,
Alışdıqca közümə mən,
Mat qalmışam dözümə mən,
Aman allah, günümə bax.

Belə gəldi, belə yolum,
Çatarmı mənzilə yolum,
Yarıdadı hələ yolum,
Aman allah, günümə bax.

## MƏNDƏN İNCİMƏ

Qəribə haldayam, qəribə halda,
Yanımda nə kədər, nə səadətim.
Elə bil donmuşam bu gün, baharda,
Hanı coşub - daşan, sözüm - söhbətim.

Gözümdə nə dağ var, nə çəmən, nə düz,
Sazımın telləri qırılıb, nədir?
Görünməz olmuşam bu gün dünyada,
Elə bil itmişəm, bir qərinədir.

Gözü kölgəliyəm özüm - özümdən,
Əlim yetməyincə ilk sevincimə.
Beləcə yazılıb bu günüm mənim,
Susan nəğmələrim, məndən incimə,

## DAĞIM OLAR

Baxışımın toruna bax,
Ürəyimin qoruna bax,
Kim  kimsədən qoruna, bax,
Nakəs əli ağır olar.

Dəydi qara daşa adım,
Yaman yerdə axşamladım,
Dərdli könül oxşanmadı,
Dərdim mənə yağı olar.

Bir kəsimə qıyammaram,
Qismətimi oyammaram,
Öz - özümlə özüm varam,
Qəm yükündən dağım olar.

## GƏLMƏSƏN

Ömrüm ucuzlaşıb gözümdə yaman.
Ömrüm bu günlərə borclu kimidi.
Bir arif istərəm, sözümü qanan,
Aça ürəyimin bağlı kilidin.

Açılan səhərim çənli - çisəkli,
İllər həyacandan bezardır, nədir?
Yapışıb yaxamdan həsrətin əli,
Doğmalar ömrümdən kənardı, nədir?

Bu günün çəmini tapa bilmirəm,
Düşmüşəm elə bil, gedər - gəlməzə.
Sənsizlik dağını çapa bilmirəm,
Yox ollam, yox ollam, gəlməsən bizə.

## NƏ BİLƏSƏN

Nə biləsən, nə çəkirəm,
Nə biləsən, qınamıram.
Qəm udur, nalə çəkirəm,
Yaşayıram, mən danmıram.

Nə biləsən, dünyam uçub,
Nə biləsən, günah məndə.
Bu günümdə sənsən suçum,
Yanılmışam öz əhdimdə.

Nə biləsən, yazım hanı?
Araşdırma aləmi sən.
Çoxum gedib, azım hanı?
Vallah mənsiz tək kimisən.

Nə biləsən, illər boyu?
Yol üstündən yol salmışam.
Bu da belə, bir cür oyun,
Bu oyunda tək qalmışam.

## DÖYÜN, EY ÜRƏYİM

Bu dünyanın quyusu nə dərindi,
Yeriyəm, yüyürərəm, çatmaram.
Bilirsənmi mənim dərdim, nə dərddi,
Belə dərdi, başqa dərdə qatmaram.

Dərdi ver çəkənə, dərd çəkənindi,
Torpağı şumladın, ot əkənindi.
Ağ günlü günlərim, di, çəkil indi,
O şirini unutmaram, atmaram.

Getdi o harayım, getdi o ünüm,
Pozuldu növrağı toy - düyünümün.
Döyün, ey ürəyim, yenidən döyün,
Sənsiz oyanmaram, sənsiz yatmaram.

## GƏL ÖMRÜMƏ

O gözlərə, həsrət qalıb gözlərim,
Ümüdümü üzəmmədim, gözlədim,
İndi bildim alov nədi, köz nədi,
Gəl ömrümə, gəl ömrümə, gəl gülüm.

Saçlarıma hələ desən, dən düşüb,
Hayıma yet, bir bilsən nədən düşüb,
Xatirələr aləmində görüşüb,
Gəl ömrümə, gəl ömrümə, gəl gülüm.

Nurum idin, zülmət oldun gözümdə,
Dilimdə sən, hər kəlməmdə - sözümdə,
Dözümlüydüm, vallah bezib dözüm də,
Gəl ömrümə, gəl ömrümə, gəl gülüm.

## BU DÜNYAYA GÖZ AÇANNAN

Bu dünyaya göz açannan,
Canım, vallah dil açannan,
Ayaq tutub, hey qaçannan,
Mən səninlə bir olmuşam.

Dəli - dolu günlərimi,
Qəmlərimi, ünlərimi,
Keşməkeşli illərimi,
Alov olub qovrulmuşam.

Aç qəlbini baxım canım,
Mənə ruhun yaxın, canım,
Sənsiz vallah axır canım,
Gözləməkdən yorulmuşam.

Gəmidəyəm, gəmim getmir,
Piyadayam, əlim yetmir,
Bu ayrılıq niyə bitmir?
Göz göynədən qor olmuşam.

## BAĞIŞLA

Canım - ciyərim mənim,
Eşqim, ürəyim mənim,
Hər an gərəyim mənim,
Gələmmədim, bağışla.

Sənsiz od olub yandım,
Sındı qolum, qanadım,
Sənsiz dünyanı dandım,
Dinəmmədim bağışla.

Əlin - əlimdən uzaq,
Gözün - gözümnən uzaq,
Özün - özümdən uzaq,
Görəmmədim, bağışla.

## PİSƏM, BİLİRƏM

Mənə pis deyirsən, neyləyim pisəm,
Canım, taxsırkarı nə mənəm, nə sən.
Bu dünya üzündə yol azan nəsəm,
Yolumnan uzaqlaş, gen dolan, gen gəz.

Mənə pis deyirsən, neynək qəbulum.
Deyirsən od olub, yanım, qovrulum?
Əgər dözmürsənsə, qurbanın olum,
Yolumnan uzaqlaş, gen dolan, gen gəz.

Mənə pis deyirsən, pisəm bilirəm,
Yolunda dumanam, sisəm bilirəm,
Qəlbinə toxunub itsəm, bilirəm,
Deməzsən uzaqlaş, gen dolan, gen gəz.

## HARDA QALMISAN

Canım, harda qalmısan,
Yaman daralıb könül.
Məni məndən almısan,
Solub - saralıb könül.

Bu nə işdi düşmüşəm,
Özüm də baş açmıram.
Həsrətlə görüşmüşəm,
Qismətimnən qaçmıram.

Qaçmıram qismətimnən,
Sənsiz ömrüm daralar.
Mənim qənimətimsən,
Getsən, yolu qar alar.

## DÖZÜM QALMAYIB

Əlim çatmır sənə, nə ünüm yetir,
Ayrılıq dərd olub, incidir məni.
Bir vüsal eşqiylə hər günüm bitir,
Gəlsənə, gəlişin sevincim mənim.

Gəl canım, gəl məni qurtar bu qəmnən
Sənsiz varım - yoxum itib gözümdə.
Saçıma sığal çək, tut əllərimnən,
Ayrılım yenə də özüm - özümnən.

Yenə də aləmim, öz dünyam olsun,
Od olub isitsin nəfəsin məni.
Kimə nə, beləyəm, mən buyam, noolsun,
Ölərəm, ölərəm itirsəm səni.

Yox, vallah, təkliyə dözüm qalmayıb,
Sənsiz talan olub dünyam elə bil.
Sən yoxsan, dünyada gözüm qalmayıb,
Bacarsan, könlümü dindir, dilləndir

## TALAN OLAR

Ürəyimi gəl oxu sən,
Bu günümdə bil, qorxum sən
Varam - yoxam duya bilsən,
Vallah canım, yaman olar.

Nə söz danış, nə din hələ,
Baxma mənə elə - belə,

Deyiləsi söz çox hələ,
Heç nə demə, yalan olar.

Ömrün yazı bitsə inan,
Könül sazım itsə inan,
Çən - dumanda itsəm inan,
Kövrək qəlbim talan olar.

## ÖZÜM DƏ BİLMİRƏM

Özüm də bilmirəm nə olub mənə,
Qanımmı qaradı, darıxırammı.
Bir həsrət yanğısı dolub qəlbimə,
Səbrim tükənmədə, axırımmıdı.

Bu günüm inanki, ilə bərabər,
Adicə sözünə möhtac qalmışam.
Bir ılıq nəfəsin mən tamarzısı,
Yoxsa bu dünyadan eh . . .bac almışam.

Nə deyim ay canım, nə deyim sənə,
Yadmısan, doğmasan bilmirəm hələ.
Əgər səs verməsən mənim səsimə,
Uzaq ol, uzaqlaş, dəymə qəlbimə.

## DEYİRSƏN ŞER YAZ

Deyirsən şer yaz, yazım, qoy olsun,
Nəğməmin sehrinə düşəsən gərək.
Hər kəlməm, hər sözüm sənə yar olsun,
Ruhumuz dil tapa, görüşə gərək.

Görüşə könlümüz səssiz - səmirsiz,
Bircə baxışımız bəs edə bizə.
Nə sən tənha görün, nə mən kimsəsiz,
Doğmalıq kök salsın öz qəlbimizə.

Deyirsən şer yaz, qoy olsun, yazım,
Şərtim məni duymaq, anlamaqdır bil.
Şer nurlu dünyam, baharım, yazım,
Məni sözünlə yox, qəlbinlə dindir.

## BU GÜN BƏXTƏVƏRƏM

Bu gün bəxtəvərəm, dəyməyin mənə,
Vallah, göy üzünün mələyiyəm mən.
Arzudan don geyib bu gün əynimə,
Döyünən bir qəlbin dirəyiyəm mən.

Sevincim boynuma dolanıb yaman,
Ürəyim uçunur, aman, ay aman,
Qarşımda durammaz nə çən, nə duman,
Bir vüsal yolunun ürəyiyəm mən.

Ömrümə - günümə yazın bu günü,
Yuxumu bilmirəm yozun bu günü,
Qoymayın siz allah, azım bu günü,
Kövrələn bir qəlbin gərəyiyəm mən.

## GECƏ SƏSSİZ, MƏN TƏNHA

Gözüm yol çəkir elə,
Ürəyim səksəkədə.
Səbrim çəkilib telə,
Qırılacaq bəlkə də.

Səssizliyin içində,
Qulağım batır mənim.
Bu gecəm qəm biçimli,
Bacarsan, yatırt məni.

Pozulub rahatlığım,
Ərşə çəkilib yuxum.
Gecə səssiz, mən tənha,
Yoxluğun mənim qorxum.

## NƏ YAXŞI Kİ, BELƏSƏN

Həyatım, varım, gözüm,
Tən yarım, mənim özüm,
Canım, sənədi sözüm,
Axı niyə beləsən?

Ömrümün nur işığı,
Könlümün yaraşığı,
Küsüm, yoxsa barışım,
Axı, niyə beləsən?

Sənə qurban bu canım,
Səni kimdən bac alım,
Qoyma enim, alçalım,
Axı, niyə beləsən?

Dilimdə şirin sözüm,
Eşqinə necə dözüm,
Bilmək istəsən düzün,
Ürəyimi dinlə sən.
Nə yaxşı ki, beləsən.
        Nə yaxşı ki, beləsən.

## UCUZLUĞA ÇATMIŞAM

İşə bir bax, ümman idim, kiçildim,
İnan gülüm, qəm oduyla biçildim,
Heç bilmirəm mənmi seçdim, seçildim,
Suçum böyük, bir günaha batmışam.

Öz - özümlə bacarmıram neyləyim,
Qəribsəyib arzularım, diləyim,
Necə edim, ötən ömrü əyləyim,
Bu ömrümə mən bir haram qatmışam.

Ürəyimdə yer eylədin özünə,
Əzab dolu bu bəlaya sözün nə?
Odu qoyub mən oynadım közüynən,
Aman allah, ucuzluğa çatmışam.

## KÖNÜL GƏRƏKDİ

Sənsiz, sənsizləşib ürəyim yaman,
Sənsiz yetimləşib, kövrək olmuşam.
Özüm öz odumla odlanan, yanan,
Sənsiz göz yaşımla dolan olmuşam.

Dünyam gözlərimdə qaralıb nədi?
Aldığım hava da, o hava deyil.
Ay nədi, qəribəm bir qərinədi,
Günüm ilə dönüb, davamı deyir.

Mən qərib, təklənib ürəyim burda,
Hayıma hay verən könül gərəkdi.
Nə əlim, nə ünüm çatammır yurda,
Mənə həyan verən könül gərəkdi.

**QAN DAMAR**

Məhəbbətli günlərimin qoxusu,
Şirin - şəkər anlarımın qorxusu,
Gəncliyimin yuxusuymuş yuxusu,
Hər anında alov da var, od da var.

Nələr gəldi, nələr keçdi ay aman,
O günlərin mən başına dolannam,
Məni qoyma bu yaşımda allanam,
Sehir dolu bir dünyalıq yol da var.

Xəyallarım qayğı dolu beşikmiş,
Demə könül, bu qayğıdan bezikmiş,
Cavanlığım, coşğunluğum gecikmiş,
Yolum yarı, gözlərimdən qan damar.

**BU YOLLAR, YORUBDU MƏNİ**

İlahi, bu yollar yorubdu məni,
Bir ümid gəzirəm illər boyunca.
Dərdim yaman dərddi, alıb səbrimi,
Bilmirəm zamanmı, mənmi oyuncaq.

Ömrümün yazısı qarma - qarışıq,
Özüm də çaşmışam, bilmirəm nədən.
Bu günə nə deyim, necə barışım,
Ağarmış saçımın qara dəni də.

Bu bahar, ömrümün qırovuna bax,
Bir ürək gəzirəm, könül oxşasın.

Bu yollar ömrümün ağır karvanı,
Bir qərib göstərin mənə oxşasın.

## BU DA BELƏ GÖRÜŞDÜ

Sevincim mənim oldu,
Düşmənim, qəmim oldu,
Bir vüsal dəmi oldu,
Bu da belə görüşdü.

Hər izi bilən oldum,
Dağ aşıb gələn oldum,
Dərdimə gülən oldum,
Bu da belə gülüşdü.

Vüsal verdi əlini,
Həsrət bükdü belini,
Ömrün ağ yelkənimi?
Axır gəldi, görüşdü.

## DÜNYAM PƏRƏN – PƏRƏN

Bu gün pərişanam, əhvalım dönüb,
Taleyin amansız anına bir bax.
Varlığım dil açıb, savaşa hazır,
Dünyam pərən - pərən oduna bir bax.

Neyləyim çətindi bu həyat mənə,
Əlimə əl verib, həyan duran yox.
Mən yetim, bu dünyam ögeydi mənə,
Neyləyim, qəlbimi görüb duyan yox.

Qalmışam od ilə su arasında,
Ömrümü verdiyim, üzümə durur.
Könül qaysaqlanıb öz yarasında,
Bu da bir bəladı, bu da bir qürur.

## DÜNYAM SUSUB

Könül, yenə halın yaman dönübdü,
Ürəyinnən nələr keçir, bilən yox.

Söz aləmin, könül dünyan sönübdü,
Harayına əl uzadıb, gələn yox.

Göz önündə xatirələr bükümü,
Ömür çəkir keçən günün yükünü,
Ötən günlər, xoş günlərin köçümü?
İtiyini arayan yox, görən yox.

Yer də mənə, göy də mənə dar gəlir,
Duman çökür, qırov qonur, qar gəlir,
Qınamayın, dinmək mənə ar gəlir,
Dünyam susub, dindirən yox, dinən yox.

## HARAYIMA ÇATAN YOX

Ürəyimin dili yoxdu dillənə,
Ürəyimə bir dil verən gərəkdi.
Məhəbbətlə sığallana, tellənə,
Aydınlığa nə çən, duman gərəkdi.

Gözlərimdə həsrətimin düyünü,
Bu yollarda göz görəsi susan mən.
Qoyun məni bu həsrətlə öyünüm,
Hər addımda öz - özümü busan mən.

Dodağımdan gülüş itib elə bil,
Gecələrin yuxusunu qatan kim.
Gəl ki, gülüm, gəl könlümü sevindir,
Sən olmasan, harayıma çatan kim.

## SƏNSİZ, SƏNLİ OLDUM

Qəlbimin qonağı yenidən oldun,
Könlümü ağrıdan yeni dən oldun,
Özümü özümə yönəldən oldun,
Sənsiz sənli oldum, ay ömrüm – günüm

Qismətin tuşlanan daşına bir bax,
Gör nələr gəlibdi başıma, bir bax,
Taleyin acılı yaşına bir bax,
Sənsiz sənli oldum, ay ömrüm – günüm.

Hər keçən anımda dünyam var mənim,
Aləmə səs salan çarım var mənim,
Kimsəyə sirr olan yarım var mənim,
Sənsiz sənli oldum, ay ömrüm - günüm.

## ÇİÇƏKLƏR

Masamın üstündə çiçəklərə bax,
Məxmərdən don geyib, ləçəklərə bax,
Hərəsi bir gözəl, göyçəklərə bax,
Düşmüşəm güllərin əlvan mehrinə.

Ay allah, nə rənglər, bihuş olası,
Gəlin, güldən quraq eşqin qalasın,
Vallah sağalacaq illər yarası,
Hər çiçək bir məlhəm, görən sehri nə?

Təbiət yamanca sınayır məni,
Yoxsa gül - çiçək də qınayır məni,
Gör necə hər yana yayır ətrini,
Ay aman, hər biri lap həzin nəğmə,
Eləcə deyirlər getmə, tələsmə.

## QƏRİBSƏMƏ KÖNÜL

Bu gün qəribsəmiş qonaq kimiyəm,
Bu gün heç bilmirəm, halım nə haldı?
Bu gün gəmiləri batmış kimiyəm,
Sevincim, fərəhim dünəndə qaldı.

Baxıram, dörd yanım yam - yaşıl dünya,
Mənsə təklənmişəm bəxti kəm kimi.
Əlvanlıq içində alışır dünyam,
Döyünür qəlbimdə nəğmələr kimi.

Hər sözüm, hər kəlməm kövrək bir çiçək,
Qorxuram toxunam ləçəklərinə.
Yox, onlar həyatım, yox ölməyəcək,
Hər nəğməm bənzəyir dağ çiçəyinə.

## NƏ YAXŞI Kİ, TƏK QALMIŞAM

Aman allah, nə yaxşı ki, təklənmişəm,
Bu dünyadan uzaqlaşıb, gizlənmişəm.
Bir özüməm, bir otağım, bir ilhamım,
Göylərdəyəm, pərvazlanır ruhum, halım.

Nə yaxşı ki, nə yaxşı ki, tək qalmışam
Ulduzlara qonaq olub,
xəyallara mən dalmışam.
Hər ulduzun öz adı var.
Anam, bacım, qəlb sirdaşım.
Gümüş - gümüş ulduzlara qoy qarışım,
qoy qarışım.

## TƏKİ GƏL, GÖZLƏRƏM

Sən mənim gözümün nur çeşməsisən,
Sən mənim ruhumun qaynar bulağı.
Nə yaxşı ömrümə geçikməmisən,
Səninlə açıram hər gün sabahı.

Sənə yaxın da mən, uzaq da mənəm,
Yoxsan, qəribləşib yetim oluram.
Sənsiz fağır da mən, yazıq da mənəm,
Təki gəl, gözlərəm, mən yorulmuram.

## DUY MƏNİ BİR AZ

Səninlə dil tapıb, danışmaq çətin,
Yoxsa öz dünyan var, qarışmaq çətin,
Küsməyə nə var ki, barışmaq çətin,
İncitmə qəlbimi, duy məni bir az.

Bir sözün sədd çəkdi könlümə canım,
Bir kəlmən yamanca üşütdü məni.
Nərgizli, laləli dağlar qoynundan,
Soyut baxışların düşürtdü məni.

Sözüm yox, nə deyim, bilmirəm daha,
Bir ılıq nəfəsə qalıb gümanım.
Doğmalıq yox olub, bahadan - baha,
Od olub yandırır, ahım - amanım.

## GƏL DOĞULAQ YENİDƏN

Bilirsən istəyim nə?
bilirsən sözüm nədi?
Gəl bir şəkil çəkdirək.
Yanaşı, özümlə bir.
Baxaq bir - birimizə.
Sonra ataq onları,
Ataq lap uzaqlara.
Vallah, ataq dənizə.
Qoy sularda yuyulsun.
Günahımız varsa da
Yavaş - yavaş durulsun.
Nə sən dillən,
nə də mən.
Ay gözüm, canım mənim.
Gəl doğulaq yenidən.

## SƏNNƏN İNCİMİŞƏM

Sənnən incimişəm, sənnən küsmüşəm,
Sənsiz bir aləmə yenə düşmüşəm,
Dağ aşıb, düzlərlə mən görüşmüşəm,
Eh . . .sirli - sehirli dünyam var mənim.

Kövrək nəğmələrim, yoxsa həmdəmim,
Qəlbimdə bir yanğı, dilimdə qəmim,
Yenə həzin - həzin dinər «Dilqəmi»,
Nə yaxşı, nə yaxşı duyan var məni.

Nə deyim, yox daha, deməyə sözüm,
Bəlkə günahkarı özüməm, özüm,
Yolunu azıbdı gecəm, gündüzüm,
Gözümdə bir çimir yuxum var mənim.

## DEMƏRƏM DANA

Nə dillən, nə danış, demərəm daha,
Susmağın yamanca ürəyindəndi.
Bəs mənə ruhunu verməsən canım,
Görəsən istəyin, diləyin nədi?

Qorxuram bu illər soyuda bizi,
Sakitcə ayrılaq, hərə bir yana.
Lal haray bürüyə qəlblərimizi,
Eləcə odlana, eləcə yana.

Nə deyim, demərəm, demərəm vallah,
Qarşımda nə danış, nə dillən, nə din
Sən məni anlasan, duysan bir daha,
Bütün varlığımla qəlbim sənindi.

## YOLLAR YORĞUNU

İçimdə öz dünyam dağılıb nədi?
Nə yerdə, nə göydə qərar tutmuram.
Yoxluğum elə bil bir qərinədi,
Nələri, nələri mən unutmuram.

Demirəm səninlə asandı mənə,
Sən çətin adamsan, mən səndən betər.
Qazancım yol açmaq susan qəlbinə,
Vallah, belə getsə sözümüz bitər.

Sən mənə yaxınsan, mən sənə uzaq,
Canım, susmağınnan duyuram bunu.
Bu da bir oyundu, qoyma uduzaq,
Ömrümüz bu yolda yollar yorğunu.

## BU GECƏ

Bu gecəm nağıllı, bu gecəm sirli,
Bu gecə nələri açacaq mənə.
Bu gecə yuxuya qənim kəsilləm,
Ulduzlar falıma baxacaq demə.

Bu gecə ümidim göylərə qalıb,
Əlimi açmışam, əlimdə xətlər,
Ruhumu, könlümü gör necə alıb,
Eh . . . nələr söyləyir bu xətlər, nələr.

Tanrımın çəkdiyi xətdi əlimdə,
Taleyin, qismətin qədərinə bax.
Başı yalovludu, gözü əlimdə,
Ulduzlar boylanır, kədərinə bax.

Bu gecəm nağıllı, bu gecəm sirli,
Bu gecəm nələri açacaq mənə.
Bu gecə yuxuya qənim kəsilləm,
Ulduzlar falıma baxacaq demə.

## KİMSƏYƏ ƏL AÇMIRAM

Bu hal nə haldı belə,
Qıfılbəndin açmıram.
Ömür belə, gün belə,
Qismətimnən qaçmıram.

Gözüm - gözünə baxır,
Üzüm - üzünə yaxın,
Bu nə bəladı axı,
Özüm də baş açmıram.

Dumana çənə düşdüm,
Yol azıb, çinə düşdüm,
Dərya içinə düşdüm,
Gün ki, olub saçmıram.

Bu fələyə sözüm yox,
Öz yanımda üzüm yox,
Dözümlüyəm, dozüm çox,
Kimsəyə əl açmıram.

## BU SOYUQLUQ

Bu soyuqluq ev - eşiyi üşüdür,
Arzuların qanadından düşürür,

Gecə yarı, pəncərədən ay düşür,
Üşünürəm, sığal çəkir qorxuma.

Könlüm istər söhbətini sözünü,
Könlüm istər, o günlərin özünü,
Səni anıb, yumacağam gözümü,
Görən nələr gələcəkdi yuxuma.

Bu ocağın istisi yox, gözü yox,
Bu ocağın od götürən gözü yox,
Eh nə var ki, insanlığın özü yox,
Həyat verə, bir eşq verə ruhuma.

## HANI BİR BAXICI, BAXTIMA BAXA

Canım, gözlərinin qarasındayam,
Vallah, ürəyinin arasındayam,
Ay aman, ömrümün yarısındayam,
Bu günlər yamanca get ha - getdədi.

Canımın canını almısan daha,
Hanı bir baxıcı, baxtıma baxa?
Yoxsa haqq kəlməsi, bahadan - baha,
Düz sözüm yol azıb, uzaq getmədi.

Nə deyim, bir heçəm vallah gözümdə,
Elə bil bezmişəm özüm - özümdən,
Məndən yan dolanır kövrək sözüm də,
Nəğmələr könlümdə dinib - ötmədi.

## BAŞQALAŞMIŞAM

Sən mənim ömrümə bir bəla gəldin,
Sən mənim ömrümün hirs dağarcığı.
Ağrılar, acılar getsin gəlməsin,
Bu həsrət yanğısı saç ağardacaq.

Gəl canım, ayrılaq, ayrılaq daha,
Bu qədər sıxıntı nəyə lazımdı.
Dilbilməz əlində qalıbdı yaxam,
Qarışıq dünyada itib, azımmı?

Məni heç duymadın, günahım nədi?
Suallar bir yığın, çaşıb qalmışam.
Hanı o təmkinim, hanı o qürur,
Yoxsa mən də dönüb, başqalaşmışam.

## GÖZLƏYƏCƏYƏM

Bilmirəm sən yoxsan, mənmi itmişəm,
Getdiyin yollara duman - çən düşüb.
O vüsal günləri, könül nəğməsi,
Vallah, aramızdan yaman gen düşüb.

İtmisən ömrümnən səssiz, səmirsiz,
Səssizlik harayı bağrımı yarır.
Gəzirsən hardasa, məndən, xəbərsiz,
Qəlbim soraqlayır, könlüm arayır.

Nə deyim, ay allah, qalmışam belə,
Sənsiz bu dünyaya yadam, ögeyəm.
Səbrimi toplayıb, almışam ələ,
Canım, təkcə səni gözləyəcəyəm.

## YOL ÜSTƏDİ, TƏKƏRİ YOX

Bu dünyadan qaçasıyam,
O dünyadan xəbərim yox.
Dar yolların yolçusuyam,
Piyadayam, kəhərim yox.

Ömür elə, gün belədi,
Bu ömürdən nə dilədim,
İllər ötdü, heç bilmədim,
Gecəm yorğun, təhəri yox.

Qocaların gözü yolda,
Gah bu tayda, gah o tayda,
Dərd olarmı heç bu boyda,
Bağlar solub, bəhəri yox.

Ellər itib ilim - ilim,
El yanında qısa dilim,
Dilimlənib dilim - dilim,
Qız qəmzəli Həkərim yox.

Ulduz - ulduz gecəm sönüb,
Bu fələyin üzü dönüb,
Dünyam çaşıb, çərxi dönüb,
Yol üstədi, təkəri yox.

# POEMALAR

## ATAMI YADA SALDIM
(Qardaşım Fuada ithaf edirəm)

Bu gün qəm yükünü atıb çiynimdən,
Elə qanadlanıb, uçmaq istərəm.
Atamın ruhuyla, təkbətək qalıb,
Sirli mətləbləri açmaq istərəm.

Ruhun rahat olsun ata, ay ata,
dərin niskilinin sonudu bu gün.
Qəbrin nurla dolsun ata, ay ata,
Sonbeşik oğlunun toyudu bu gün.

Xeyir - dua verdim, ata əvəzi,
- Dedim çıxma qardaş, böyük sözündən
Gözləri yaşardı,
yandı nəfəsim,
Öpdüm qardaşımın sənli gözündən.

Bilsəydin ay ata, nələr çəkmişəm,
Yanında özümü günahkar bilib.
Ağ günün içində zillət çəkmişəm,
İstəyim gah ölüb, gah da dirilib.

Gah elə, gah belə düşünmüşəm mən,
Gözləməm, bir qardaş gözləməsəydi.
İllərlə dərdimlə üşünmüşəm mən,
Bu illər dərdimin son zirvəsiydi.

Sənin məzarına gəlirdik ata,
Bir bacım, bir özüm, bir də dərdimiz.
Ağrını, acını bölürdük ata,
Eləcə yanırdı ürəklərimiz.

Yanında günahkar, səssiz, səmirsiz,
Başımız axırdı, çiynimiz üstə.
Elə bil deyirdin - nəsə bilirsiz?
Bir kölgə görürdük əksinin üstə.

Beləcə ötürdü illər, fəsillər,
Yayı da, qışı da yola verirdik.
Dünyaya sığammaz dərya dərdlilər,
Nələr arayırdıq, nələr görürdük.

Çoxu üzdü əlini, ata, sonbeşiyindən,
Dedilər, dustaqdı o, yatasıdı, yatası.
Qohum - qardaş azaldı, dolu ev - eşiyindən,
Dedilər, o qalada batasıdı, batası.

Ürəyimin təpəri, dərdimə üstün gəldi,
Kimsəyə bildirmədim, nələr çəkir, çəkirəm.
Xəlvəti alovlandım, gizlicə tüstüləndim,
Bilən olmadı ata, qəm səpib, dərd əkirəm.

Qıyammadıq bir kəsə, dərdimizi, ay ata,
Bacım mənə təsəlli, mən bacıma təsəlli.
Ağlayanda ağladıq, sərimizi ay ata,
Qubarımız yoxluğun,
adın, sanın təsəlli.

Sənsiz olmamışam mən, bircə anı, bir günü,
Qəlbinin döyüntüsü, ürəyimdə döyünüb.
Sənli olan günlərim, yaddaşıma kök salıb,
Mənim dünyam, varlığım, sənsiz sənlə öyünüb.

Bacı deyərdin mənə, öpərdin, əzizlərdin,
Bilsəydinki, nə qədər, sevinərdim bu sözdən.
Ürəyinin ağrısın deməzdin, gizlədərdin,
Duyurdum ağrıları, qayğı dolu o gözdən.

Bap - balaca evimiz, bir gün qara boyandı,
Bircə göz qırpımında, ürəyin necə susdu.
Qara gün baş qaldırıb, yer rahladı, o yandı,
Bizi addımba addım, qaraladı, hey busdu.

Bax, o gündən, bir kəlmən, həkk olundu ömrümə
Bacı dedin, ay ata, bacın oldum mən, bacın.
Ağbirçəklik, ahıllıq düşdü cavan ömrümə,
Oda döndüm mən, oda, közərməsin ocağın.

Bir gün yuxuma girdin, üzü gülər, gülümsər,
Əl uzatdım boynuna, əlim çatmadı ata.
- Dedin, ay oğul balam bu nə qəmdi, gülümsə,
Güldüm, eləcə güldüm, səni aldatdım ata.

Bax o gündən, yuxumnan çəkilmisən, itmisən,
Duydummu gülüşümdə, ümman göz yaşlarımı.
Gözüm vüsala həsrət, çən - çisəkdə itmisən,
Xoş günün üzü dönüb, çatıbdı qaşlarını.

Bax eləcə son qoydum, qayğısız anlarıma,
Qardaş dərdi ömürdə cığırım, izim oldu.
Qol - qanadım qırıldı, göz dikdim yollarına,
Bu dərd dünyanın deyil, ay ata, bizim oldu.

Gah dindim, gah danışdım,
Yer tapmadım özümə.
Dağ dərdimlə yarışdım,
Arxalandım sözümə.

Ürəyimdə neçə niskil, neçə söz,
Oğul lazım, ata yurdu qızına.
Həyət - baca, mənə baxır könülsüz,
Soyuqluqdan qəlbim necə qızına.

Səs - səmir yox, ocaq sönüb, küllənib,
Tikan - qanqal, küyə düşüb, küllənib,
Həsrət məni elə əyib, yellənib,
Dərdim dərddi, ya çox ola, az ola.

Ata gözlü ev - eşiyim bəs hanı?
Oğul deyən, gəlin deyən kəs hanı?

Bizi belə, ayrı salan nəs hanı?
Taleyimə göz yaşı tək yazıla.

Naqq arayan, haqq işlərə göz qoyur,
Bu həyatdan nə usanır, nə doyur,
Oradakı əziz atam uyuyur,
Məzarım da elə yerdə qazıla.

Bax beləcə dedim, dindim, çağırdım,
Bayatıda düzüm - düzüm düzüldüm.
Bir yetimlik, bir qəriblik ağırdı.
Bu yoxluqdan üzüm - üzüm, üzüldüm.

Nə çal - çağır, nə toy - düyün gözümdə,
Bu illərin axarında çaşmışam.
Qan damırdı qardaş deyən sözümdən,
Həsrətimlə köpüklənib daşmışam.

Bu yol uzun, bu yol məni apardı,
Bu yolların yolçusuyam, yolçusu.
Bu yol yoxsa möhnət yüklü qatardı,
Səbr et könül, qoyma dünyam uçulsun.

Car çəkərdim, yerə - göyə atam var,
Evimizin günəşiydim, oduydum.
Mən atalı bəxtəvərdim o vaxtlar,
Çox çəkmədi, qəm odunu nə duydum.

O sevincim, o harayım; o ünüm,
Çox çəkmədi, ovum - ovum ovuldum.
Yada salıb keçənləri ay ata,
Xatirələr dumanında boğuldum.

Aylar keçdi, illər məni haqladı,
Cavanlığın daşı düşdü əlimdən.
Haqqı gəzdim, haqsız məni haqladı,
Kömək umdum, əl götürdü əlimdən.

Nələri, nələri yadıma salım,
Olub - keçənlərim qayıda bilsin.
Bu yollar üstündən elə yol salın,
Atalı günlərim qayıdıb, gəlsin..

Yenə bacı desin, yenə sevinim,
Yenə qulluğunda durub, durulum.
Yenə sığallanım, yenə sevilim,
Baxıb o günlərə, bir də vurulum.

Bu da bir imtahan, bu da çəkişmə,
Ağrıyla, acıyla üz - üzə gəldik.
Vurulduq, yıxıldıq əyilmədik heç,
Namərdə yol verib, diz - dizə gəldik.

Bu namərd dünyada, mərd olduq ata,
Döyüşdük, bərkidik bu keşməkeşdə.
Xəbis ürəklərdən qovrulduq ata,
Cəhənnəm odunu, gəlib keçdik də.

Aydınlıq içində doğub səhərim,
Daha keçmiş ola, keçən günlərim.
Dil açıb, dillənir, bu xoş anımda,
Şirin arzularım, şirin ünlərim.

Bu gün xınalanıb ürəklərimiz,
Bacılı, qardaşlı yallı gedirik.
Bu gün bir çeşnidə diləklərimiz,
Bu gün bir sevinib, şadlıq edirik.

Xeyir - duan gərək, ay ata bu gün,
Ruhundu bizimlə durub yanaşı.
Bu gün uşaqlaşıb, yol gözləyirəm,
Can ata, canımın əzəl sirdaşı!

## NATALYA

Natalya
        Çiçək qadın.
Bir dahinin adıyla
Qoşa çəkilir adın.
Adın neçə alimin
                dilində, dodağında,
Neçə axtarışçının,
                ünündə, sorağında.

Neçə kitabda şəklin,
gül camalın,
gül üzün,
gül ayağın,
gül əlin.
Gözəllik!
Bu dünyada
o nə böyük səadət.
Gözəllik bəxş edibdir
insana da,
quşa da,
ağaca da təbiət.
Daş da gözəl gərəkdir.
Şəklini seyr edirəm,
Necə də qəribəsən.
Sən bu gözəlliyinlə,
Puşkinin ürəyini
Fəth edən sərkərdəsən!
Bir dünya fəth etməkdən,
Bir şair ürəyini
fəth etmək
daha çətin.
Qarlı zirvələr belə,
qarşısında diz çökür
təbii gözəlliyin,
təbii məhəbbətin.
Natalya Rus elinin gözəl qızı,
gəlini.
Sən gəzəndə elə bil,
Gül - çiçək bəzəyirdi
Nevanın sahilini.
Çırpınan ləpələrdə
Sorğulu baxışların
süzülərdi,
axardı.
Təkcə ağalar deyil,
Boyuna, buxununa
Yelpazəli xanımlar,
Oğrun - oğrun qanrılıb,
Həsrət - həsrət baxardı.

Sən bu cah - cəlalınla
Gərək duya biləydin.
O ölməz sənətkarın
hissini,
duyğusunu.
Eşqini,
əməlini.
Gərək duya biləydin,
Çılğın təbiətini.
Sözünü, söhbətini.
Sən onu əzizləyib,
Sən qoruya biləydin.
Sənətkar dünyasına
qismət olmayır hər kəs.
Hansı oyun,
hansı rəqs,
hansı şirin əyləncə.
Şair təşəkkürünü
həyatda əvəz edər.
Sən qoruya bilərdin,
Duya, duya bilərdin
Qoymazdın saçlarına
Elə vaxtsız dən düşə.
Bir yaramaz önündə,
Elə amansız gündə
Böyrü üstə sərilib
Kəmər belindən qaça,
Silah əlindən düşə.
Böyük rus torpağının,
Oğlunun, uşağının,
Saçına qırov qona,
Baxışına çən düşə.
Ölüm verə hökmünü,
Jukovski iki qat
Köks ötürüb qarşıda dayana,
yana - yana.
Lermantov alovlana.
Bir açılan gülləylə
Rusiya səmasının
Sönməz günəşi söndü.
Cənubda Səbuhinin

dərdi dəryaya döndü.
Sən qoruya bilərdin,
Yuxusuz anlarında
Ona dinclik dilərdin.
Çox ağrını, acını
şirin nəvazişinlə
sakit - sakit
silərdin.
O yenə nələr yazar,
yenə nələr qoşardı.
Qaynayardı, coşardı.
Səsi yenə ötərdi . . .
Dünyaya neçə - neçə
oğul gəlir, qız gəlir.
Beləlləri az gəlir.
Axı, böyük insana
həyat yoldaşı olmaq
hər kəsə qismət deyil.
O istək, o məhəbbət,
adi məhəbbət deyil.
Biz dözməsək, kim dözər
yaradan kimsələrin
Cövrünə, cəfasına.
Nə çatar yer üzündə
Bir qadın dözümünə,
Bir qadın vəfasına.
Hər doğulan qadınla
Vəfa, dözüm, sədaqət,
Ekiz doğulmalıdır.
hər dahi həyatına,
Yer üzündə bir qadın
Cavabdeh olmalıdır.

**KÖNÜL**

(Xalçaçı qız
Könül Şükürovaya)

O qəribə yoluymuş,
Uzunu, kəsəsi var.
Dəli - dolu yoluymuş,
Kükrəyib, əsməsi var.

Bu təzə yolla, təzə
Sorağa gedirəm mən.
Könüllər ovçusuyam,
Xoş səfər edirəm mən.

Bu cığır, qarlı cığır,
Bu cığır kənd boyunca.
Qarı nübarlı cığır,
Baxım sənə doyunca.

Bələdçim «Baba» dağı,
Gedəcəyim Naburdu.
Nəğmələr sətir - sətir,
Bu səfərdə duruldu.

Nabur dağlar qoynunda,
Qürurlu, əzəmətli.
Ağbirçəyi, cavanı,
Şirin sözlü, söhbətli.

«Piraad», «Çillik» dağı,
Döşü çəndə, çisəkdə.
Dağlar kənddən yuxarı,
Nabur kəndi çökəkdə.

Sorağına gəlmişəm,
Xalçaçı qız, xalçaçı.
Gəl dadıma çat mənim,
Aç bu yolu, yamacı.

Dağlar yaman dağlardı,
Dağlar məni üşütdü.
Cavanlığın tərkindən,
Bircə anda düşürtdü.

Səsimə səs verdi,
Qız, gəlin, hamı.
- Dedilər, bacarsan
Könülü tanı.

Başında şalı zərri,
Belində gümüş kəmər.
Gözümə dəymir könül,
Dəysə, dinər nəğmələr.

Bir qız düşüb qabağa,
- Dedi, bacı gəlsənə.
Könül lazım qonağa,
- Ay qız, Könül, dinsənə.

Könül öz aləmində,
Könül eşitmir bizi.
Yaratdığı bu aləm,
İsidir qəlbimizi.

Əllərinə baxıram,
Ehtiramla, fərəhlə.
Bu əllər neçə rəngi,
Quş tək gətirər dilə.

Bu əllər adi deyil,
Möcüzədi, möcüzə.
Bu əllər gecələri,
Qatar günə - gündüzə.

Könül al - əlvan dünya,
Dünya sirli - sehirli.
Fərəhlən, sevin dünya,
Könül özü sehirdi.

Təbiətdən pay almış,
Təbii gözəlliyi.
Bircə həyat eşqidi,
həyatdan gözlədiyi.

Bir az kövrək, utancaq,
Hər kəlməsi astaca.
Baxıram, baxışları,
Tapmacadı. Tapmaca.

Könül hana üstündə,
Gözləməsi toy - düyün.
Barmaqlara heyranam,
İlməsi düşməz düyün.

Hər rəngin öz nəğməsi,
Hər rəngin öz dili var,
Nəğmələri al - əlvan,
Öz sehri, öz sirri var.

- A bacım, işin avand,
Uğurlu olsun günün,
Qonağınam mən sənin,
Mənimlə ol, sən bu gün.

Könül əlində həvə,
Könül çaşdı elə bil.
Nəzər salıb ətrafa,
Dil dolaşdı elə bil.

- Xoş gəlmisiz bu yurda,
Qonaq əzizimizdi,
Çəkinməyin, əyləşin,
Bu ev, öz evinizdi.

Harayladı anasın
- Ağrın alım, ay ana,
Şəhərdən qonaq gəlib,
Təndirə od salsana.

- Qonağına qurbanam,
A bala xoş gəlibdi.
Qışın oğlan çağında,
Bizi doğma bilibdi.

Döşəkçələr düzüldü,
Təzə süfrə salındı.
Pürrəng çaylar süzüldü,
Könül nəsə, dalğındı.

Gözlərinin önündə,
Əlvan dünya açılır.
Naxışlar qövsi - qüzeh,
Günəş kimi saçılır.

Gözlərində min qayğı,
Ürəyində məhəbbət.
Hanasıdı dayağı,
Ona doğma, həmsöhbət.

İzləyirəm gözləri,
Gözlər nələr danışır.
Dildə donur sözlərim,
Rənglər, rəngə qarışır.

«Qollu göl», «Buynuzlu göl»,
«Nigar gölü» naxışı.
«Şıx zərli», «Çırtmalı göl»,
Bir gözəlin baxışı.

Bax bunları oxudum,
Könülün gözlərindən.
Əlvan xəli toxudum,
Nəğməli sözlərindən.

- Ay Könül, hanan hanı?
Məni tanış etsənə.
Hana üstə ay bacım,
Rəngləri dindirsənə.

Könül inamla dolu,
Gəlir hana başına.
Əllər hana üstündə,
Dönür yaz yağışına.

Nəsə yadına düşür,
Dayanıb fikrə dalır.
Kiminləsə görüşür,
Baxışları hay salır.

- A Səbzi, ay pir olmuş,
Ay anamın gəlini.
Hanam yoluna düşmür,
Bir çəksənə əlini.

Səbzi haya bəndimiş,
Səbzi dağ çiçəyidi.
Bu evin tək gəlini,
Naburun göyçəyidi.

- Gəlin, a nazlı gəlin,
Səsi avazlı gəlin.
Uğur dilə işimə,
A dadlı, duzlu gəlin.

Könül yoluna düşur,
Könul axtarışdadı.
Könül öz aləmində,
Rənglərlə yarışdadı.

- Qırmızı, dağ laləsi,
Yaşıl, çəmənlik meşə.
Qızılı, günəşimdi,
Gəlin, başlayaq işə.

Bax beləcə nəğmələr,
Dilə gəlir əlində.
Zilə dönür nəğmələr,
Müqəddəs əməlində.

Bu da belə ömürdü,
Əlvalığın içində.
Hər naxşın öz görkəmi
Hərəsi bir biçimdə.

Könül hana başında,
Könül möcüzə qurur.
Könül dağlar başında,
Dağla yanaşı durur.

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz ....................................................................3
Qəm adlı dünyanı almışam yoxsa..........................................5
Bəlkə onda.............................................................5
Gözüm baxır kor olmağa...............................................6
İnsaf ver, allah .........................................................7
Qırmızı qərənfil.........................................................7
Yatmışdım ayılmışam ...................................................8
Ulduzlar yerə enib.......................................................9
Ay ellər....................................................................9
Nəyimə gərəkdi..........................................................9
Könlüm susub...........................................................10
Neyləyim .................................................................10
Yaman dəydin daşa sən................................................11
Halal olsun hey .........................................................11
Könül yaman susub.....................................................12
Uzaqlardan gəlmişəm...................................................12
Mən də yol gedirəm.....................................................13
Bu dünya düzəlsə hey .................................................13
Şükür bu günə. .........................................................13
Xocalım hey ..............................................................14
Yalan cevlan eyləyir ...................................................14
«Mən» dən dönürəm.....................................................15
Dünyam ...................................................................16
Sözümü deməliyəm .....................................................16
Allah, qoru...............................................................17
Qəribəyəm ...............................................................17
Haqqın dili kəsilir ......................................................18
Seçəsiyəm - seçəsi.......................................................19
Həsrətin daşını tökmüşük daha.......................................19
Neyləyim..................................................................19
Varlı həyətin qarnı tox itləri...........................................20
Tərsə düşüb işlərim ......................................................21
Məni məndən alan dünya................................................22
Oralıyam, oralı ..........................................................22
Ağlaram....................................................................23
Yoxsa .....................................................................23
Kamran balam............................................................24

Bu dünya……………………………………………………...............24
Duyqularım………………………………………………….............25
Alatau dağları………………………………………………..............26
İnsan oğlu……………………………………………....................26
Sözüm qalmayıb……………………………………….…..............26
Odam, sönmərəm………………………………………..…............27
Yanan da sən, yaman da sən………………………………...........27
Talandı…………………………………………………….…............29
Ötən ötdü…………………………………………………….............29
Ucu kələfli dünya……………………………………………...........30
Meydan mənimdi…………………………………………...............30
Anam, vay demə, vay demə……………………………….............31
Dərdim dərddi………………………………………………..…........31
Od var……………………………………………………………........32
Çatan deyil………………………………………………….……......33
Məhv edəydik …………………………………………….................33
Ayrılıqdan az danışın ………………………………………...........34
45 - min qatarları……………………………...…………….............34
Oğul verin……………………………………………….…...............36
Bu yollar ömrümün ağır karvanı…………………………….…......36
Ata lay-lay çalır……......…………………………………….…........37
Körpən səni gözləyir ……………………………………….............37
Sən yoxsan…………………………………………….....................38
Gələcək anam………………………………………….…................38
İncilər düzər……………………………………………..…...............39
Sözümdə…………………………………………………..................39
Yada qalır………………………………………………….................40
Duymayana nə deyim…………………………………….................40
Gəncliyim……………………………………………........................41
Mən insanam………………………………………….…..................41
Yaman olur…………………………………………….......................41
Olaydı…………………………………………………….....................42
Analar qocalanda………………………………………….................42
Taleh əllə qurulmur……………………………………….................43
Belə doğulmuşam……………………………………………...........43
Könlüm mənim ……………………………………………...............44
Öz - özümdən küsmüşəm……………………………………….......44
Mən buyam………………………………………….........................45
Kədər varmı çatası……………………………………………..........45
Nədənsə. ……………………………………………….…...............45
Analaşdı bu torpaq…………………………………….....................46

Ömür elə gödəkdir ki……………………………………………..............47
Bilmirəm……………………………………………………….........47
Qocalar…………………………………………… ……….........48
Taleyimə yazıla………………………………………….............48
İzi görünməz…………………………………...…………........49
Dəydi qəlbimə ………………………………………................49
İtən gənclik………………………………...….................50
Yol üstəyəm ……………………………………….................50
Elba çayı……………………………………......................51
Sorağındayam……………………………………….................52
Yenə payız havasına düşüb könül…………………................52
Nə yaxşı ki, varsınız dostlar…………………………..............53
Bu dünya, ulu dünya…………………………………..............53
Elə bil…………………………………………….................54
Kövrəlmişəm………………………………………...................54
Ömrə yaş istərəm……………………………………................55
Gör nə uzaq düşübdü…………………………………..............55
Ölməzliyə ucaldın ………………………………….................55
Gələr gedib ömürdən………………………………….............56
Ocaq başı…………………………………………...................56
Ya qismət ……………………………………………...................56
Ömürdən pay istəmə ………………………………...................57
Nəğməm, mənə həyan dur…………………………….................58
Mən nə deyim ……………………………………….................58
Səs verin, siz də……………………………………..............59
Qapını açın…………………………………………...................59
Beləcə doğulmuşam mən…………………………………............60
Qəm badəsin içən oldun ……………………………….................60
Baş dəydi…………………………………………...................61
Belə yazıb…………………………………………...................61
Daşlaşmışam ………………………………………...................62
Neyləyim……………………………………………....................63
Həyan dursun…………………………………………....................63
Məni qınamayın……………………………………….................63
Yanar odam mən……………………………………….............64
Dünəndə qaldı …………………………………………................64
Bir ağı, yüz qarası………………………………………..................65
Bayram axşamı……………………………………….................65
Bu nə gəliş, gedişdi…………………………………….................66
Mən gələndə ………………………………………….................66

Üzə bilmirəm..........67
Yazma ömrümə..........67
Ölümə məhkum olunanlar..........67
Qorxuram..........68
Meşə qəbristanlığı..........69
Soran oldu yaşımı..........70
Axar su, lilli olmaz..........70
İlahi, kömək ol, bu gecə..........70
Nələrə sədd çəkdim, nələrdən qaçdım..........71
Oğuldu oğlum..........71
Gözlərinə baxdım gülüm..........72
Mübarək..........72
Atam dedi..........73
Mənim oğlum..........73
Şair qardaşım Akif Səmədə..........73
Ürəklərdə qalanımsan, qalanım..........74
Məmməd Arazım..........75
Qonağıydım o yurdun..........75
Oğluma..........76
Ürəyim mənim..........76
Ay ana..........77
Könül qızım..........77
Nəvəm dil açıb..........78
Mehribanım..........78
Bayatılar..........79
Deyirlər..........83
Ustad Şəhriyara..........84
«Heydərbaba»..........84
Bu gündə..........86
İnsan..........86
Qoca misgər..........87
Deyil..........87
Körpü..........88
Türk qardaşıma..........88
Aşıq Pəri..........89
Səməd Vurğunum mənim..........89
Saraya bax..........90
Ağrılı dünyadan sovuşan mənəm..........91
Yeni il astanasında..........91
Yeni ilin mübarək..........91
Bəxtəvərəm mən necə..........92

Ömür payı……………………………………………………..................92
Bağda bir gecəm………………………………………………..........92
Ömrümün bir anı………………………………………………........93
Ötən ömür……………………………………………......................93
Nəsə itibdi...…………………………………………….....................94
Bu gecə…………………………………………….............................94
Sazlı-sözlü dünyam mənim…………………………….............95
Bu ocaqda qalansın ……………………………………..........95
Ömrün payızı……………………………………….........................96
İncilər düzər………………………………………….......................96
Sərt şilləyə dönüb külək …………………………..........96
Gəncliyim ……………………………………….......................97
Dünəndə qaldı……………………………………….......................98
Torpaqdadı qismətim …………………………….........98
Xoş gördük……………………………………………........................99
Hanı mənim hay verənim……………………………. .....99
Bağda……………………………………………..............................99
Yollar, yolum ol mənim……………………………...........100
Bu ilim……………………………………………...........................101
Meşədə. ……………………………………………........................101
Gecəm……………………………………………...........................102
Gəlmişəm………………………………………….........................102
Yeni il………………………………………….............................103
Mənim kəndim ………………………………………...........103
Vətənim mənim ……………………………………........104
Xəzərim, ay Xəzərim………………………………...........105
Durnalar……………………………………………......................105
Dağ kəndi……………………………………………......................106
Asta apar……………………………………………......................106
Qızıl zəmi - qızıl dəniz……………………………. ...108
Hünərdir. ……………………………………………......................108
Kəklik gördüm………………………………………….................109
Gözün aydın Qobustanım……………………………...109
Zəmilər biçiləndə………………………………………...........110
Sənlə-mən……………………………………………........................111
İlk sevgi……………………………………………..........................111
Payız gəlir ……………………………………………......................112
Yaraşır ……………………………………………............................113
Bahar gəlir elimə……………………………………….............113
Dağlar…………………………………………….............................113
Bağda mənzərə.......…………………………………...........114

Dalğalar ………………………………………………….................114
Daşa dönmüş Qobustanım………………………………….......115
Gecələr…………………………………………….........................116
Tələsməyək………………………………………….....................116
Varam mən …………………………………………….............117
Bir qoca yaşayır……………………………………………......117
Aşıq düşüb……………………………………………................119
Payızım……………………………………………........................120
Payız gəlir……………………………………………....................120
Bu gunüm ……………………………………………...............121
Çərşənbə axşamı …………………………………….............121
Gözəlliyə qarışım…………………………………….............121
Necədir……………………………………………..........................122
Kövrək qəlbim talan olar………………………………….. ...122
Qəlbim buz baltası………………………………………….. ...122
Bəxtəvərəm…………………………………………….................123
Ya var ol, ya yox ol……………………………………….. ...123
Nə sən günahkarsan, nə mən bilirəm…………………………….. ...124
Elə darıxmışam………………………………………….............124
Sənsizlik…………………………………………….........................124
Necə deyim…………………………………………….................125
Sənsən…………………………………………….............................125
Bu günüm. ……………………………………………................126
Qubar oldum……………………………………………..............126
Sevincə dön ……………………………………………................126
Fərəhim gedən gündən ……………………………………........127
Döz görək……………………………………………........................127
Gün aydın……………………………………………......................128
Daha incitmərəm səni ……………………………………........128
Gözəl……………………………………………..............................129
Qoyma bircə inciyim…………………………………….........129
Qoşa kölgə…………………………………………….....................129
Sən……………………………………………..................................130
O gündə……………………………………………..........................130
Bu gün görünməzəm……………………………………….......131
Deyirsən……………………………………………........................131
Səssizlik…………………………………………….........................132
Sənsiz……………………………………………................................132
Gözəl……………………………………………..................................133
Düşünürəm……………………………………………........................133
Qərarım kəsilib……………………………………….........................134

Taleyimlə üzbəüz, qismətimlə yanaşı……………….……..............134
Düşmüsən……………………………………...........................134
Günümə bax …………………………………...........................135
Məndən incimə …………………………..…….....................135
Dağım olar…………………………………….........................136
Gəlməsən……………………………………...........................136
Nə biləsən……………………………...….............................137
Döyün, ey ürəyim……………………………..……................137
Gəl ömrümə…………………………………….......................138
Bu dünyaya göz açannan ………………………..……….....138
Bağışla...……………………………………........................139
Pisəm, bilirəm……………………………………...................139
Harda qalmısan……………………………………..................139
Dözüm qalmayıb……………………………..........................140
Talan olar…………….....…………………………..................140
Özüm də bilmirəm………………………………….................141
Deyirsən şer yaz……………………………………..................141
Bu gün bəxtəvərəm ………………………………...................142
Gecə sənsiz, mən tənha……………………………..................142
Nə yaxşı ki, beləsən ………………………………….............142
Ucuzluğa çatmışam …………………………………..............143
Könül gərəkdi…………………………..……......................143
Qan damar…………………………..……............................144
Bu yollar, yorubdu məni……………………………….............144
Bu da belə görüşdü ………………………….….……..........145
Dunyam pərən - pərən ……………………………..………........145
Dünyam susub…………………………………..…...................145
Harayıma çatan kim……………………………….…..............146
Sənsiz, sənli oldum...……………………………..………......146
Çiçəklər…………………………..……................................147
Qəribsəmə könül…………………..…..…...........................147
Nə yaxşı ki, tək qalmışam ……………………………….........148
Təki gəl, gözlərəm…………………………..……...................148
Duy məni bir az…………………………………......................148
Gəl doğulaq yenidən……………………..……........................149
Sənnən incimişəm…………………..……….….......................149
Deməm daha……………………………………….…..................150
Yollar yorğunu…………………………………….…...............150
Bu gecə……………………………………….........................150
Kimsəyə əl açmıram………………………………….…............151
Bu soyuqluq……………………………………............................151

Hanı bir baxıcı, baxtıma baxa……………………………..152
Başqalaşmışam………………………………………....................152
Gözləyəcəyəm……………………………………….....................153
Yol üstədi, təkəri yox……………………………………..........153

POEMALAR

Atamı yada saldım ………………………………………..........154
Natalya…………………………………..................................158
Könül……………………………………...................................161